1. Эстетические. Например, ceyran (газель) “о красавице, об очень красивой девушке и молодой женщине”, сокол “юноша, мужчина, отличающийся красотой”; crow(ворона) “старая или безобразная женщина”.
2. Интеллектуальные. Например, qoyun – “глупый упрямый человек”; тетёха “глуповатая, несообразительная, необразованная женщина”; ape(примат) “грубый глупый мужчина”.
3. Эмоциональные. Например, keçi (коза)“ о резвой, бойкой девочке, девушке”, filly (молодая кобыла) “веселая энергичная девочка или молодая женщина”;кукла“о бездушном, пустом человеке (чаще женщине)”.
4. Этические. Например, ifritə “о злой, сворливой женщине с плохими намерениями ”; змея “о злой, язвительной женщине”; gentleman (джентльмен) “вежливый и честный мужчина, который принимает во внимание потребности других людей”.
5. Нормативные оценки. Например, fil (слон) “о высоком, толстом, неуклюжем человеке”; донжуан “покоритель женских сердец, соблазнитель”; amazon (амазонка) “высокая, сильная женщина”.

Итак, при сравнениииии трех лингвокультур в отношении гендерно-маркированных стереотипов в процессе описания человека наблюдаются общие черты приописании и оценке людей через метафорические выражения. Общим является и то, что характер, внешность и поведение человека являются характерными признаками для формирования стереотипного образа мужчины и женщины в данных лингвокультурах.

**Ключевые слова:** Гендер, пол, метафора, лингвокультура, онтология.

**Литература**

1. Арутюнова Н.Д. Язык и мир человека.М.: Языки русской культуры, 1999. 896 с.
2. Резанова З.И. Гендерная метафора: типология, лексикографическая интерпретация, контекстная репрезентация, Вестник Томского государственного университета. Филология. 2011. №2 (14), с.47–57.
3. Хлебникова А.Л. Метафорическое моделирование образов человека: к проблеме гендерной и этнокультурной специфичности. Вестник Томского государственного университета, 2016, № 406, с.18–24.
4. Əlizadə F. Dil və cinslərin qarşılıqlı münasibətləri. Müasir sosial-siyasi dəyişikliklər mətnində gender təhsilinin inkişafı» elmi-praktiki konfransın materialları, Bakı, 2004.
5. The Handbook of Language and Gender. Oxford, 2003.

**Azərbaycan, rus və ingilis dillərində qender metaforları**

Bu məqalədə Azərbaycan, Rus və İngilis dillərində qender metaforları araşdırılır. Məlum olduğu kimi, 20-ci əsrin sonlarında metaforların tədqiqatları geniş yayılmışdir. Ontoloji metaforlara aid olarn qender metaforları mədəni məkanda cins problemini işıqlandırır və onlarıntədqiqi böyük maraq doğurmağa başlamışdir. Məqalədə üç dildə qender metaforlarının müqayisəsi aparılır və onların ümumi cəhətləri göstərilir.

## AZƏRBAYCAN DÖVLƏTİNİN MƏŞĞULLUQ SİYASƏTİNDƏ QADINLARIN ROLU

**Validə Cəfərova**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: sharifovavalida@gmail.com

Azərbaycan dövlətinin siyasətində qadınların məşğulluğu, qadınların ictimai-siyasi həyatda iştirakı, cəmiyyətdə baş verən proseslərdə qadınların aktiv mövqe nümayiş etdirməsi aparıcı mövqe tutur.Azərbaycan cəmiyyətində gender bərabərsizliyi problemi hələ də mövcuddur. Bu problemin mənfi təsirlərinin qurbanları qadınlar və uşaqlardır. Qadınların ictimai həyatda iştirak etməməsinin başlıca səbəblərinə erkən yaşda nigaha daxil olmaq, təhsil almaq imkanından məhrum olmaq və sair daxildir.

İşsiz əhali arasında qadınların sayı kişilərə nisbətən daha çoxdur. Ancaq məşğulluq idarəsində işsiz kimi qeydiyyatdan keçən və işsizliyə görə müavinat alan kişilərin sayı çoxluq təşkil edir. Qadınlar arasında təhsil səviyyəsinin, eyni zamanda sosiallaşmanın, təbliğatın aşağı səviyyədə olması bu kimi hüquqlardan onların az faydalanmasına səbəb olur. Bu səbəblər qadınların sosial müdafiəsini, müavinətlərdən faydalanmasını əngəlləyir.

Azərbaycan Prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji

Yol Xəritəsi"ndə 2017-ci ildə qadın sahibkarlar üçün kreditləşmə, vergiqoyma və digər güzəştləri nəzərdə tutan stimullaşdırıcı tədbirlər nəzərdə tutulur. Bu tədbirlər Azərbaycanda qadınların iqtisadi təşəbbüskarlığının reallaşdırılması imkanlarını əhəmiyyətli dərəcədə artıracaq. Tədbirlər hazırlanan zaman, xüsusilə kənd yerlərində qadın məşğulluğu məsələsi diqqət mərkəzində olacaq.

Bundan başqa, 2017-2020-ci illərdə qadın sahibkarlara informasiya dəstəyi vermək üçün qadınların sahibkarlıqla bağlı zəruri olan məlumatlara əlçatanlığının təmin olunması məqsədilə müxtəlif tədbirlər həyata keçiriləcək. Kiçik və orta sahibkarlıq agentliyinin nəzdindəki məlumat portalında bununla bağlı xüsusi bölmə yaradılacaq və əlaqəli məlumatlar burada öz əksini tapacaq. Həmin illərdə qadın sahibkarlığının inkişafına töhfə vermək üçün qadın sahibkarlar assosiasiyalarının və peşə təşkilatlarının yaradılması təşviq ediləcək.

Bu prioritetin icrası nəticəsində ölkədə qadınların sahibkarlıq fəaliyyəti üçün daha əlverişli mühit yaranacaq, kiçik və orta sahibkarlar arasında qadınların sayı daha da artacaq. Bu fəaliyyətlər həmçinin məşğulluq göstəricilərində də qadınların payının artmasına müsbət təsir göstərəcək. Qeyd edək ki, ölkə üzrə iqtisadi fəal əhalinin ümumi sayında (4915,3 min nəfər) qadınların sayı 2404,5 min nəfər olub. Qadınların təmsilçilik göstəriciləri məşğul əhalinin sayında (4671,6 min nəfər) da aşağı səviyyədədir – belə ki, məşğul kişilərin sayı 2408,2 min, məşğul qadınların sayı isə 2263,4 min nəfər təşkil edib. Təbii ki, bu göstərici işsizliyə də öz təsirini göstərir – 243,7 min nəfər işsizin 141,1 min nəfərini qadınlar təşkil edib. Rəsmi statistikaya əsasən, onlardan yalnız 11,1 min nəfəri işsiz statusu alıb. Qadınlar daha çox təhsil, səhiyyə və incəsənət sahələrində təmsil olunurlar.

Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi qadınların məşğulluğunun aradan qaldırılması ilə bağlı tədbirlər həyata keçirir. Komitə əməkdaşları aztəminatlı ailələrlə, sağlamlıq imkanı məhdud olan övladı olan analarla müraciətlər əsasında əlaqə saxlayır, onların işlə təmin olunması istıqamətində iş aparır. Qadınların sahibkarlıq fəaliyyətinə cəlb olunması üçün bir sıra təlimlər keçirilib və iştirakçılara sertifikatlar verilib. İşsiz qadınların peşə kurslarına cəlb olunması, özünüməşğulluğun təmin edilməsi məqsədilə komitə tərəfindən tədbirlər davam etdirilir.

Qeyd etmək istəyirəm ki, ölkəmizdə 1 milyona yaxın qaçqın və məcburi köçkün var. Azərbaycan Respublikası Prezidentinin "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" təsdiq edilmişdir. Bu sərəncamdan irəli gələn vəzifələr Azərbaycan Respublikası Nazirlər Kabinetinin tədbirlər planında qadınların məşğulluq fəaliyyətinin təmin olunması vəziyyətinin öyrənilməsi və bu yöndə onların aktivliyinin artırılması müxtəlif layihələrdə öz əksini tapmışdır. Məcburi köçkün qadınların məşğulluğu ciddi problem olduğundan məsələni aktuallaşdırmaq və ümidsiz qadınların inkişafına çalışmaq lazımdır.

Hesab edirəm ki, rəsmi və qeyri-rəsmi sektorda aparılan tədbirlərə aşağıda qeyd etdiklərim əlavə olunarsa qadınların məşğulluğu tez bir zamanda artar:

- Dövlət qurumları tərəfindən qadınların məşğulluğun inkişafınadəstəyin verilməsi;
- Sahibkarlara qadınların xüsusi qruplarının (hamilə və 3 yaşına çatmamış uşağı olan qadınlara,sağlamlıq imkanı məhdud övladı olan analar) məşğulluğunun təşkilində dövlət tərəfindən dəstəyin verilməsi;

- Xidmət sahələrində qadınların daha çevik fəaliyyət göstərməsi üçün müəyyən əlaqələndirici firmaların, şirkətlərin fəaliyyət göstərməsi;
- Əmək məcəlləsində 18 yaşadək övladları olan analara dövlət və qeyri-dövlət sektorunda güzəştlərin tətbiq edilməsi;
- Hamilə və 3 yaşına çatmamış uşağı olan qadınlara , sağlamlıq imkanı məhdud olan övladı olan valideynlər ( analar ) daha çox güzəştlərdən istifadə etməlidirlər.

**Açar sözlər**: qadınların məşğulluğu, gender, rəsmi və qeyri-rəsmi sektor, özünəməşğulluq, qanunvericilik, sağlamlıq imkanı məhdud olan valideynlər, əmək məcəlləsi.

**Ədəbiyyat**

1. http://www.e-sosial.gov.az
2. http://www.e-qanun.gov.az
3. AR Dövlət Statistika Komitəsinin rəsmi məlumatları (https://www.stat.gov.az/).
4. AR-də Peşə Təhsili və Təliminin İnkişafına dair Strateji Yol Xəritəsi, Bakı, 06.12. 2016-cı il. (http://www.e-qanun.az/framework/34254).
5. 2015- 2025-ci illərdəAzərbaycan Gənclərinin İnkişaf Strategiyası, Bakı.

## GENDER MÜNASİBƏTLƏRİNİN SƏBƏB MƏZMUNU

**Günel Əhmədova**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: gunel.ahmedova.1987@gmail.com

İki və ya ikidən artıq sadə cümlənin birləşməsindən yaranan tabeli mürəkkəb cümlələr intonasiya və məna cəhətdən bir birlik təşkil edir və tam bir düşüncənin təzahürünə xidmət göstərir.

Tabesiz mürəkkəb cümlələrdə olduğu kimi, tabeli mürəkkəb cümlələrin hissələri arasında müxtəlif məna bağlılığı mövcuddur.

Həmin əlaqədən biri səbəb-nəticə əlaqəsi adlanır. Səbəb (kauzativlik) əlaqəsi sintaktik münasibətləri səbəb budaq cümlələri vasitəsi ilə də ifadə edərək səciyyələndirir. Həmin münasibətlər iki cürdür: 1) xüsusi səbəb; 2) xüsusi olmayan səbəb (səbəb-arqument). Bunlar səbəb əlaqəsinin ifadə tipləri də adlandırılır [1, s. 4].

Tabeli mürəkkəb cümlələr kauzal (səbəb) münasibətlərinin ümumi xarakterini müəyyənləşdirir. Bunların arasında semantik struktur, invariant mənalar, yaxınlıq, bağlayıcılar, həmin növ cümlələrin kəmiyyət və keyfiyyət xüsusiyyətləri, funksional imkanların və konseptual reallaşmanın bu tip cümlələrdə əhatəsi və s. əsas yerlərdən birini tutur.

Bəzən səbəb-nəticə əlaqəsi ilə qurulan tabesiz və tabeli mürəkkəb cümlələri fərqləndirmək çətin olur." Bu ona görədir ki, tabelilik qismən tabesizliyin hesabına əmələ gəlir və artır. Bu proses daimi surətdə davam edir. Bunun nəticəsində dildə hələ formalaşma prosesi keçirən cümlə tiplərinə rast gəlirik" [2, s.100 (419 s.)].

Hələ tarixən səbəb konseptinin Azərbaycan dili dərsliklərində həm əsl səbəb budaq cümləsi ilə, həm də səbəb zərfliyi vəzifəsi daşıyan tərkiblərlə ifadə edildiyi göstərilmişdir. 30-cu illərdə istifadə olunan dərsliklərdə belə bir fikirlə rastlaşmaq olur ki,"bu kimi budaq cümlələr baş cümlə ilə çünki, üçün, ona görə ki, ondan ötrü ki bağlayıcı və tərkibləri və habelə -dan,-dən şəkilçiləri vasitələri ilə bağlanır" [3, s.38].

Burada ziddiyyətli fikirlərin olduğu məlumdur və biz həmin məsələlər üzərində gələcək araşdırmalarımızda dayanacağıq.

Səbəb konseptinin tabeli mürəkkəb cümlələrlə ifadəsində səbəb məzmunlu bağlayıcı birləşmələrin rolunu qeyd etdik. Həmin bağlayıcı birləşmələr bunlardır: *ona görə ki, ondan ötrü ki, onun üçün ki, o səbəbə görə, bu səbəbə görə* və s. Ümumilik olduğuna görə məna asılılığı bu tip cümlələrin səbəb yaxud məqsəd budaq cümlə ola bilməsini də aydınlaşdırır. Məs.: səbəb bildirənlər: "Kənddən ona görə köçdük ki, düşmənçiliyin izi itsin"; məqsəd bildirənlər: "Ona görə gəlmişdi ki, çoxdan görmədiyi qızını geri-kəndə qaytarsın".

Həmin konseptin əmələ gəlməsində intonasiya da mühüm rola malikdir: "Hara gedir, başı keçəl olduğundan geri qaytarırlar".

Nəhayət, mühüm nəticələrdən biri bundan ibarətdir ki, kauzallıq, səbəbilik sonsuz semantik tutumdan, həcmdən mürəkkəbliyinə, çoxobrazlığına görə fərqlənir. Beləliklə, səbəb və nəticə budaq cümləsi böyük dayanaqlığı, möhkəmliyiilə səbəb konseptini səciyyələndirir, ən başlıcası isə iki əsas kauzal əlaqə tipini ifadə edir.

**Gender münasibətlərinin səbəb məzmunu.** Gender münasibətləri sosial münasibətlərin tərkib hissələridir. Gender münasibətlərinin səbəb məzmunu bədii əsərlərdə müxtəlif dil vasitələri ilə ifadə olunur. Bu vasitələrdən biri SB (sintaktik bütövlərdir). SB genderlə bağlı mətnlərin struktur fraqmentidir. Belə bütövlər əlaqəli nitqin (mətnin) cümlədən böyük elə bir bitkin mənalı parçasıdır ki, onu bir daha bitkin mənalı mətnlərə ayırmaq mümkün deyil.

Gender münasibətlərində qorxu sindromu əsas yerlərdən birini tutur. "Qadın daha çox qorxu hissi keçirən məxluqdur". Bu hiss-duyğu yuxarıda qeyd etdiyimiz sintaktik bütövlərdə öz ifadəsini tapır. Belə mətnlərdə, "çünki, buna görə, ona görə" səbəb bağlayıcıları dövr edir və nitqi formalaşdırır. Məs: "Və o qorxunun Bənövşənin də xatirində qala biləcəyini düşünəndə Teymurun ürəyindən bir isti ümid keçdi, işıq keçdi". Çünki bu dünyada hələ Bənövşə vardı,demək hər şey qurtarmamışdı. Bir il, il yarım olardı ki, onu Teymur görmürdü və indi Teymur istəsəydi Bənövşə zəng edə bilərdi. Amma bu görüşdən, Bənövşəyə münasibətindən Teymur qorxurdu, çünki, Buz bulaq vardı, ürəkdə məğrurluq vardı, qadına münasibət vardı. Çünki bir il, il yarım idi ki, Bənövşə ərdən çıxmışdı. İndi Bənövşənin bircə dəfə zəngi Teymurun nəzərində bütün bunların üstündən həmişəlik qələm çəkmək demək idi.Buna görə də Bənövşəni təsadüfən görmək Teymura daha çox sərf edirdi (Ə.Əylisli).

Demək, gender məzmunlu bu mətndə işlənən müstəqil cümlənin əvvəlindəki buna görə də bağlayıcısı aid olduğu cümlə ilə əvvəlki cümlə arasında səbəb-nəticə əlaqəsi yaratmışdır. Son müstəqil cümlədəki "ona görə ki" bağlayıcısı isə təbii səbəb-nəticə əlaqəsinin sırasını pozmuş, özündən əvvəlki nəticənin səbəbini aydınlaşdırmışdır.

**Açar sözlər:** konsept, səbəb-nəticə konsepti, tabeli mürəkkəb cümlə, bilavasitə səbəb.

**Ədəbiyyat**

1. Abdullayev Ə. Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr. Bakı, "Maarif", 1974.
2. Əhmədova K. Çoxkomponentli mürəkkəb cümlələr (Müasir Azərbaycan dili materialları əsasında), Bakı, "Elm və təhsil", 2014.
3. Həsənov İ., Şərifov A. "Grammar", Orta məktəb üçün. İkinci hissə, Azərnəşr, Bakı, 1933.

## MARQARET ETVUD YARADICILIĞINDA QADIN İDENTİKLİYİ PROBLEMİ

**Əsmər Əkpərova**
Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan
e-mail: esmermirzeyeva@yahoo.com

M. Etvudun dünyaya göz açdığı Ontario bölgəsi ingilisdilli əhalinin üstünlük təşkil etməsilə seçilsə də, atasının təbiət qoynunda aparılan təcrübə və müşahidələrinin obyektiv zərurətilə Etvudlar ailəsinin uzun illər yaşamış olduqları bölgə Kanadanın fransızdilli əyalətlərində qərar tuturdu. Kanadanın Kvebek bölgəsi əsasən, sadəcə olaraq, fransızdilli əhalinin üstünlük təşkil etməsilə deyil, Kanada etnomentallığında paralel reallığa yol açan bölgə kimi tanınırdı. Belə ki, Kanadanın ingilis-fransız bilivistik mühiti bu ölkənin əhalisinin dünyanın dil mənzərəsini, milli identikliyini ABŞ və ya Britaniya ingilisdilli əhalisinin etnomentallığından fərqləndirirdi. Təsadüfi deyil ki, M.Etvud özünün 1970-ci ildə işıq üzü görmüş "Susanna Mudinin jurnalları" adlı kitabına "Son söz"ündə ABŞ-ın mental xəstəliyinin meqalamaniya, Kanadanın mental xəstəliyinin isə paranoidal şizofreniya olduğunu qeyd etmişdir [6, s.48]. Özünün 20 il sonra Mari Morrislə müsahibəsində M.Etvud "xəstəlik" sözünün bəlkə də, yerində işlənmədiyini, bunun əvəzinə "düşüncə tərzi", "ruh halı" ifadəsinin daha uğurlu ola biləcəyini etiraf etmişdi. Yazıçı bununla belə, ABŞ identikliyi ilə Kanada identikliyi arasındakı fərqlə bağlı yanaşmasında israrlılığını davam etdirək qeyd edir ki, "ABŞ böyük və qüdrətli dövlətdir. Kanada isə bölünmüş vəziyyətdədir və real təhlükə qarşısındadır ... Kişilər məndən tez-tez soruşurlar ki, niyə qadın qəhrəmanlar paranoidal təbiətlidirlər. Bu, paranoyya deyil. Bu, onların real vəziyyətinin etirafıdır [1]. Yəni, yazıçıya görə, ABŞ identikliyinə böyük və qüdrətlilikdən doğan özünəvurğunluq xas olduğu kimi, Kanada identikliyinə, o cümlədən ölkə qadınlarının ruh halına ikiləşmə, daxili çəkişmə xasdır. Xatırladaq ki, yazıçının "Susanna Mudinin jurnalları" əsərində müəllif sanki öz alter-eqosu kimi, "danışdırdığı" Susanna Mudinin dili ilə 1832-ci ildən başlayaraq, 1969-cu ilədək böyük zaman kəsiyində Kanada həyatından bəhs edir.

Susanna Mudi 1803-1885 illərdə yaşamış ingilis mənşəli Kanada yazıçısıdır. Təsadüfi deyil ki, məhz bu kitabda M.Etvud Kanada identikliyinin təzadlılığına diqqət çəkmişdir. Belə ki, R.P.Bilanın qeyd etdiyi kimi, burada qələmə alınmış şeirləri yalnız bir şəxsə - Susanna Mudiyə aidlik birləşdirmir. Burada "açar obrazlar" olan: ağaclar, od, işıq, zülmət əlaqələndirici funksiya

daşıyır. Məhz, onlara münasibətdə Susanna Mudinin münasibətinin dəyişib inkişaf etməsi onun özünün şəxsiyyət transformasiyalarını ortaya qoyur. Sonda nəhayət ki, Susanna Mudi, M.Etvudun öz sözləri ilə desək, "nəhayət ki, öz daxili aləmini ortaya qoymaqla öncələr nifrət etdiyi torpağın ruhuna çevrilir" [2]. Şəxsiyyət metamorfozlarında təbiətin misilsiz gücü, onun spiritik-mistik təsir potensialı, heç şübhəsiz ki, uzun illər yabanı təbiət qoynunda yaşamış "meşə qızı"nın təbiətlə simbiozundan əxz etdiyi inancdır. Digər tərəfdən əsərdə Kanadada mühacir həyatı yaşayan qadının sarsıntılarının əks olunması faktı əsərə dərin psixologizm qazandırır. L.Groening özünün tənqidi araşdırmasında Susanna Mudini paranoidal şizofreniya diaqnozu ilə səciyyələndirən M.Etvudun psixoanalitik qabiliyyətinə şübhəsini dilə gətirir. Tənqidçiyə görə, Kanadanı və kanadalıları sevməyib eyni zamanda burada sığınacaq tapmağı, Kanada peyzajını vəsf etməklə bərabər onu (Kanadanı – Ə.Ə.) darmadağın etməkdə günahlandırmağını şizofreniya adlandırmağın əleyhinədir. L.Groeningə görə, bu kimi dixotomiyalara ən fərqli terminlərlə şərh vermək olar. Bu sırada paranoidal şizofreniya ən sonda gələ bilərdi [3, s.27]. Bu kimi təzadlı məqamları diqqətdən kənarda qoymayan digər araşdımaçı M.Laskovska isə bunun səbəbini Etvud-tənqidçi və Etvud-yazarın özünün ikili yanaşmasının müəyyən mənada Susanna Mudiyə implikasiya etməsində görür [5].

Maraqlıdır ki, "Tən bölünmüş qadın: postmodern psixodramasında ölüm, duallıq və qadın fiquru" adlı dissertasiya araşdırmasında K.Hanger, Etvudun digər əsərindən ("Lady Oracle") gətirdiyi iqtibasa istinadən bu növ "ikiləşmənin" ümumiyyətlə, postmodern qadın fiquruna xas olduğunu vurğulamışdır. Tədqiqatçı ona diqqət çəkir ki, əslində müasir postmodern qadın fiquru iki deyil, üçlüdür, çox laylıdır [4, s.11]. Bu mənada postmodern eranın məhsulu olan feminist ədəbiyyat və onları ərsəyə gətirən qadın yazarların da ikili, üçlü ölçülü, çoxlaylı identikliyinin olması tam anlaşılandır.

Əslində, M. Etvud öz təbiətinə xas təzadlılığı Kanada mentallığının əsas xüsusiyyəti kimi səciyyələndirməyə çalışsa da, bu ilk növbədə, məhz onun özünün ətrafa, o cümlədən əsərlərindəki qəhrəmanlara proyeksiyalaşdırdığı təzadlı yanaşmanın məntiqi nəticəsindən başqa bir şey deyil. Özünün qadın kimi, qadın yazıçısı kimi deyil, insan olaraq səciyyələndirilməsini daha doğru hesab edir. "Qulluqçunun hekayəsi" romanı az qala MeToo hərəkatının manifesti kimi səciyyələndirildiyi halda, M.Etvud gözlənilməz şəkildə seksual təzyiqlərə məruz qalan "qurban"ların sözlərilə məhkəmə hökmü olmadan insanların ittiham edilməsinin əleyhinə çıxış edən "Mən pis feministəmmi?" (Am I a bad feminist?) məqalə-manifest qələmə alır və bununla da, MeToo hərəkatı tərəfdarlarının ciddi qınağına hədəf olur. Başqa sözlə desək, M.Etvud özünə xas olan "ikiləşməni", tərəddüdlü yanaşmanı, daim həqiqət axtarışında olaraq meystrimə müxaliflik sərgiləməsini Kanada milli identikliyinin aparıcı xüsusiyyətinə proyeksiya edir. Yazar nə dərəcədə haqlıdır və ümumiyyətlə, M.Etvud yaradıcılığında identiklik nə dərəcədə əks olunması problemlərinin təhlili müəllifin daxili aləminin çözülməsi baxımından mühüm əhəmiyyət kəsb edən məqamdır. Xatırladaq ki, Kanadanın bilinqvistik mühiti və xüsusilə də M.Etvudun dağların qoynunda uşaqlıq çağlarını keçirdiyi Kvebek ikili identikliyi ilə seçildiyindən yazıçının fransız dili və mədəniyyətinə xüsusi maraq göstərməsi anlaşılan idi.

Fransız və ingilis identikliyinin Kanada kimliyindəki yeri və mövqeyi məsələsi M.Etvudu çox maraqlandırdığındandır ki, onun ikinci romanı – 1972-ci ildə işıq üzü görmüş “Surfacing” əsəri bilavasitə Kanada milli kimliyi, Kanada milliyətçiliyinin ideoloji nüvəsinin müəyyənləşdirilməsinə həsr olunmuşdur. Əsər müəllifin feminist ideyalarını əks etdirsə də, burada ana xətt - əsas problem identikliklə bağlı aktual olan polemikalardır.

**Açar sözlər:** M.Etvud, feminizm, qadın identikliyi, qadın romanı.

### Ədəbiyyat

1. Atwood M. The Art of Fiction No. 121. Interviewed by Mary Morris, The Paris Review ISSUE 117, 1990.
2. Bilan R.P. Margaret Atwood’s “The Journals of Susanna Moodie".
3. Groening L. The Journals of Susanna Moodie : A Twentieth-Century Look at a Nineteenth-Century Life, Studies in Canadian Literature, Volume 08, Number 2, 1983,78-81p.
4. Hanger K. The woman sawed in half : death, duality, and the female figure of postmodern psychodrama. Dissetation for the degree of Doctor of Philosophy, Detroit: Graduate School of Wayne State University, 2011, 465 p.
5. Laskowska M. Reinterpretations of Susanna Moodie by Margaret Atwood as an Example of Creative Recycling of the Past. Place and Memory in Canada: Global Perspectives, Krakow. 2005, 289-308.
6. Rigney B.H. Madness and Sexual Politics in the Feminist Novel: Studies in Bronte, Woolf, Lessing and Atwood, Madison: University of Wisconsin Press 1978, 205p.

## SÜRMƏLİ (İQDIR) BÖLGƏSİNDƏ TÜRK-MÜSƏLMAN QADINLARA QARŞI ERMƏNİ ZORAKILIQLARI (XX əsrin ilk onillikləri)

**Könül Əliyeva**
AMEA Tarix İnstitutu, Bakı, Azərbaycan
e-mail: konulqabilqizi@mail.ru

Rusiya hakimiyyət nümayəndələrinin himayəçiliyindən yararlanan erməni qatı millətçi qüvvələriXX əsrin ilk onilliklərində özgə torpaqlarına yiyələnmək, etnik təmizləmə siyasəti yeridərək monoetnik “Böyük Ermənistan” dövləti yaratmaq niyyətlərini gerçəkləşdirmələyə girişdilər. XX əsrin başlanğıcında Azərbaycanın əksər bölgələrində Daşnaksutyun partiyasının və erməni qriqorian kilsəsinin yaratdıqları və maliyyələşdirdikləri erməni terrorçu dəstələrinin dinc müsəlman-türk əhaliyə qarşı vəhşilikləri, qadın və qızlara, qocalara, körpə uşaqlara qəddarlıqla divan tutmaları, müsəlmanların evlərini, əmlakını yağmalamaları, sonra da yandırıb, istifadəyə yararsız qoymaları bir qayda olaraq cəzasız qaldı. Azərbaycanın qeyrətli oğullarının yaratdıqları müdafiə təşkilatları və özünümüdafiə qüvvələri bu erməni vəhşiliklərinin daha geniş miqyas almasını yalnız qismən əngəlləyə bildi.

Erməni ictimai-siyasi təşkilatları yarandığı vaxtdan öz sıralarına cəlb etdiyi gənclərdə qonşu xalqlara, ilk növbədə türk-müsəlman əhalisinə qarşı nifrət aşılamış, “dənizdən dənizə Böyük Ermənistan” yaratmaq üçün etnik təmizləmənin əsas şərt olduğunu bildirmiş, bu məqsədə çatmaq üçün terrordan istifadə edilməsini təbliğ etmişdilər. Bu məsələlərin obyektiv araşdırılması həm də ona görə vacibdir ki, müasir dövrdə erməni təbliğat maşını və ona dəstək olan xristian mediası ermənilərin qonşu xalqlara, dinc insanlara, xüsusən də qadın uşaq və qocalara qarşı kütləvi qətl və qarətlərə “1915-ci il hadisələri”ni özlərinə sərfəli şəkildə təhrif etməklə haqq qazandırmağa çalışır, 1920-ci illərdə AXC və Türkiyə ictimai-siyasi xadimlərinə qarşı terror aktlarını “erməni fədailərinin qisas aktları” kimi qələmə verirlər. Obyektiv tədqiqat aparılması isə tamam fərqli bir real mənzərəni üzə çıxarmağa imkan verir: ermənilərin ilk böyük siyasi təşkilatları – Qnçak və Daşnaksutyun partiyaları yarandığı vaxtdan terrorizmi siyasi mübarizə vasitələrindən biri kimi elan etmişdilər. Erməni qriqorian kilsəsi də bu işdə çox fəal olmuş, kilsə vəsaitini silah-sursat, partlayıcı maddələr alınmasına xərcləmiş, kilsə başçıları da ekstremist moizələri ilə qatı millətçiliyi, qonşu xalqlara düşmən kimi baxılmasını təbliğ etmişdilər.

1905-1906-cı illərdə və 1918-1920-ci ildə Azərbaycanda və Şərqi Anadoluda türk-müsəlman yaşayış məntəqələrinin qarət edilməsinə, dinc əhaliyə qarşı kütləvi qətliamlara başçılıq etmiş Arşak Qafavyan (Keri), Arutyun Şaqikyan (Nitra, Atom), Ovsep Arqutyan, Qaregin Pastermacan (Armen Qaro), Murad Sebastatsi, Hamazasp Srvantsyan, Drastamat Kanayan (Dro), Qaregin Njde, Andranik Ozanyan erməni milli azadlıq hərəkatı liderləri, milli qəhrəmanlar kimi təqdim edilir [1, 2]. İlkin mənbələr, o cümlədən erməni müəlliflərinin istinad etdikləri mənbələr isə bu “qəhrəmanların” azərbaycanlı qadın və uşaqlara qarşı qəddarlığını, dinc əhaliyə divan tutmalarını əks etdirir.

1905-1906-cı illərdə erməni silahlı dəstələri Bakıda, Gəncədə, Qarabağda, İrəvanda, Naxçıvanda, Ordubadda, Şərur-Dərələyəzdə, Sürməlidə, Tiflisdə, Zəngəzurda, Qazaxda və başqa yerlərdə dinc azərbaycanlılara qarşı kütləvi qırğınlar törətdilər, dinc əhalini amansızlıqla qətlə yetirdilər. Şəhər və kəndləri yağmalayıb, sonra da yandırdılar və dağıtdılar. Erməni silahlı dəstələri bütövlükdə Şuşa, Zəngəzur və Cəbrayıl qəzalarında, İrəvan quberniyasında azərbaycanlılar yaşayan 200-dən artıq yaşayış məntəqəsini viran qoydular, on minlərlə dinc sakin öz doğma yurdlarından qaçqın və məcburi köçkün düşdü. Ermənilər 200 mindən artıq azərbaycanlını, o cümlədən uşaq, qadın və ahıl qocanı fərq qoymadan qətlə yetirməklə həmin ərazilərdə etnik təmizləmə apardılar.

1905-1906-ci illərdə Cənubi Qafqazın müxtəlif bölgələrində, o cümlədən Sürməli qəzasında azərbaycanlıların vəhşicəsinə qətlə yetirilməsi ondan xəbər verirdi ki, ermənilər bu münaqişəyə qabaqcadan çox yaxşı hazırlaşmışdılar. Milli zəmində silahlı qarşıdurmanın aradan qaldırılması üçün heç bir ciddi tədbir görməyən Rusiya hakimiyyəti nümayəndələri faktiki olaraq hadisələrin daha da gərginləşməsində maraqlı idilər. 1905-1906-cı illər erməni-türk müsəlman qarşıdurması zamanı ermənilərin türklərə qarşı amansız, vəhşi münasibəti nəticəsində minlərlə türk qanına qəltan edildi. Ermənilər qoca, uşaq, qadın demədən, qarşılarına çıxan hər bir müsəlman türkünü vəhşicəsinə qətlə yetirdilər.

M.S.Ordubadi "Həyatım və mühitim" adlı memuarında ermənilərin azərbaycanlı dinc əhaliyə qarşı başlatdığı qətl və qarətlərin sadə ermənilər üçün də fəlakətlər gətirdiyini qeyd etmişdir: "1905-1906-cı illərdə baş verən erməni-müsəlman ixtilafından törənmiş faciələrin bir çoxunu öz gözümlə görmüşəm. Mən hər iki tərəfdə dağılan kəndlər, yanan evlər, günahsız öldürülən sürülərlə cocuqlar və qadınlar görmüşəm" [3].

Birinci dünya müharibəsi dövründə Rusiya tərəfindən müharibədə iştirak edən erməni dəstələrinin həm yeni işğal edilmiş Şərqi Anadolu bölgələrində, həm də cəbhəyə yaxın olan Rusiya əyalətlərində dinc müsəlman türk və kürd əhaliyə qarşı kütləvi qətl və qarətləri kütləvi hal aldı. Türkiyə tədqiqatçısı Mehmet Perinçikin Rusiya arxivlərindən toplayıb nəşr etdiyi sənədlərdə bu haqda çoxlu məlumatlar əks olunmuşdur. Bu sənədlərin mühüm bir hissəsini Rusiya hərbi tribunallarının protokolları təşkil edir. Protokollarda Rusiyada yaradılmış və silahlandırılmış erməni hərbi birliklərinin müharibə qaydalarını kobud şəkildə pozaraq cəbhəyə yaxın olan Rusiyaya məxsus bölgələrdə, xüsusən Qars vilayətində və İrəvan quberniyasının Sürməli qəzasında qadınları, uşaqları və qocaları kütləvi şəkildə qətl etmələri haqqında istintaq materialları qeyd edilmişdir [4].

Rusiyanın Qafqazdakı ordusunun baş ştab rəisi general-mayor L.Bolxovitinovun 1915-ci ildə Qafqaz canişininə ünvanladığı 65 səhifəlik "Birinci dünya müharibəsi dövründə erməni silahlı dəstələrinin Türkiyədə və Zaqafqaziyada (Cənubi Qafqazda – K.Ə.) fəaliyyəti haqqında raport"da da dinc əhaliyə: qadın, uşaq və qocalara qarşı erməni silahlı dəstələrinin zorakılıqları barəsində geniş məlumat verilmişdir. Rus hərbçisi erməni silahlı dəstələrinin müharibə qaydalarını kobud şəkildə pozaraq cəbhəyə yaxın olan Rusiyaya məxsus bölgələrdə, xüsusən Qars vilayətində və İrəvan quberniyasının Sürməli qəzasında dinc əhaliyə divan tutmalarından bəhs etmiş, eləcə də rus komandanlığının bunun qarşısını almaq üçün gördüyü tədbirləri qeyd etmişdir [5]. Erməni vəhşilikləri haqqında faktları sadaladıqdan sonra general L.Bolxovitinov Qafqaz canişininə məsləhət görürdü ki, müxtəlif yalan və hiylələrlə erməni tərəfini zərərçəkmiş tərəf kimi qələmə verən erməni xadimlərinə inanmasın.

1918-ci ilin ilk aylarında Böyük Britaniyanın maliyyə yardımı hesabına azğınlaşan erməni hərbi hissələrinin işğal edilmiş ərazilərdən geri çəkilərkən törətdikləri vəhşiliklər haqqında Cənubi Qafqaz Seyminin Azərbaycan fraksiyasına Ərzurum, Qars vilayətlərindən, az sonra isə həm də İrəvan quberniyasından göndərilən məlumatlar da ibrətamizdir. Bu məlumatlara görə, türk ordusu qarşısında geri çəkilən erməni əsgəri hissələri və silahlı erməni qaçqınları Qars vilayətində yolları üzərindəki müsəlman kəndlərini yandırır, yer üzündən silir, hər kəsi qılıncdan keçirirdilər. Yerli müsəlman-türk və kürd əhalinin ağır vəziyyəti haqqında "dəhşət və fəlakət" deyə bəhs edilirdi: "Erməni "qalib ordusu" ... süngü ucuna taxılmış südəmər cocuqları, çılpaq soyundurduqları müsəlman qadınları keçdikləri yol boyunca çərgə ilə düzürlər" [6, s.82]. Bu vilayətdə 86 kənd bu cür təsəvvürə gəlməyəcək dəhşətli fəlakətə düçar olmuşdu: "Zəngin Qars vilayəti kapitan Musasyanın və general Areşevin vəhşət və dəhşətlərilə 1915-ci ilin başlanğıcında üzləşdiyi fəlakəti unutmuşdur" [6, s.82].

Həmin ilin mart ayına kimi təkcə İrəvan quberniyasında erməni hərbi birlikləri tərəfindən 199 kənd dağıdılmış və qarət edilmişdi. Dağıdılmış yaşayış məntəqələrindən 32-si İrəvan qəzasının, 76-sı Sürməli qəzasının, 84-ü Eçmiədzin qəzasının, 7-si Novo-Bayazit qəzasının payına

düşürdü.1918-ci ilin ilk aylarında Sürməli qəzasının 76 müsəlman kəndində kəndlərdə 5493 təsərrüfat qarət edilmiş, 41347 nəfər, o cümlədən 19458 qadın və qız öz evlərini tərk etmək məcburiyyətində qalmışdı [7, siy.10, iş 80, v.1-4, 51-52].

Dinc müsəlman-türk əhalini, qadın, uşaq və qocaları amansızlıqla qətlə yetirən erməni hərbi qüvvələri nizami Osmanlı qoşunlarının zərbələrinə davam gətirməyərək geri çəkilməyə məcbur qaldı. Martın 6-da Ərdahan, martın 12-də Ərzurum erməni silahlı quldur dəstələrindən azad edildi. Erməni korpusu 1918-ci ilin fevral-mart aylarında nizami Osmanlı qoşunları ilə ilk döyüşlərdən sonra vahimə içərisində "Türkiyə Ermənistanı" adlandırdıqları əraziləri tərk etmişdi. Qafqaz cəbhəsindən qaçan erməni hərbçiləri və silah ələ keçirmiş erməni qaçqınları geri çəkildikləri yol boyundakı müsəlman yaşayış məntəqələrini qarət etmiş, dinc insanları, xüsusən də qadın, uşaq və qocaları qətlə yetirmişdilər. Ərzurum işğal edildikdən sonra oradakı rus artilleriya alayının komandiri, podpolkovnik Tverdoxlebov bu hadisələrin şahidi olmuş, 1918-ci ilin ilk aylarında ermənilərin törətdikləri qətl və qarətlər haqqında yazmışdı: "ermənilər əsil türk əsgərləri ilə döyüş meydanlarından qorxaqcasına və əclafcasına qaçırdılar. Lakin dəstə halında ikən silahsız tək adamın, qoca, uşaq və qadınların üzərinə hücum etdikdə hədsiz dərəcədə cəsur və qoçaq olurdular" [8, c.137].

1918-ci ilin mayındaQərbi Aərbaycan – İrəvan quberniyası ərazisində Ermənistan Respublikası yaradıldıqdan sonra dövlət səviyyəsində etnik təmizləmə siyasətinin yeni mərhələsi başlandı. İrəvan quberniyasının yerli azərbaycanlı əhalisi üçün fəlakətlərin miqyası dəfələrlə artdı. Dinc insanların, xüsusən də qadın, uşaq və qocaların doğma yurdlarından qovulması, qətl və qarətlərə məruz qalması buradakı azərbaycanlı əhalini kütləvi məhv olmaq təhlükəsi ilə üz-üzə qoydu.

1919-cu ilin avqust ayında Ermənistan hərbi qüvvələri Sürməli və Eçmiədzin qəzalarında yeni əməliyyatlara başladı. Qısa müddət ərzində 60-dan çox kənd qarət edildi və dağıdıldı. Bu kəndlərin bütün kişi əhalisi və gözəl qadınları erməni silahlı dəstələri tərəfindən aparıldı. Ermənilərin bu hücumuna başçılıq edən Ermənistan Hərbi nazirinin müavini Dro erməni dəstələrinin zorakılıqlarını, qətl və qarətlərini "strateji zərurət" dəyərləndirdi. Guya ermənilərin müsəlman kəndlərini dağıtması türk-kürd dəstələrinin olası hücumu zamanı "arxanın təhlükəsizliyini təmin etmək" məqsədini güdürdü [9, siy. 10, iş. 80, v. 212].

Bu son dərəcə ağır zamanda AXC hökuməti bütün mümkün vasitələrlə İrəvan quberniyasının azərbaycanlı əhalisinin hüquqlarını müdafiə etməyə çalışır, qaçqınlara pul, ərzaq və paltar yardımları göndərirdi. Azərbaycan Respublikası Dövlət Arxivinin 8 saylı – Himayəçilik nazirliyi fondunda bununla bağlı çoxlu sayda məlumatlar saxlanmışdır. Himayəçilik nazirliyinin fondunda AXC hökumətinin Ermənistan hökuməətindən fərqli olaraq erməni əhalisinə humanist davranması, Bakı şəhərində yaşayan kasıb erməni ailələrinə də pul yardımı göstərməsi haqqında çoxlu sənədlər vardır [10, siy.1, iş 24, v.21,24,28,31,43,53,64 və s.].

İqdır soyqırım-anıt-muzeyi eksponatlarından bir qismində İqdırda "Çavuşoğlu samanlığı" adlı yerdə aşkar edilən qətliam qurbanları əks olunmuşdur. Həmin yerdə yeni bir ev tikmək üçün bünövrə qazılarkan insan cəsədi qalıqları aşkar edilmişdir. Hacəttəpə Universiteti laboratoriyasında

antropoloq Metin Özbək tərəfindən tədqiq edilən bu skletlər haqqında ekspert rəyi belədir: qətl edilənlər 17-18, 27-30, 39-44 yaşlı qadınlar və 50 yaşdan yuxarı kişilərdir. Üzərində zorakılıq nişanələri olan bu insan qalıqları 1918-1920-ci illərdə qətl edilmiş türklərə aiddir.

1919-cu il sentyabrın 17-də erməni silahlı dəstələrinin məhv etdiyi bir yaşayış məntəqəsi də Sürməli (İqdir) bölgəsininHakmehmet kəndi olmuşdur. Bu kənddəki erməni vəhşiliklərini görmüş yerli sakin Hacı Abbas Günəşin göstərdiyi yeri tədqiq edən mütəxəssislər 1999-cu il oktyabr ayının 5-də axtarış-qazıntı işləri nəticəsində 98 qadın, uşaq və qoca insanın öldürülüb quyuya atıldığını müəyyən etmişlər. Aparılan antropoloji tədqiqatlar başı, əli, qolu kəsilmiş, iplə boğulmuş bu insan qalıqlarının yerli türk əhaliyə aid olduğunu təsdiq etmişdir.

1920-ci il iyunun 30-da Türkiyə qoşunlarının 15-ci korpusuna bağlı 3-cü diviziya komandanlığına verilən raportlara görə ermənilər Uluxanlı ətrafında yerləşən Qaraoğlu və Çebeçalı kəndlərini, həmçinin Laloğlu, Novosəlim, Qaraçayır, İqdır, Ağpinar, Qırxpinar yaşayış məntəqələrini yağmalamış, əhalisinin bir qismini qətl etmişdilər. Yeddikilsə, Asboğa kəndlərinin əhalisini tamamilə qətlə yetirmişdilər. Boyalı və Laloğlu kəndlərindən toplanmış qadın, qız və uşaqları Ağçaqala çuxurunda öldürmüşdülər. Bu qətliamlardan xəbər tutan Aşağısalut, Yuxarısalut, Çıplaklı, Qatranlı, Başkənd, Bəykənd, Zallıca və Yenikənd əhalisi mal və mülklərini ataraq qaçıb Bardizə sığınmışdılar. Odalar, Ova, Hacıbayram, Xeyirbəyli kəndləri də qarət edilmiş, əhalinin bütün əmlakı və mal-heyvanı aparılmışdır. Ermənilər Zəngibasarı işğal etmiş, qaçan əhaliyə pulemyotlardan atəş açmışlar. Bu zaman Aralıq nahiyəsinə tərəf qaçan 1500 uşağı ermənilər ələ keçirib Araz çayına atıb suda boğmuşlar [11, s.153].

1920-ci il dekabrın 2-də Türkiyə ilə Ermənistan arasında Gümrüdə bağlanməş sülh müqaviləsinə görə Sürməli (İqdir) bölgəsi Türkiyəyə keçdi və bu ərazilərdə əmin-amanlıq yarandı. Qadın, qoca və uşaqlara qarşı erməni zorakılıqlarına son qoyuldu.

**Açar sözlər**: erməni silahlı dəstələri, türk-müsəlman əhalinin soyqırımı.

## Ədəbiyyat


1. Мелик-Шахназарян Л. Ходжалинское дело: Особая папка. Ереван, 2002.
2. Погромы армян в Бакинской и Елизаветпольской губернии. Ереван, 2003.
3. http://karabakhmedia.az/main/12765-mmmd-sid-ordubadinin-andronikl-musahibsi.html
4. http://nofalsify.com/sitat/1772_Perinçek Mexmet.html
5. Рапорт генерал-майора Болховитинова о деятельности армянских вооруженных отрядов в Турции и Закавказье в Первую мировую войну. Баку, Азернешр, 2012, 152 с.
6. "İstiqlal", 28 mayıs 1919-cu il. Bakı,2014
7. Azərbaycan Respublikası Dövlət Arxivinin 894 saylı – AXC Daxili işlər nazirliyinin fondu
8. История Азербайджана по документам и публикациям. Под ред. акад. З.М.Буниятова. Баку, Элм, 1990, 384 с.
9. Azərbaycan Respublikası Dövlət Arxivinin 970 saylı – AXC Xarici işlər nazirliyinin fondu
10. Azərbaycan Respublikası Dövlət Arxivinin 8 saylı – AXC Himayəçilik işlər nazirliyinin fondu
11. Osmanlı belgelerinde İğdır. İğdır Universitesi, Basım Matsis Matbaa, 2017, 251s.

# РАЗВИТИЕ ЖЕНСКОГО ДВИЖЕНИЯ И БЛАГОТВОРИТЕЛЬНОСТИ В АЗЕРБАЙДЖАНЕ В НАЧАЛЕ XX-го ВЕКА

**Раида Амирбекова**
Государственный Комитет по Проблемам Семьи, Женщин и Детей, Баку, Азербайджан
e-mail: raida_amirbayova@mail.ru

Конец XIX века характеризуется в жизни Азербайджана активностью и большими творческими успехами женщин. Политические, экономические и культурные процессы, происходящие в Азербайджане с конца этого столетия, дали мощный импульс просвещению женщин и более активному участию их в общественной жизни в последующие годы.

Бурное развитие нефтяной промышленности в Азербайджане начиная с конца 19-го и начала 20-го века, привели к стремительному росту экономической и политической активности в стране, значительной интернационализации общества и социальной жизни, созданию уникальной экосистемы, вобравшей в себя особенности культур многих стран и народов. Конечно же, в сложившихся условиях, женщины Азербайджана не могли согласиться и не соглашались с ролью бесправного и безропотного наблюдателя. Согласно данным «списка избирателей в Бакинскую Городскую Думу», уже в 1906-1909 годах, в выборах в городскую Думу принимало участие более 200 женщин. Росло количество женщин, принимавших активное участие в социально-экономической жизни страны [1].

Дальнейшее расширение прав и свобод женщин продолжилось с созданием в 1918-м году Азербайджанской Демократической Республики, которая заложила основу гендерному равенству в стране, и явилась одной из первых стран в мире закрепившей за женщинами избирательное право. *Это наиболее важный факт в истории развития женского самосознания* - азербайджанская женщина первая на Востоке и раньше, чем во многих европейских странах и США, получила равные избирательные права с мужчинами. Парламентом страны был принят закон «О выборах в учредительное собрание Азербайджанской Республики” [2]. В законе указывалось, что “Правом участия в выборах в Учредительное собрание пользуются граждане Республики Азербайджан обоего пола, коим ко дню выборов исполняется 20 лет”. *Важными вехами в этом направлении явились также Съезды женщин Азербайджана, дающие возможность открытого обсуждения наболевших вопросов и поиска путей их разрешения. Первый подобный форум был проведен в республике в 1921 году.* Основную цель этого съезда составили идеи освобождения женщины. За короткий после съезда период была проделана большая работа в области просвещения азербайджанских женщин, роста общественной активности [2].

В этот период, наряду с просветительством, важное место в обществе занимала и благотворительность. Еще в прошлые столетия представители прогрессивной азербайджанской общественности в рамках благотворительной деятельности уделяли

большое внимание развитию женщин. Эмансипация женщин рассматривалась ими как движение на пути приобщения к прогрессу, цивилизации. Разрешение этих задач интеллигенция Азербайджана видела в образовании и воспитании девушек. Первые предпосылки создания светских школ имели место быть еще в середине 19-го века. Большинство женских гимназий и женских школ появляются благодаря наиболее прославившимся своим меценатством общественным деятелям, таким как З.Тагиев, М.Нагиев, М.Мухтаров, а также женским интеллигенциям, таким как "Мусульманское Дамское Благотворительное общество на Кавказе".

В 1874-ом году в Азербайджане открывается первая женская гимназия, которая в 1883-ом году переименовывается в Мариинскую. В этот период появляются благотворительные общества, имеющие юридический статус. Большинство женских гимназий и женских школ появляются благодаря вышеназванным благотворительным структурам. Вместе с тем, помощь в создании женских учебных заведений принадлежит также представителям национальной буржуазии, нефтяным магнатам [3]. В 1896 г. родилась идея открытия светской школы, которую воплотил в жизнь азербайджанский меценат Гаджи Зейналабдин Тагиев [3]. Таким образом, процесс создания Бакинского женского русско-мусульманского училища, учрежденного за счет пожертвованного Г. Тагиевым капитала, получил правовую основу и вступил в решающую стадию реализации. Колоссальный отклик, вызванный открытием школы в Баку, являлся наглядным свидетельством того, насколько своевременной оказалась и назревшей оказалась сама идея светского образования для азербайджанских девушек. Роль Г.З. Тагиева в истории развития женского образования феноменальна. Он оказывал не только материальную поддержку в открытии женских образовательных учреждений, но и в силу шариатских законов того времени ему приходилось отстаивать разрешения у влиятельных мулла и представителей духовенства. [4]

В начале второго десятилетия XX века азербайджанские женщины получили возможность выражать свои мысли и стремления через свою газету "Ишыг", сыгравшей большую роль в общественной жизни Азербайджана. Первый женский печатный орган на азербайджанском языке газета "Ишыг" (Свет) стала выходить с 1911-го года в Баку в виде сборника [5]. Первый женский клуб, созданный по инициативе Джейран Байрамовой, сыграл важную роль в развитии женского движения в этот период. Начало издания журнала «Шарг гадыны» в 1923 году стало знаменательным событием в истории женского движения в Азербайджане.

Первые 2 десятилетия XX века, безусловно, можно считать переломным периодом в истории женского движения. Развитие благотворительности, создание светского театра, демократической печати, школ на родном языке, школ для девушек и женских гимназий открыло новые горизонты для всестороннего развития азербайджанских женщин. В XX веке азербайджанские женщины за короткий срок прошли путь развития, равный столетиям. Произошли коренные изменения в их позиции в обществе, общественной жизни, в семье.

**Ключевые слова:** женское движение, благотворительность, избирательное право, печатные органы, женские учреждения.

**Литература**

1. Azərbaycanda qadın məsələsi, Женский вопрос в Азербайджане, Баку 2006, стр. 53.
2. Газета «Азербайджан» (07 марта 2000 года, № 53).
3. Вестник правительства Азербайджанской Республики, 10 марта 1920 года.
4. Народное Образование в Азербайджанской Республике, Баку 2008.
5. Женщины в общественно-политической жизни Азербайджана (1900-1920) под ред. Лятифы Алиевой, Баку 2013.

**XX əsrin əvvəllərində Azərbaycanda qadın hərəkəti və xeyriyyəçiliyin inkişafi**

Məqalədə Azərbaycan tarixində qadın hərakatının və xeyriyəçiliyin inkişaf tarixi, bu sahədə aparılan siyasət və mühüm təşəbbüslər haqqında məlumatlar araşdırılıb.

## BİRİNCİ DÜNYA MÜHARİBƏSİ VƏ AZƏRBAYCANDA QADINLARIN VƏZİYYƏTİ

**Rəna Əsədova**
AMEA Tarix İnstitutu, Bakı, Azərbaycan
e-mail: Rena_Beylerqizi@mail.ru

Təqdim edilən məqalədə Birinci dünya müharibəsi illərində Şimali Azərbaycanda əhalinin ən zəif və qorunmağa möhtac hissəsi olan qadınların vəziyyətinin ağırlaşması konkret faktlarla araşdırılmışdır. 1916-cı ilin fevralında Bakı şəhərində qadınların müharibəyə, onun doğurduğu ərzaq qıtlığı və bahalığa, dözülməz yaşayış şəraitinə qarşı üsyanı haqqında bəzi faktlardan bəhs edilmişdir.

Müharibələr hər zaman çoxsaylı insan tələfatı, dağıntı və xarabalıqlar, qaçqın köçləri, ölkələrdə əhalinin ümumi vəziyyətinin ağırlaşması, bahalıq, qıtlıq, aclıq doğurmuşdur. O zamana qədərki müharibələrin ən dəhşətlisi isə Birinci dünya müharibəsi olmuşdur. Bu müharibə zamanı bütün Qafqazda, o cümlədən də o taylı, bu taylı Azərbaycanda insanların dolanışıq şərtləri kəskin şəkildə pisləşmiş, hərbi əməliyyatlar baş verən bölgələrdə isə sözün əsil mənasında humanitar fəlakət yaşanmışdı.

Təqdim edilən elmi məruzənin tezislərində də Birinci dünya müharibəsi illərində Şimali Azərbaycanda əhalinin ən zəif və qorunmağa möhtac hissəsi olan qadın və qızların vəziyyətinin ağırlaşması və qadınların müharibəyə, onun doğurduğu dözülməz şəraitə qarşı mübarizəsi haqqında bəzi faktlardan bəhs edilməsi nəzərdə tutulmuşdur.

Müharibə illərində Şimali Azərbaycan əhalisinin ərzaqla və digər gündəlik tələbat məhsulları ilə təchizi kəskin şəkildə pisləşdi. Müharibə başlandıqdan dərhal sonra bu məhsulların satış qiymətləri hədsiz dərəcədə bahalaşdı. Bakı şəhərində çörəyin qiyməti 1914-cü ilin avqust ayına nisbətən 1916-cı ilin sentyabr ayında 266 faiz, 1917-ci ilin yanvarında isə daha 300 faiz artmışdı. Bu müddət ərzində süd 305 faiz, yumurta 392 faiz, günəbaxan yağı 450 faiz, inək yağı 520 faiz artmışdı [1, c.V, s.183-184]. Digər gündəlik tələbat mallarının qiymətləri də 4-5 dəfə yüksəlmişdi. Bahalaşmanın əhalinin dolanışıq şəraitini ağırlaşdırmasını nəzərə almağa məcbur olan Bakı şəhəri rəisi P.İ.Martınov ticarət və sənətkarlıqla məşğul olan şəxsləri və kirayə ev verən sahibkarları 1915-ci il oktyabrın 8-də şəhər dumasının binasına toplayaraq gündəlik tələbat mallarının və mənzil kirayəsi qiymətlərinin gündən-günə bahalaşmasının yolverilməz olduğunu bildirdi. Şəhər rəisi qiymətlərin süni surətdə şişirdilməsinin qarşısını almaq üçün xüsusi komissiya yaratdı, alıcı şikayətlərini polislə birlikdə araşdırmağı tapşırdı [3, 9.X.1915, № 223; 2, s.177]. Lakin bu komissiyanın çox az səmərəsi oldu.

1915-ci ilin payızında ərzaq mallarının qiymətinin bahalaşmasının səbəblərindən biri ərzaq alveri ilə məşğul olan tacirlərin qəsdən qıtlıq yaratmaları idi. “Kaspi” qəzetinin məlumatına görə, Lənkəran qəzasında unun topdan satışı ilə məşğul olan iki tacir unu anbarlarında qəsdən gizlətmişdilər. Bundan xəbər tutan Bakı qubernatorunun əmri ilə həmin tacirlər inzibati qaydada 1 ay müddətinə həbs edilmişdi [3, 26.XI.1915, № 264; 2, s.177]. Bu hadisədən sonra Lənkəran qəzasında unun və taxılın qiyməti müəyyən müddət ərzində normaya düşmüşdü.

Bahalıq və qıtlıq əhalinin bütün təbəqələrinin həyat şəraitini pisləşdirdiyi üçün Birinci dünya müharibəsi illərində etiraz çıxışları bir-birinin ardınca baş verməkdə idi. Ailədə körpə uşaqların ac qalmasına dözə bilməyən qadınlar etiraz çıxışlarında xüsusilə fəal iştirak edirdilər.

Çörəyin qiymətinin yenidən bahalaşması 1916-cı il fevralın 14-də Bakıda qadınların böyük üsyanının başlanmasına səbəb oldu. Gündən-günə artmaqda olan bahalaşmadan qəzəblənmiş qadınlar möhtəkirliklə məşğul olan ərzaq tacirlərinin anbarlarına, bazar və dükanlara hücum etdilər.Qadınlar ilk növbədə qiymətləri yenidən qaldırmış ərzaq mağazalarına, qəssabxanalara daxil olur, ərzaq mallarını küçəyə atırdılar [3, 15.II.1916, № 36]. Sonrakı gün üsyançılar şəhərin mərkəzində yerləşən iri ərzaq mağazalarını qarət etməyə başladılar. Hadisə yerinə gələn polslər, mağaza sahiblərinin üsyançıları döyüb qovmalarına imkan vermədilər.

Qəsdən qıtlıq yaratmaq üçün unu çörəkbişirmə müəssisələrinə müntəzəm göndərməyən taxıl üyüdüb un istehsal edən dəyirman sahibləri də üsyançıların xüsusi nifrət obyektləri idilər. Qadınlar fevralın 16-da Skobelevin taxılüyütmə dəyirmanına, Quliyevin və Tağıyevin un anbarlarına, həmçinin şəkər və digər ərzaq məhsulları saxlanılan anbarlara hücum etdilər. Qəzəblənmiş üsyançılar gözətçiləri əzişdirib zorla dəyirman və anbarlara daxil oldular, oradakı ərzağı daşıyıb apardılar [4].

Bakıda qadınların etiraz çıxışları ilə başlayan üsyana tezliklə məktəb və gimnaziya şagirdləri, Bakı qarnizonunun əsgərləri, Xəzər hərbi donanmasının matrosları da qoşuldular. Üsyanda ərzaq bahalığından əziyyət çəkən Bakı şəhərinin polis işçiləri və onların ailə üzvləri də iştirak edirdilər. Qadınların başlatdığı üsyana Bakı şəhəri əhalisinin əksəriyyəti rəğbətlə yanaşırdı. Ona görə də, Bakı şəhər rəisliyinin müraciəti əsasında çar hakimiyyəti nümayəndələri qadınların bu

üsyanını yatırmaq üçün Azərbaycanın digər bölgələrindən, o cümlədən Gəncədən və Dərbənddən, eləcə də Petrovskdan və Temir-xan-şuradan Bakıya hərbi qüvvələr yeritməli oldular.

Bu qüvvələr yalnız üç gündən sonra, fevralın 16-da qadın üsyançıların müqavimətini qıra bildilər [1, c.V, s.187]. Üsyan iştirakçılarına qəddarlıqla divan tutuldu: 9 nəfər öldürüldü, 57 nəfər yaralandı. Bakıda yeni üsyanlar baş verməsinin qarşısını almaq üçün iri qoşun birləşmələri şəhərdə saxlandı.

Bakıda bahalığa qarşı yönəlmiş və bir neçə gün davam etmiş xalq çıxışı Mərkəzin də diqqətini cəlb etdi. Fevralın 24-də IV Dövlət Duması bu məsələ ilə bağlı hökumətə sorğu göndərdi. Bakı quberniyasından IV Dövlət Dumasına seçilmiş deputat Məmmədyusif Cəfərov məlumat verdi ki, Bakıda etiraz çıxışlarının və tətillərin səbəbi ərzağın qiymətinin kəskin şəkildə bahalaşmasıdır. Bu şəhərdə ilk çıxışlar bazarlarda baş vermişdir. Qadınlar öncə kiçik ticarət obyektlərini, ardınca da iri mağazaları dağıtmağa başlamışlar: ərzaq malları piştaxtalardan küçəyə atılmış və ya daşınıb aprılmışdır. Üsyançılar ikinci gün mərkəzi küçələrdəki mağazalara hücum çəkmişlər.Üçüncü gün dəyirmanlar, un və şəkər anbarları qarət edilmişdir. Polis bu çıxışlara müdaxilə etməmiş, bir sıra hallarda isə üsyançıları tacirlərin qəzəbindən qorumuşdur. Ona görə də, Cəfərov belə hesab edirdi ki, Bakıda bahalıq əleyhinə çıxışlar polislərin də iştirak etməsi ilə baş vermişdir [5, 13.III.1916, № 60].

Bakıda üsyanın silah gücünə yatırılması çar hakimiyyəti nümayəndələrinin müvəqqəti uğuru idi. Müharibənin davam etməsi onun doğurduğu çətinliklərin artmasına, aclıq, qıtlıq və bahalaşmanın daha böyük miqyas almasına səbəb olduğu üçün, yeni-yeni xalq çıxışları labüd idi.

Bir il sonra 1917-ci ilin fevral ayında bu dəfə Rusiyanın paytaxtı Petroqradda çörək qıtlığına qarşı qadınların etiraz çıxışları baş verdi. Paytaztda taxıl ehtiyatının azalması ilə bağlı ərzaq talonu tətbiq ediləcəyi şayiələri böyük narazılıq doğurdu. Fevralın 23-də Petroqradda çörək növbəsində duran qadınların etiraz çıxışları başlandı, fevralın 24-də isə bütün şəhəri bürüyən ümumi tətil baş verdi – Fevral inqilabı başlandı.

**Açar sözlər**: Birinci dünya müharibəsi, Azərbaycan, xalq çıxışları.

## Ədəbiyyat


1. Azərbaycan tarixi: 7 cilddə, V c., Bakı: Elm, 2001, 672 s.
2. Əsədova R.B. Birinci dünya müharibəsi və Şimali Azərbaycan iqtisadiyyatı. Monoqrafiya. Bakı, Turxan NPB, 2015, 200 s.
3. “Каспий”, 1915-1916 гг.
4. Леонов Г. Баку 1916 год. Бабий бунт – толчок к революции. https://proza.ru/2010/07/18/603
5. “Наше Слово”, 1916 г.
6. Нефедов С. Продовольственный кризис в Петрограде накануне Февральской революции, QuaestioRossica,Vol. 5, 2017, № 3, p. 635–655.

# AİLƏDAXİLİ MÜNASİBƏTLƏRDƏ GENDER BƏRABƏRSİZLİYİ VƏ ONUN İNSAN İNKİŞAFINA VURDUĞU ZƏRBƏ

**Eyvazova Sevinc**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: eyvazova.sevinc@mail.ru

Bioloji fərqlər əsasında müəyyənləşdirilən cinsdən fərqli olaraq, gender (ona həmçinin sosial cins deyilir) kişi və qadınların ictimai münasibətlər çərçivəsində (ailədə, məktəbdə, iş kollektivində) formalaşan rol və vəzifələrini əhatə edir. Bu rollar və vəzifələr konkret cəmiyyətdə mövcud olan kişi və qadın sosial kateqoriyalarının mahiyyətini təşkil edir. Digər mühüm sosial klassifikasiyalarla bərabər (ictimai sinif, irq, etnik qrup və sair), gender insanların cəmiyyətdəki mövqeyini müəyyənləşdirən əsas amillərdən biridir. "Cins" və "gender" arasında olan fərqi daha aydın göstərmək üçün iki misala müraciət edək. Uşaq dünyaya gətirmək qadınlara aid olan reproduktiv bioloji funksiyası cinsin əlamətidir. Uşağın bəslənməsi və təlim-tərbiyəsi isə müxtəlif cəmiyyətlərin kişi və qadınlara (bəzən yalnız kişilərə və ya yalnız qadınlara) aid etdiyi sosial funksiya olaraq gender anlayışına aiddir.

İnsan inkişafı nəzəriyyəsinin ərsəyə gəlməsində aparıcı rol oynamış Nobel mükafatı laureatı Amartya Sen öz araşdırmalarında gender bərabərsizliyinin cəmiyyətə gətirdiyi ziyanı dəfələrlə qeyd etmişdir. Məsələn, Cənubi Asiyada apardığı tədqiqatlara əsasən A. Sen bir çox bölgələrdə qız uşaqlarının oğlanlarla müqayisədə daha az qida qəbul etdiyini göstərmişdir. Bu hal ailələlərin ənənəvi olaraq oğlan uşaqlarına daha böyük dəyər verməsi ilə əlaqədardır. Uşaqlıqda ailədə zəruri qidalanmadan məhrum edilmiş qadınların böyük bir hissəsi həyat boyu səhhətində müxtəlif problemlərlə rastlaşır və çəkisi qəbul olunmuş tibbi standartlardan aşağı olan körpələr dünyaya gətirirlər. Bu uşaqlar arasında illər sonra ürək xəstəliklərindən zərər çəkənlərin yüksək sayı qadınlara tətbiq ounan sosial məhdudiyyətlərin bioloji reproduktiv funksiya vasitəsi ilə gələcək nəsillərə necə təsir göstərdiyinin sübutudur [3].

Gender bərabərsziliyi həm fərdi, həm institusional səviyyədə özünü büruzə verə bilər. İnsan inkişafına yönəlmiş siyasət aşağıdakı səviyyələrdə bərabərsizliyin aradan qaldırılmasına çalışır:

- Qanunvericilik;
- Sosial təsisatlar;
- İctimai münasibətlər;
- Ailədaxili münasibətlər.

Ailədaxili münasibətlərdə gender bərabərliyinə nail olsaq insan inkişafına yönəlmiş siyasətin digər səviyyələrində əksər problemləri həll etmiş olarıq. Çünki, cəmiyyətdə bu və ya digər şəkildə bir birilə münasibətdə olan insanlar ilk olaraq ailədə tərbiyə alıb formalaşırlar.

Gender bərabərliyinin təmin olunması, qadınların ictimai həyatın bütün sahələrində rolunun artırılması Azərbaycan dövlətinin prioritetləri sırasındadır. Bu istiqamətdə qəbul edilən qanunlar, həyata keçirilən proqramlar, görülən səmərəli işlərin nəticəsidir ki, Azərbaycan cəmiyyətində qadınların rolu durmadan artır.

Azərbaycanda gender bərabərliyinin əldə olunması üçün kifayət qədər hüquqi təminat var. Belə ki, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi (AQUPDK) ailə ilə iş və gender bərabərliyi sahəsində dövlət siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 6 fevral tarixli Fərmanı ilə yaradılmış və nazirlik səlahiyyətlərinə malik olan Komitə 1998-ci ildən etibarən qadın problemləri ilə iş sahəsində fəaliyyət göstərmiş başqa bir dövlət orqanını, Qadın Problemləri üzrə Dövlət Komitəsini əvəz etmişdir. “Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında” Konvensiyanın (CEDAW) yerinə yetirilməsi ilə yanaşı AQUPDK qadın hüquqları və səlahiyyətlərinin genişləndirilməsinə aid bütün aspektlər üzrə dövlət siyasətinin işlənib hazırlanması və həyata keçirilməsinə məsuliyyət daşıyan yeganə milli mexanizm hesab olunur. Bütün kişi və qadınlar arasında hüquq bərabərliyi ölkə Konstitusiyasında birmənalı şəkildə təsbit olunub.

Bütün bunlara baxmayaraq ailədaxili münasibətlərdə hələ də bərabərsizlik, məişət zorakılığı, qanunla qadağan edilməsinə baxmayaraq azyaşlı qızların valideynlər tərəfindən erkən nigaha məcbur edilməsi, oğlan uşaqlarına üstünlük verilməsi insan inkişafına mənfi təsir göstərən amillər sırasındadır.

Öz analarına qarşı zorakılığın şahidi olma və uşaqlıqda fiziki zorakılığa məruz qalma halları kişilər tərəfindən öz həyat yoldaşlarına qarşı törətdikləri  zorakılığın əsas səbəblərindəndir.

Sadalanan neqativ halları aradan qaldırmaq üçün bir çox hallarda qanunlar kifayət etmir. Çünki ailədaxilində bir çox yazılmamış qanunlar sterotiplər var ki, din pərdəsi və mentalitent adı ilə münasibətlərdə hegemon rol oynayır.  Bu da insan inkişafına ciddi ziyan vurur. Halbuki bizim çox zəngin milli mənəvi dəyərlərimiz var . Məsələn, islamda qadınla kişinin cəmiyyətdəki yeri tamamilə bərabərdir. Buna görə də İslam əxlaqını mənimsəyənlərə cinsə görə üstünlükdə yarışmaq deyil, "xeyir işlərdə yarışmaq" əxlaqı tövsiyə edilib. Xeyir işlərdə yarışmaq iman gətirənlərin həyatlarının hər dövründə Allahın razılığını qazanmaq üçün hər cür səyi göstərmələridir. Allah Qurani-Kərimdə belə buyurur: "Məhz onlar yaxşı işlər görmək üçün bir-biri ilə yarışar və bu işlərdə öndə gedərlər" ("Muminun" surəsi, 61).

Bunları nəzərə alaraq ulu öndər Heydər Əliyev öz çıxışlarında qeyd etmişdir:” Qurani-kərimin bizə verdiyi tövsiyələr, dərs, göstərdiyi yollar insanları paklığa, düzlüyə, doğruluğa, sədaqətə, qəhrəmanlığa, cəsarətə dəvət edən tələblərdir, tövsiyələrdir” [2, s.106].

Hesab edirəm ki, bunlar ailə quracaq kişi və qadınlar arasında təbliğ olunsa gender bərabərsizliyi problemi tədricən də olsa  aradan qalxar, ailədə həm əmin-amanlıq, qarşılıqlı hörmət, inam, sədaqət, həm də sağlam mühitdə sağlam düşüncəli cəmiyyətə faydalı nəsil yetişər. Bunun üçün maarifləndirmə işləri aparılmalıdır. Mənim fikrimcə,yuxarı siniflərdə, ali məktəblərdə ailə, isam əxlaqı fənləri tədris proqramlarına daxil olunmalı, savadlı ilahiyyatçılarla media nümayəndələr birlikdə maarifləndirici video-çarxlar hazırlamalıdırlar.

Belə ki ailədaxili münasibətlərdə gender bərabərliyi sadəcə tarixboyu qadınlara edilmiş ədalətsizliklərin düzəldilməsi deyil, o cəmiyyətdə əhəmiyyətli dəyişikliklərə səbəb olacaq açar faktordur.

**Açar sözlər**: gender bərabərliyi, insan inkişafı, zorakılıq, cəmiyyət, ailə.

## Ədəbiyyat

1. Azərbaycanda gender bərabərliyi və gender münasibətləri: mövcud vəziyyətlər və imkanlar. UNFPA ( AQUPDK) Bakı, Azərbaycan, 2018, 72 səh.
2. Əsgərov Ş. , Xəlilov S., Aforizmlər (Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin çıxışlarından müdrik fikirlər) ,Azərbaycan Universitreti nəşriyyatı. Bakı 1997, 120 səh.
3. Amatya Sen, Many faces of gender inequality, http: www.flonet.com/fl1822/18220040.htm

# РАЗВИТИЕ ГЕНДЕРНОЙ ДЕМОКРАТИИ В АЗЕРБАЙДЖАНЕ

**Нурлана Гейдарова**
Университет Азербайджан, Баку, Азербайджан
e-mail: nurlana.heydarova@baku.edu.gov.az

*«Гендерное равенство, является одним из главных приоритетов развития Демократического общества и защиты прав человека»*
***Ильхам Алиев***

Вопрос гендерного равенства в наши дни очень актуален, однако гендерные стереотипы стары как мир.

Пожалуй, сегодня, едва ли остались люди, незнакомые со словом «феминизм». Но должного внимания этому слову, как мне кажется, не уделяется. Или чаще всего, оно просто не воспринимается всерьез. Порой, достаточно лишь сказать «я феминистка», чтобы увидеть в свою сторону насмешливый взгляд или даже прочувствовать чье-либо презрение.

Все дело в том,что к сожалению, бытует мнение, что феминизм-это синоним мужененавистничества, но это не так.Женщины всего Мира, гордо именующие себя «феминистками» не воюют против мужского пола, они борются за равные права. За возможность строить свою жизнь в соответствии с собственными убеждениями, за право самостоятельно решать как и что им делать со своим телом, они воюют за право видеть и чувствовать, что они заслуживают того же уважения в обществе, что и мужчины.

Издавна сложилось такое представление, что мужчина должен обеспечивать семью, приносить домой деньги, а женщина должна следить за хозяйством и воспитывать детей. Так было всегда, так есть во многих семьях и по сей день. И многих такой расклад вещей устраивает. Но далеко не всегда данное явление происходит по обоюдному желанию. Сегодня, все чаще женщина стремится строить свою карьеру, нежели тратить время на домашние дела, однако стоит ей выразить данное желание вслух, как она без промедления сталкивается с оппозицией. Такое положение зачастую диктуют культурные традиции, сложившиеся за многие годы, но следует учитывать, что каждый случай индивидуален и

каждыйчеловек, заслуживает права на самовыражение, вне зависимости от половой принадлежности.

Гейдар Алиев говорил: «Каждый человек должен найти свое место в жизни. Но именно свое, принадлежащее ему, место».

По данным ООН, во всем мире рабочие места разделены по половому признаку.

Однако сейчас во многих обществах осуществляется попытка интегрировать как можно больше женщин во властные и управленческие бизнес структуры.

Преимущественно так делают страны с высоким уровнем развития. Это государства, которые понимают, что без женщин невозможно достигнуть прогресса ни в обществе, ни в политике, ни в экономике. Стоит взглянуть на ту же Норвегию, которая с 2006 года имеет закон, по которому 40% членов всех наблюдательных советов должны быть женщины. Если компании этотзакон нарушают, то это чревато штрафными санкциями. Схожие тенденции наблюдаются в Испании и в азиатских странах.

Однако, несмотря на все попытки, на сегодняшний день, ни одна страна в мирене может пока сказать, что она достигла гендерного равенства. Так почему бы нам не стать первой такой страной? Почему бы не оставить предрассудки прошлого позади и сделать широкий шаг вперед?

Отстаивая принцип гендерного равенства, мы выступаем за равенство прав, социальную справедливость, продуктивность труда и развитие бизнеса. Таким образом, делая еще один шаг навстречу всеобщему социальному прогрессу.

В то время как в Ливане нет законов, защищающих женщин от насилия, в частности от домашнего, в Марокко сама жертва насилия может быть обвинена в случившемся, в Йемене женщина не имеет права покидать дом без разрешениямужа, и не считается полноценным свидетелем в суде, а в Саудовской Аравии до сих пор господствуют принудительные браки, будем откровенны, нашему государству есть чем гордиться.

Сегодня роль женщины в современном Азербайджанском обществе многократно возросла, как в экономической, социальной, так и в политической сфере общественной жизни. И не отметить роль этих деловых, мотивированных,инициативных и достигших на своем поприще успеха женщин нельзя.

Еще в начале 90-х гг. после возвращения к власти общенационального лидера Гейдара Алиева за короткий промежуток времени многие экономические, политические проблемы нашли свое решение, а обретенная общественно-политическая стабильность дала стимул и толчок к развитию всех сфер государственной политики, в том числе и сферы семьи, женщин и детей. В 1998 году Президентом, Гейдаром Алиевым было подписано Распоряжение «Об активизации роли азербайджанских женщин в обществе», в том же году в Азербайджане вновь начали проводить съезды женщин, определилась периодичность их проведения - через каждые 5 лет. Все эти достижения заложили основы нового этапа в развитии женского движения в стране.

По инициативе общенационального лидера Гейдара Алиева в 1998 году был создан первый на постсоветском пространстве, а также среди многих стран мира, Комитет по проблемам женщин [3]. Более того, в целях практического обеспечения равноправия женщин и мужчин,в частности представления их в системе государственного управления на должном уровне, 6 марта 2000 года Гейдар Алиев подписал Указ «Об осуществлении государственной женской политики в Азербайджанской Республике». Этот Указ заложил основу создания государственной стратегии в отношении гендерного равенства и расширения возможностей женщин. Указпредписывал обеспечение равного представительства женщин наравне с мужчинами во всех государственных структурах республики.

И сегодня, мы с гордостью можем сказать, что едва ли у нас в стране остались организации, в которых не задействованы женское трудолюбие, мудрость и находчивость. Мы, одна из немногих стран, способных громко заявить о том, что у нас предоставляются возможности будущим женщинам для получения образования и строительства карьерного роста.

Продолжая стратегию на усиление этой политики, 6 февраля 2006 года Указом Президента Азербайджана Ильхама Алиева был создан Государственный комитет по проблемам семьи, женщин и детей, который значительно расширил полномочия данного государственного органа [2]. Для создания полноценной законодательной базы Комитету, в сжатые сроки удалось подготовить и представить парламенту законопроекты: «Об обеспечении гендерного равенства» (Указом Президента полномочия на исполнение и мониторинг Закона были предоставлены Комитету), «О предотвращении бытового насилия», которые были приняты в 2006 и 2010 годах.

Законопроекты регулируют вопросы обеспечения специальных мер по сокращению и предотвращению случаев насилия в отношении членов семьи, особенно женщин и детей, оказание психологической, юридической и медицинской помощи жертвам насилия. Были внедрены новые институты,такие как Охранный ордер, центры помощи, Банк данных по жертвам бытового насилия. Госкомитетом были созданы мониторинговые группы по предотвращению бытового насилия на уровне центральных органов. Мониторинговая деятельность направлена на исследование и выявление проблем, связанных с гендерным насилием, обсуждение особо тяжких случаев насилия, исследование причинно-следственных связей насилия, защита жертв насилия и оказание им соответствующей поддержки. Были разработаны изменения и дополнения в Семейный, Уголовный и Гражданский кодексы, а также в Кодекс об административных правонарушениях. После внесения изменений в Семейный Кодекс об уравнении возраста вступления в брак для мужчин и женщин к 18 годам, и внесения санкций в статью 176-1 Уголовного кодекса Азербайджанской Республики, согласно которым, принуждение женщин и лиц, не достигших брачного возраста к вступлению в брак, карается лишением свободы сроком на 4 года, статистика ранних браков дала положительные результаты.

Также в 2015 году в Семейный кодекс была принята поправка об обязательном медицинском обследовании перед вступлением в брак [1]. В 2015 году показатель

рождаемости среди матерей 15-17-летнего возраста сократился по сравнению с предыдущим годом без малого на тысячу детей. В стране развивается женское лидерство, выдвижение женщин в сферы государственного управления и муниципалитеты. На основании Распоряжения Президента Азербайджана от 29 ноября 2011 года была принята Концепция развития «Азербайджан 2020: взгляд в будущее». Данная Концепция охватывает обеспечение равных возможностей мужчин и женщин на рынке труда, создание благоприятных условий для продвижения женщин на руководящие должности. Претворение в жизнь законодательных актов и национальных программ, проведение Комитетом просветительских мероприятий и проектов по активному вовлечению женщин во все сферы жизнедеятельности страны дали свои результаты. И как результат, в муниципальных органах количество женщин с 4% возросло до 35%. Из них более29,7% женщин являются председателями муниципальных органов. Количество женщин в парламенте увеличилось до 16,8%. Сегодня почти во всех органах исполнительной власти заместителями глав являются женщины. Особо хочется отметить, возросшее представительство женщин в судебно-исполнительных органах, благодаря тестовой системе резко увеличилось число женщин-судей, в прокуратуре, в Министерстве внутренних дел, в Министерстве обороны, на пограничной и таможенной службах. Это также результат активной государственной политики по ранней профориентации учащихся средних школ. Многие выпускницы уходят от сложившихся  стереотипов и выбирают более сложные специализации: экономическую инженерию, нефтяной сектор, юриспруденцию и т.д. Большое внимание со стороны нашего государства уделяется развитию женского предпринимательства. Эта сфера особенно сильно развивается, так как сегодняшнее экономическое усиление Азербайджана создает реальные возможности для активности женщин. За последние годы число женщин-предпринимателей увеличилось до 28%. Комитетом ведется плодотворная работа в области просвещения женщин, проживающих в регионах нашей страны, примером тому служит совместная программа Государственного комитета и Программы развития Организации Объединенных Наций под названием «Стимулирование участия в экономической и социальной жизни женщин, проживающих в сельской местности и районах».

В рамках проекта были созданы ресурсные центры в Нефтчалинском, Масаллинском, Сабирабадском и Билясуварском районах. Благодаря проекту были открыты предприятия мелкого и среднего бизнеса, которые возглавляют женщины. На примере как минимум трех, выше указанных уважаемых личностей, являющихся представителями мужской половины населения, я смею заявить, что проблема  неравенства между полами касается не только женщин, но и мужчин. Мужчины должны бороться за женские права наравне с женщинами. Чтобы завтра их дочери, сестры и матери могли быть свободны от предубеждений, и не боялись быть самими собой. Вопрос заключается в том, на сколько мировое сообщество готово к этой идее, на сколько это сложно донести до умов миллиардов, что «феминизм» -это не просто слово или набор звуков, это стиль жизни , это показатель культурных ценностей и интеллектуального  уровня индивидуумов. Я уверена, что впереди нас ждет упорная и долгая

борьба, в результате которой иной раз придется пожертвовать всем. Но я верю в равенство, я верю, что женщины это опора и будущее не только нашей страны, но и всего Мира, я свято верю в то, что завтрашний день всегда зависит от наших поступков и мыслей сегодня. И если мы хотим идти вперед и только вперед, если мы хотим, чтобы наше государство процветало и из года в год повышало свои социальные планки, мы должны начать действовать незамедлительно.

**Ключевые слова:** гендер,комитет,право, семейный кодекс.

**Литература**

1. http://e-qanun.az/code/10 (http://85.132.71.30/framework/28913)
2. http://scfwca.gov.az/page/about-the-sommittee
3. http://scfwca.gov.az/ru/page/about-the-sommittee

**Azərbaycanda gender demokratiyasının inkişafı**

Müstəqil Azərbaycan Respublikasında milli qanunvericilik qadınların hüquq bərabərliyini təmin edərək hər cür ayrı-seçkiliyin qarşısını almağa xidmət göstərir, gender məsələləri ilə bağlı dövlət siyasəti isə qadınların bərabər imkanlarının gerçəkləşdirilməsinə yönəlib. Azərbaycan təhsili və səhiyyəsində aparıcı mövqelər tutan qadınlarımız ölkəmizin siyasi, sosial və ictimai həyatının bütün sahələrində fəal iştirak etməklə real gender bərabərliyinə nail olunması üçün qüvvələrini əsirgəmirlər. Ən başlıcası, qadınların kişilərlə bərabər hüquqlarına bu gün Azərbaycanın milli qanunvericiliyi və ölkə iqtidarının siyasi iradəsi də tam təminat yaradır.

## AZƏRBAYCAN ƏDƏBİYYATINDA QADIN TƏRBİYƏ ROMANININ XÜSUSİYYƏTLƏRİ

**Gilə Hüseynli**
Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan
e-mail: huseynli_ing@mail.ru

Tərbiyə romanı (bildungsroman) XVIII əsrdə, fərdi və sosial tərəqqinin vacibliyini irəli sürən maarifçiliyin fəlsəfi-ədəbi kontekstində meydana gəlmişdir. Adını alman dilindən götürən (bildungs alman dilində – təhsil, tərbiyə) bu janr əsasən baş qəhrəmanın uşaqlıqdan yetkinliyə qədər psixoloji və mənəvi böyüməsini təsvir edir. Tərbiyə romanında əsas hədəf kamilləşməkdir və qəhrəman bunu tədricən, çətinliklə həyata keçirir. Bu janrda əksər hallarda xarakter və cəmiyyət arasında qarşıdurma əsas rol oynayır.

Tərbiyə romanının əksər nəzəriyyəçiləri qəhrəmanın yetkinləşmə prosesinin müəyyən sosial-tarixi kontekstdə təqdim olunmasında süjet fərqlərinin və onların yaratdığı mənaların araşdırılmasına diqqət yetirir [4, s.20]. Bu baxımdan tərbiyə romanının bir neçə növü var: "inkişaf romanı" (An Entwicklungsroman), "təhsil romanı" (An Erziehungsroman), "sənətkar romanı" (a Künstlerroman) və s.

Maarifçilik düşüncəsindən ilham alaraq formalaşan tərbiyə romanı alman sənətkarı Y.V.Götenin “Vilhelm Meysterin təhsil illəri” (1795) əsərindən başlayaraq ingilis ədəbiyyatındakı XIX-XX əsr nümunələrinə (“Devid Kopperfild”, “Böyük ümidlər”, “Oğullar və Sevgililəri”, “Rəssamın cavanlıq portreti”) qədər, əsasən kişi cinsinin inkişafı ilə əlaqəli bir janr kimi özünü büruzə verir. Təxminən eyni dövrdə bəzi qadın müəlliflərin yazdıqları əsərlərdə tərbiyə romanlarının bütün elementlərini aşkarlamaq olmur. Ş.Brontenin “Ceyn Eyr” əsəri bu baxımdan istisna sayıla bilər.

Qadın ədəbiyyatında bu janra az müraciət olunmasının səbəbi əsasən janrın süjetinə qoyulan tələbdir. “Bildungsromanın kişi tənqidçiləri əsərdə təqdim olunan qəhrəmanın inkişafındakı bir çox konstruktiv elementin (formal təhsil, şəhərdəki müstəqil həyat, sevgi münasibətləri və cəmiyyətlə aktiv qarşılıqlı əlaqə) qadınlar üçün mövcud olan sosial seçimlər sırasına aid olmadığını vurğulayaraq, "qəhrəmanın inkişaf yolunun daha ziddiyyətli, daha az birbaşa" olduğununu təsdiqləyirlər” [1, s.11-12]. Eyni zamanda, onlar qadın tərbiyə romanın ən yaxşı iki təhkiyə forması olduğunu iddia edirlər: uşaqlıqdan yetkinliyə qədər davamlı inkişafı göstərən şagirdlik və ya təlim dövrü; və əsasən qadının evlilik həyatında sonra başlayan oyanış.

Qeyd etmək lazımdır ki, Azərbaycan ədəbiyyatında tərbiyə romanının xüsusiyyətlərini əks etdirən əsərlər kifayət qədərdir. Nəzərə alsaq ki, avtobioqrafizm tərbiyə romanının elementi kimi göstərilə bilər, ədəbiyyatımızdakı bioqrafik romanlara müraciət etmək daha məqsədəuyğun sayılar. “Bu romanlarda həyatın özü konkret şəxsiyyətin konkret şəraitdə davranışının, onun mürəkkəb ictimai-siyasi silsilədə və fəlsəfi-bədii proseslər silsiləsində təkamülünün və ya tənəzzülünün təsvirini verir” [6]. Məhz vurğulanan bu xüsusiyyətləri həm də tərbiyə romanının tələblərinə aid etmək olar.

Təxminən eyni dövrü (XX əsrin əvvəlləri) əks etdirən Azərbaycan mühacir ədəbiyyatının nümayəndləri Məhəmməd Əsəd bəyin “Şərqdə neft və qan” əsəri (1929) və Ümmül Banunun (Banin) “Qafqaz günləri” əsəri (1945) tərbiyə romanına xarakterik olan uşaqlıq dönəmi ilə başlayır. Bu iki əsəri bir-birinə yaxın edən əsas motivlər hər iki müəllifin neft milyonçularının ailələrində dünyaya gəlmələri, təxminən eyni dünyagörüşə sahib olmaları (burada alman və fransız mürəbbiyələrin rolunu danmaq olmaz), mühacirətdə çəkdikləri əziyyətlər və s.dir. Lakin qadın ədəbiyyatının tərbiyə romanına aid əvvəldə qeyd etdiyimiz çatışmazlıqları “Qafqaz günləri” əsərindən də yan keçməmişdir. Belə ki, Ümmül Banunun Avropadan gəlmiş dayələrin sayəsində yüksək dünyagörüşə malik olmasına baxmayaraq, o, dövrün tələbi ilə qarşı cinsin nümayəndələri kimi ali təhsil məktəblərində oxumamışdı. Yeniyetmə və sadəlövh qızın dilindən verilən əsərin bəzi məqamlarında Azərbaycanın ictimai-siyasi həyatının təsviri zamanı qəhrəman tərəfindən tam dolğun fikir yürüdülməsə də, bu roman o zamanki tariximiz, adət-ənənələrimiz və mədəniyyətimizinin işıqlandırılması baxımından çox önəmli rol oynayır.

Müəyyən mənada eşq macəraları qismində yazılmış “Qafqaz günləri” əsərinin süjetinə nəzər saldıqda görürük ki, tərbiyə romanının vacib atributu sayılan kamilləşmə mərhələsi romanda öz təzahürünü tam şəkildə tapmır. Sənətkarın bioqrafiyasından aydın olduğu kimi, o psixoloji və mənəvi yetkinləşmə dövrünü mühacirətdə yaşayıb. Buna görə də müəllifin “Qafqaz günləri”

əsərinin ardı sayılan və Parisə qaçdıqdan sonrakı həyatının təsvir olunduğu "Paris günləri" əsəri baş qəhrəmanın mənəvi transformasiyasını özündə əks etidirir.

**Açar sözlər:** tərbiyə romanı, qadın ədəbiyyatı, Ümmül Banu.

## Ədəbiyyat

1. Abel E., Hirsch M., Langland E. The voyage in fictions of female development, Dartmouth College Press,1983, 374 p.
2. Banin Ü. Qafqaz günləri Bakı, Qanun nəşriyyatı, 2019, 336 s.
3. Moretti F. The Way of the World: The Bildungsroman in European Culture, Verso, 2000, 274p.
4. Snircova S. Girlhood in British Coming-of-Age Novels: The Bildungsroman Heroine Revisited https://www.cambridgescholars.com/download/sample/64180
5. https://www.academia.edu/32899366/The_Female_Bildungsroman
6. http://www.gender-az.org/index_az.shtml?id_doc=518
7. http://www.anl.az/down/meqale/xalqcebhesi/2014/oktyabr/396274.htm

# MASKULİN VƏ FEMİN'İN SOSİAL STATUSU (ÇİN CƏMİYYƏTİNDƏ)

**Aygün Hüseynova**
Xəzər Universiteti, Bakı, Azərbaycan
e-mail: a_huseynova91@mail.ru

İnsan cəmiyyətində kişi və qadına xas olduğu hesab edilən sosial statuslar, davranış, fəaliyyət növləri və xüsusiyyətlər gender anlayışının məğzini təşkil edir. "Maskulin" və "femin" gender kateqoriyasıdır. Ənənəvi gender stereotiplərində qadınlar özünü qurban verən, qayğı göstərən, başqaları haqqında fikirləşən bir varlıq kimi göstərildiyi halda, kişilər güclü, ağıllı, təşəbbüskar və bütün sahələrdə uğur qazananmağı bacaran varlıq kimi təsvir olunurlar. Kişi və qadın haqqında stereotiplər əsrlərlələ öz mövqeyini qoruyub saxlamışdır.

Gender zorakılığı–kişi və qadınlar arasındakı fərqi istismar, differensial gender qeyri-bərabərliyinin nəticəsi, fiziki, yaxud psixoloji sağlamlığa mənfi təsir göstərən fiziki, cinsi, psixoloji vəsosiomədəni zorakılıq formasıdır. Gender zorakılığı həm qadınlara, həm də kişilərə göstərilə bilər, lakin qadınlara və qızlara daha çox təsir göstərdiyindən gender zorakılığı əsasən "qadına qarşı zorakılıq" kimi qiymətləndirilir. Gender zorakılığı dünyanın hər bir ölkəsində mövcuddur və onun mədəni, sinfi, etnik sərhədi yoxdur. Statistika göstərir ki, qadınlara qarşı məişət zorakılığı, aqressiya və cinsi zorakılıq müxtəlif həyati situasiyalarda baş verir.

Çin cəmiyyətində qadınların statusları qədim zamanlardan başlayaraq XX əsrin ortalarına kimi aşağı səviyyədə olmuşdur. Qədim Çin imperiyasında "üç itaət" adlı bir anlayış olmuşdur. Ataya itaət, ərə itaət və oğula itaət. XX əsrin ortalarına kimi qadınlar heç bir hüquqa sahib deyildilər. Hətta Respublika dövründə (1912-1949) qadınlar qanuni olaraq alınıb, satıla və ya kölə

olaraq bağışlana bilirdilər. Bu qadınlar "Mui Tsai" adlandırılırdı. Amerikalı feminist yazıçı Aqnes Smedlinqələmə aldığı kitabının "Çindən qadın portretləri" bölməsində onların həyatından bəhs etmişdir.

Bu cəmiyyətdə qadın ərinin xüsusi mülkiyyəti hesab edildiyi üçün, heç bir hüquqa sahib deyildi. Əsrlər boyu kişilər qadınlarla çox pis rəftar etmişlər. Minilliklər boyu Çində belə hesab olunurdu ki, qadın ruhsuzdur, buna görə də ər heç bir cəza almadan öz arvadının həyatına son qoya bilərdi, axı qadın onun xüsusi mülkiyyəti idi.

Çin əsilli britaniyalı yazar Jung Cahng qələmə aldığı "Vəhşi ququşları" əsərində XX əsr Çin cəmiyyətini real mənzərəsini canlandırmışdır. Romanda qadınların cəmiyyətdəki statusu üç qadın nəslinin (nənə, ana və müəllifin özü) timsalında əks etdirilmişdir. Bu üç qadının həyat heykayəsi bir əsrlik tarixin səlnaməsidir. XX əsrin əvvəllərinə kimi qadınların vəziyyəti çox acınacaqli olmuşdur. Tədricən əsrin ortalarına doğru vəziyyət nisbətən müsbətə doğru dəyişməyə başlamışdır. Bu dövrdə ailələr üçün oğlan uşaqları çox dəyərli idi. Çünki, oğlanlar nəslin davamçıları sayılırdı. Əgər hansısa bir ailədə oğlan uşağı doğulmurdusa, o ailənin nəsli kəsiləcəkdi və bu çinlilər üçün insanın babalarına qarşı edə biləcəyi ən böyük xəyanət idi.Nəcəbətli ailələrdən gəlməyən kişilərin cəmiyyətdə hörmət, nüfuz sahibi olması demək olar ki,mümkünsüz idi. Yalnız bir yolu var idi-dövlət məmuru olmaq. Bu səbəbdən çinli kişilərin ən böyük arzusu dövlət məmuru olmaq idi. Məmur olmaq güc və pul sahibi olmaq demək idi. 12-13 yaşlı oğlanlar özlərindən 6-7 yaş böyük qızlarla evləndirilirdi. Çünki qadın ərini böyütməli, yetişdirməli idi. Evliliklər ailələr arasında anlaşma əsasında qurulurdu. Qız və oğlan bir-birilərini ilk dəfə evləndikləri gün görürdü.Nüfuz və ya pul sahibi olan hər bir kişi istədiyi qədər qadını özünə qeyri-qanuni arvad edə bilərdi.Bir qanuni arvad və çox sayda qeyri qanuni-arvadlara sahib olmaq kişinin cəmiyyətdə nüfuz sahibi olmağın göstəricilərcisi idi.Qadının kişinin sözündən çıxmağa haqqı yox idi. Kişilər qadınlarla istədikləri kimi rəftar edə, alçalda, təhqir edə, hətta döyə bilərdilər. Qadın alınıb satıla bilən bir əşyadan fərqsiz idi.

XX əsrin əvəllərində qızların təhsil almasından söz belə gedə bilməzdi. Oğlan uşaqlarının təhsil hüququ olsada, bu maddi imkan gərəkdirdiyi üçün hər kəs məktəbə gedə bilmirdi. Əsrin ortalarına doğru artıq qızların təhsil almasına icazə verilsədə, bir çox məhdudiyyətlər qoyulmuşdu. Qızlar oğlanlara eyni təhsili almırdılar. Qızlara yalnız evdarlıq-ev idarəsi, yemək bişirmək, tikiş- bir sözlə zərif həyat yoldaşı və yaxşı ana olmaq öyrədilirdi. Öyrədilən ən önəmli şey insanın ərini xöşbəxt etməsi idi. Qadının arzu və istəkləri ola bilməzi, yalnız başqalarının istiqamətləndirdiyi həyatı yaşamaq məcburiyyətində idi.

**Açar sözlər:** gender, kişi, qadın, Çin, cəmiyyət, nikah, evlilik.

## Ədəbiyyat

1. Butler J. Undoing gender. Psychology Press, 2004.
2. Chang J. Wild Swans: Three daughters of China. Simon and Schuster, 2003.
3. Croll, Gendered Moments and İnscripted Memories: Girlhood in Twentieth-century Chinese Autobiography, 118.

4. Lorber J. Gender inequality. Los Angeles, CA: Roxbury, 2001.
5. Peng, Ch. Writing Women and the Nation in Diaspora Jung Chang's Wild Swans: Three Daughters of China. Journal of Chinese Overseas 11, no. 2, 2015, 174-198.

# ИСТОРИЧЕСКИЙ АСПЕКТ НАЦИОНАЛЬНЫХ ГЕНДЕРНЫХ ПОЛИТИК

**Ирада Гусейнова**
Бакинский Государственный Университет, Баку, Азербайджан
e-mail: huseynova.irada.m@gmail.com

Современным критерием исследования проблемы женской самоидентификации все более отчетливо становится мозаичность гражданского общества, позволяющего говорить о сосуществовании разных типов взаимоотношений между мужчинами и женщинами. Выявление специфики самоидентификации женщины постиндустриального и традиционального обществ приводит к установлению либо отрицанию исторической взаимосвязи между типами гендерного фактора. Взаимное влияние гендерных форм разной социальности служит основой для сравнительного анализа различных типов самоидентификации, раскрытия закономерностей трансформации женской самоидентификации в исторической ретроспективе, а также позволяет смоделировать тип гендерных отношений следующего за постиндустриальным общества.

Помимо собственно политики, особенности гендера проявляются в экономике, социальной жизни, культурно-идеологическом поле, идеологической и мировоззренческой парадигме.

Национальные политики в области гендерадолжны формироваться в качестве систем взаимодействия женской самоидентификации с обществом в целом и/или с каким-либо социальным образованием, например, наукой, моралью или религией. Актуальность данной области обусловлена, с одной стороны, тенденцией к глобализации, когда происходит смешение разнородных социальных процессов и структур, а с другой, кризисными процессами, поражающимиразличные социальные тенденции и философии (бесполые отношения, деформация семейственности и родительских ролей и т.п.), что не может не сказываться на самоидентификации женщины.

Азербайджанская Республика – независимое светское государство, имеющее долгую историю развития гендерных отношений и активного участия женщин в исторической судьбе азербайджанского народа и государства. Вопреки сформировавшейся дефиниции (толкованию, понятию – И.Г.) о закрепощенности мусульманских женщин, Азербайджан еще со времени средневековья демонстрировал объективное отношение к гендерным вопросам.

Историческим достижением, имеющим в современной действительности важное значение не только само по себе, но и как ключевой фактор, способный произвести перелом

в общественном осознании политической роли и активности женщин, является восходящий к истокам древнеазербайджанский эпос «КитабиДедем-Горгуд», а также фактологически подтвержденное влияние влиятельных женщин на события, в разное время происходившие в регионе.

Правительница храброго племени массагетовТомирис 1, победившая вторгшегося в Азербайджан иранского правителя Кира; известные поэтессы Мехсети и Натаван; выдающийся государственный деятель XV века, одна из самых образованных людей того времени, супруга погибшего правителя государства Аг-Гойунлу, мать возведенного на престол умного и талантливого военачальника Узун-Гасана Сара хатун, ставшая ближайшим советником сына-падишаха и известная во всем мире как мудрый дипломат, с которой приезжавшие в страну государственные деятели встречались перед аудиенцией с правителем;Деспинэхатун, супруга Узун-Гасана, также сыгравшая значительную роль в политике Аг-Гойунлу; умная и предприимчивая Нигярханум, подруга жизни народного героя Кероглу, Хаджарханум, храбрая и доблестная супруга народного мстителя гачагаНаби, его преданная соратница, и многие другие – далеко не полный перечень выдающихся азербайджанских женщин, внесших большой вклад в историческую летопись становления азербайджанской государственности.

Неоспоримо, что положение женщины, как и любое другое социальное явление, имеет свои корни в прошлом. И, как правило, это историческое прошлое детерминирует, обусловливает современное положение женщины. Сегодня уже совершенно ясно, что никакие ситуации, связанные с экономической, общественно-политической и социально-культурной жизнью государства, не могут быть адекватно оценены без учета женского феномена.

Женское развитие, их права на безопасность жизни и здоровье, социальный статус всегда были приоритетными в системе национальных интересов государственной политики Азербайджанской Республики. Интеллектуальный и духовный потенциал женщин играет все более значимую роль в современном мире, выдвигает принципиально новые актуальные проблемы повышения роли женщины в обществе, обеспечивает дальнейший прогресс и всестороннее устойчивое развитие республики.

Независимая Азербайджанская Республика и ее руководители последовательно следуют сложившимся испокон веков национальным традициям активного вовлечения женщин в государственное управление, их участия во всех сферах и на всех уровнях жизнедеятельности страны. Еще в советский период руководства Азербайджаном Общенационального лидера азербайджанского народа Гейдара Алиева сложилась политика продолжения и развития исторических традиций полноценного участия в жизни государства азербайджанских женщин. Сегодня эта политика получила значительное развитие в соответствии с современными требованиями и трендами [7].

К числу важнейших шагов современного периода следует отнести создание подготовительного комитета к Пекинской конференции 1994 г. (Указ президента),

осуществление целенаправленной деятельности, в результате которой Азербайджан вошел в число 28 стран (из более чем 180 стран мира), удостоенных чести руководить работой пленарного заседания одного из самых важных форумов XX века – IV Всемирной конференции женщин. К тому же, по инициативе Азербайджана в Пекинскую платформу действий была внесена поправка (п.116), согласно которой взятие женщин в заложники в зонах вооруженных конфликтов впервые в истории международного права включалось в число форм насилия.

Пекинская конференция [1] четко определила приоритеты международного женского движения по улучшению положения женщин и главную задачу на пути к достижению цели – реализацию поддержки и защиты женщин государством.

Главным изменением, которое имело место в постпекинский период, явилось осознание обществом того факта, что права женщин – это права человека и что гендерное равенство – это всеобщая проблема, от решения которой выигрывают все.

Положение женщины в обществе – один из важных индикаторов политического международного авторитета государства. Введение гендерного компонента требует пересмотра всей структуры общества в целом и структурной основы неравенства. Азербайджан принимает немало правовых актов по улучшению положения женщины. Политическое будущее Азербайджана за активными сторонниками и последователями Гейдара Алиева, ведь положение женщины в обществе отражает общую ситуацию в стране. Женщины Азербайджана находятся под надежной защитой и опекой государства.

Активное развитие гендерной политики в Азербайджане совпадает с периодом воссоздания независимости республики. В 1995 г. Азербайджан ратифицировал Конвенцию «О ликвидации всех форм дискриминации в отношении женщин» [3], а в 2001 г. – Факультативный протокол к ней.

В 1997-2000 гг. началась совместная деятельность правительства и Программы развития ООН по проекту «Развитие гендера в Азербайджане». В рамках этого проекта осуществлялись связанные с гендером организационные работы по институционализации и оказание технической помощи государственным структурам и женским неправительственным организациям.

В целях практического обеспечения равноправия женщин и мужчинами, в частности, представления их в системе государственного управления на необходимом уровне, 6 марта 2000 г. Президент подписал Указ «Об осуществлении государственной женской политики в Азербайджанской Республике», заложивший основу создания государственной стратегии в отношении гендерного равенства и расширения возможностей женщин. Указ предписывает обеспечение равного представительства женщин наравне с мужчинами во всех государственных структурах республики, а также проведение гендерной экспертизы законодательства.

В продолжение политики Гейдара Алиева в 2006 г. был принят парламентом и утвержден Указом Президента Ильхама Алиева закон о гендерном равенстве, разработанный при содействии Фонда народонаселения ООН, соответствующих структур Совета Европы,

ОБСЕ и при широком участии неправительственных правозащитных организаций, расширены полномочия Государственного комитета по проблемам женщин, в круг которых вошло решение проблем семьи в целом. Важной мерой в обеспечении прав женщин является разработка Комплексной программы по борьбе с ежедневным насилием, которая также утверждена в 2006 г.

Как показывает мировой опыт, гармоничное партнерство между мужчинами и женщинами в общественной и личной жизни является базисом общественного благосостояния. На практике это предполагает формирование более высокого уровня общекультурного общения, результаты которого сказываются на уровнях и формах взаимопонимания мужчин и женщин в поиске совместных решений.

Одной из важнейших и требующих значительного времени для своего разрешения проблем является обеспечение гендерно сбалансированной структуры общества и системы государственного управления. Социальные представления о гендерных ролях женщины не статичны, и в последние несколько десятилетий к традиционным семейным обязанностям и, как свидетельствует история, дипломатическо/военно/политическому влиянию женщин, прибавились еще и глубоко профессионально-предпринимательские.

Характерной чертой политики современного Азербайджана в гендерном аспекте является законодательное обеспечение равенства между женщинами и мужчинами, поддерживаемое международными стандартами. К настоящему времени в Азербайджане проделана значительная работа по созданию гендерно ориентированной законодательной базы, и этот процесс продолжается.

Современный мир ощутимо умножает количество императивов, требований, предписаний социального бытия – медицинских, гуманитарных, что предъявляет жесткие требования к мировому сообществу в целях обеспечения выживания, безопасности и процветания гражданских обществ. В нарастающей жесткости условий усиливается роль женщин как стабилизирующего фактора.

Гендерный подход включает в себя рассмотрение практических потребностей, таких, как улучшение условий для женщин,позитивное изменение их положения в обществе повышением ее информированности о ситуации и способности принимать решения, оказывать воздействие на изменения. Это подразумевает необходимость рассмотренияидентификационной роли как мужчин, так и женщин, поскольку мужчинам необходимо изменить их отношение и поведение, чтобы поддержать данный процесс.

В общественных науках «гендер» приобрел более узкое значение, обозначая «социальный пол», то есть социально детерминированные роли, идентичности и сферы деятельности мужчин и женщин, зависящие не от биологических половых различий, а от социальной организации общества.

В последние годы в мировом сообществе специалистов по половой самоидентификации нарастает тенденция не обязательного совпадения гендера как социального пола в широком понимании с биологическим полом индивида, с его или ее

полом воспитания или с его/ее паспортным полом. При развитии полного и эффективного участия женщин на всех уровнях принятия решений рассмотрениегендера должно акцентироваться на особенностях обращения различных обществ к специфичным социальным и экономическим ролям мужчин и женщин. Частичный уход общественного отношения в парадигму нивелирования особенностей гендера является губительным в контексте традициональных гендерных политик.

**Ключевые слова:** гендер, государственная политика, законодательство, Азербайджанская Республика.

## Литература


1. Пекинская декларация и Платформа действий. Эл.ресурс https://unfccc.int/resource/docs/2012/sbi/rus/l36r.pdf
2. Конвенция о политических правах женщин. Эл.ресурс http://www.owl.ru/win/docum/un/pol_con.htm
3. Декларация о ликвидации дискриминации в отношении женщин. Эл. ресурс: helpiks.org/7-40183.html
4. Гулузаде З. Гендер в Азербайджане. Баку, 2002.
5. Гусейнова И. Роль азербайджанской женщины в развитии независимого Азербайджана. Материалы международной конференции «Женщины Туркменистана в золотом веке». Ашхабад, 2006.
6. Гусейнова И. Доклад на заседании ООН о гендерной ситуации в национальном образовании.
7. Гусейнова И. Гейдар Алиев – от политического руководителя к общенациональному лидеру, Баку, 2005.


## Milli gender siyasətlərinin tarixi aspektləri

Müstəqil Azərbaycan Respublikasının mövcudluğu şəraitində qadınların dövlət idarəetmə işlərinə cəlb edilməsi, onların ölkənin ictimai-siyasi, sosial-iqtisadi həyatında rolunun artırılması kimi məsələlər xüsusi əhəmiyyət və səciyyə daşıyır. Bu baxımdan sözügedən məqalədə araşdırılan məsələlər aktualdır və böyük maraq doğurur.

# GENDER TERMİNOLOGİYASI

**Səma Isalı**
Bakı Biznes Universiteti, Bakı, Azərbaycan

Müasir dövrdə qloballaşma, miqrasiya, müxtəlif mədəni və dini irsləri olan yeni əhali qrupları, medianın sürətli yayımı, internet və mobil telefon texnologiyası dilimizə yeni terminlərin daxil olmasına səbəb olur. Həm Azərbaycanda, həm də xarici ölkələrdə aparılan gender tədqiqatları bu baxımdan xüsusilə aktual və perspektivlidir.

*Gender*

• Gender kişilərin və qadınların davranışı, münasibətləri, şəxsi keyfiyyətləri, fiziki və əqli bacaraqları ilə əlaqədar yalnız onların kişi və qadın olması ilə əsaslandırılan və müəyyən mədəniyyətdən irəli gələn gözləntiləri və ehtimalları nəzərdə tutur.

• Kişi və qadınların sosial və hüquqi statusunu, şəxsin fərdiliyini təmin edən, somatik, reproduktiv, sosiomədəni və davranış xarakterinin kompleksi kimi müəyyən olunur.

*Gender bərabərliyi:*

• Gender bərabərliyi qadınların və kişilərin ictimai və şəxsi həyatın bütün sahələrində bərabər görünməsi, səlahiyyətlərinin bərabər genişləndirilməsi və bərabər iştirakı deməkdir.

•Gender bərabərliyi insan hüquqlarının ayrılmaz tərkib hissəsidir və qadınların və kişilərin cəmiyyətdə tam iştirakını dəstəkləmək məqsədini daşıyır.

*Gender Ədaləti:*

Təmsil olunma sahəsində bərabərliyin , kişilərə və qadınlara eyni münasibətin təmin edilməsini nəzərdə tutur.

*Genderin bütün sahələrə tətbiqi:*

Gender bərabərliyi perspektivinin bütün sahələrə inteqrasiyası siyasət proseslərinin elə yenidən təşkili, təkmilləşdirilməsi, inkişafı və qiymətləndirilməsini nəzərdə tutur ki, bu zaman gender bərabərliyi ənənəvi olaraq siyasətin hazırlanması və tətbiqi ilə məşqul olan şəxslər tərəfindən bütün səviyyələrdə və mərhələlərdə olan bütün siyasətlərə və proqramlara daxil edilir.

*Gender Büdcəsi:*

• Sosial və cinsi mənşəyə görə maraqların differensiallaşma baxımdan təmin edilməsi üçün hökümətin siyasətinə daxil edilmiş müasir sosial texnologiyadır.

• Bu büdcə icmal büdcənin sosial tərkibini müəyyənləşdirilən, cinsi əlamətə görə bərabər hüquq və şərait siyasəti üçün resursların ayrılmasını təmin edən ictimai müayinə, açıq müzakirə və lobbiçiliyin keçirlməsinə imkan verən bir sistemdir.

*Gender meynstriminq*

Gender meynstriminq - siyasətlər vəproqramların, inkişaf və fəaliyyətlərin bütün səviyyə və mərhələlərində gender məsələlərinin əsas istiqamət kimi əks elətdirilməsi (meynstrim edilməsi)

*Gender idealları*

Gender idealları – kişilərin və qadınların necə olmaları barədə təsəvvürlərdir. Bu, uşağın cəmiyyətdə sosiallaşmasına uyğun gələn mədəni nümunədir, uşaq qız, yaxud oğlan, kişi, yaxud qadın rolunu mənimsəyərək öz davranışını uyğunlaşdırır.

*Gender idealını əks etdirən şəxsiyyətin tipik kişi əlamətləri*

Gender idealını əks etdirən şəxsiyyətin tipik kişi əlamətlərinə bunlar aiddir: fəallıq, güc, əminlik, hakimiyyət, aqressivlik, intellektuallıq, asseptivlik, emosional soyuqluq, təkəbbürlük, şöhrətpərəstlik, qəddarlıq, rassionallıq, zirəklik, açıqlıq, fərdilik, şöhrət, özünəinam, şəxsi nailiyyətlər və instrumentalizmə oriyentasiya.

*Gender idealını əks etdirən şəxsiyyətin tipik qadın əlamətləri*

Gender idealını əks etdirən şəxsiyyətin tipik qadın əlamətlərinə mehribanlıq, zəiflik, zəriflik, passivlik, tabeçilik, asılılıq, komformluq, emosionallıq, ekspressivlik, tolerantlıq, empatiklik, başqalarına oriyentasiya [1].

*Gender identikliyi*

Gender identikliyi öz cinsinin kişi və yaxud qadın cinsi ilə uyğunluğunun dərk olunmasından və qəbulundan ibarətdir.

*Cins*

Cins – ( “sex”- ing.) İnsanın bioloji sahib olduğu keyfiyyətlərinin qadın və kişi (dişi və erkək) kimi fərqlərə ayrılmasını nəzərdə tutur; adi danışıq dilində cins sözündən intim münasibət anlamını verən cinsi əlaqə termini kimi də istifadə olunur.

*Cinsi ayriseçkilik*

• Cinsi əsasda birbaşa ayrı-seçkilik yalnız kişilər və qadınların cinsi mənsubiyyəti və xüsusiyyətləri zəminində obyektiv əsaslandırılması mümkün olmayan fərqləndirməyə əsaslanan açiq aşkar fərqli rəftar-münasibət zamanı baş verir.

• Dolayi ayrı-seçkilik isə müəyyən qanun, siyasət, və ya proqram zahirən ayrı-seçkiliyə yol verməsə də icra edilərkən ayrı-seçkiliklə nəticələndiyi hallarda şamil edilir. Bu məsələn, əvvəldən mövcüd olan qeyri-bərabərlik üzündən qadınların müəyyən bir imkan və ya faydadan kişilərə nisbətən daha çətinliklə istifadə etdiyi hallarda baş verə bilər.

*Cinsi sosiallaşma* – cəmiyyətə, mədəniyyətə uyğun gələn norma və adətlərdən asılı olaraq, uşağa cinsi rolunun aşılanması

- Cinsi vəzifələrin diferensiasiya sistemi;
- Xüsusi cinsi vəzifə göstərişləri;
- Kişi və qadınların hüquq və vəzifələri;
- Maskulin və femin stereotip sistemi (kişi və qadınlar necə olmaqları barədə təsəvvürlər).
- Seksual və reproduktiv rolun mənimsənilməsi; seksual davranış normalarının qavranılması, cinsi əxlaq.

*Seksuallıq* - (“sexuality”-ing.) Geniş anlayışdır və DST aşağıdakı şəkildə şərhini verir: İnsan seksuallığı onun həyatının hər dövrünü əhatə edən fizioloji, psixoloji və sosial komponentləri özündə birləşdirən insanın təbii inkişafının bir hissəsidir.

DST daha geniş şəkildə açıqlayır: “ Seksuallıq” həyatı boyu insan olmanın mərkəzi amilidir, özündə cins, gender kimliyi və rolları, cinsi orientasiya, erotizm, məmnunluq hissi,

intimlik və reproduksiya əhatə edir. Seksuallıq düşüncələrdə, fantaziyalarda, istəklərdə, inanclarda, yanaşmalarda, dəyərlərdə, davranışlarda, təcrübələrdə, rollarda və münasibətlərdə özünü göstərir və yaşanır. Seksuallıq bütün bu bölmələri özünə daxil etdiyi halda, onların hamısı həmişə ifadə edilib yaşanmaya bilir. Seksuallıq bioloji, psixoloji, sosial, iqtisadi, siyasi, etik, hüquqi, tarixi, dini və mənəvi amillərin təsirinə məruz qalır." Bir sıra səbəblərdən seksuallığın bu cür açılışı faydalıdır. Burada seksuallığın insan olmanın mərkəzində dayanması vurğulanır; müəyyən yaş qrupları ilə məhdudlaşmır; gender məsələsilə yaxından əlaqəlidir; müxtəlif cinsi orientasiyaları özünə daxil edir və reproduksiya anlayışından daha genişdir. Burada həmçinin ətraflı təsir şərtlərindən asılı olaraq "seksuallığın" sadəcə davranış elementlərindən daha çoxunu əhatə etdiyi aydın olur. Bu izahat həm də cinsi tərbiyənin sadəcə "cinsi davranış tərbiyəsi" deyil, olduqca geniş və çeşidli sahəni əhatə etməsini şərh edir, lakin təəssüflər olsun ki, bəzən yalnış anlaşıla bilir [2].

*Cinsi sağlamlıq-* ("sexual health"- ing.) ilk dəfə 1972-ci ildə DST tərəfindən açıqlaması verilsə də 2002-ci ildə yenilənməsinə ehtiyac duyuldu. Yeni izaha görə "Cinsi sağlamlıq fiziki, emosional, əqli və sosial rifahın seksuallıqla əlaqəli vəziyyətidir; bu sadəcə xəstəliyin, disfunksiyanın, seksuallığa və cinsi münasibətlərə hörmətsiz yanaşmanın olmaması deyil, həm də məmnunluq verən, təhlükəsiz, ayrıseçkilikdən və zorakılıqdan azad şəkildə cinsi həyat təcrübəsi yaşamaq imkanıdır. Cinsi sağlamlığın müyəssər olması və möhkəmləndirilməsi üçün hər kəsin cinsi haqlarına hörmət edilməli, qorunmalı və ödənilməlidir."

Cinsi sağlamlıq Dünya Səhiyyə Assembleyasının 2004-cü ildə qəbul etdiyi DST-nın qlobal Reproduktiv sağlamlıq strategiyasının beş özək şərtlərindən biridir.

Cinsi sağlamlıq yalnız şəxsi faktorlardan deyil, həm də sosial və mədəni faktorlardan da təsirlənə bilir.

*Cinsi haqlar-* ("sexual rights"-ing.) xüsusilə məlumat və təhsil alma haqlarını da özündə cəmləyir. 2002-ci ildə cinsi haqlar anlayışına da açıqlama gətirildi: "Cinsi haqlar dövlət qanunlarda, beynəlxalq insan haqları sənədlərində və digər consensuslarda tanınan haqlardır. Buraya zorakılıqdan və diskriminasiyadan azad şəkildə bütün insanların haqları daxildir: cinsi sağlamlığa ən yüksək standartlarla çatma, cinsi və reproduktiv səhiyyə xidmətlərini əldə etmə, yəni

- Seksuallıqla bağlı məlumatı axtara, ala və ötürə bilmə;
- Cinsi tərbiyə;
- Bədən toxunulmazlığına hörmət;
- Partnyorunu seçmə;
- Seksual/cinsi aktiv olub-olmama qərarını vermə;
- Razılıq şərtləri altında cinsi münasibətlər;
- Uşaq dünyaya gətirib-gətirməmə və ya nə vaxt uşağa sahib olma qərarını vermə;
- Məmnunedici, qanedici və təhlükəsiz cinsi həyat yaşaya bilmə.

Xüsusi qeyd etmək yerinə düşərdi ki, yuxarıdakı haqlar yetişkin yaşlı insanlar üçün nəzərdə tutulub, uşaqlara aid hüquqlar BMT tərəfindən qəbul olunmuşdur.

*Cinsi tərbiyə*- (“sexual education”-ing.) seksuallığın idraki, emosional, sosial, interaktiv və fiziki aspektlərini öyrənmə mənasını verir. Genital görünüş hansı cinsi rola uyğun (qadın və yaxud kişi) tərbiyə olunması barədə məlumat verir.

Cinsi tərbiyə erkən uşaqlıq dövründə başlayır, yeniyetməlik və gənclik dövründə artır. Cinsi tərbiyə uşaq və gənc yaşlı insanların cinsi inkişafını mühafizə etməyi və dəstəkləməyi nəzərdə tutur. O, uşaq və gənc yaşlı insanları öz cinslərindən razı qalmaq və anlamaq üçün məlumat, bacarıq və müsbət dəyərlərlə tədricən təhciz edir və onlarda özlərinin və başqalarının cinsi sağlamlıq və rifahlarına qarşı məsuliyyətli olmağı öyrədir. Onların həyat keyfiyyətlərinin artırılması, cəmiyyətə mərhəmətli və ədalətli töhvə vermələri üçün seçim etmə imkanı yaradır. Bütün uşaqların və gənclərin yaşlarına uyğun cinsi tərbiyə almaq haqları var. Bundan əlavə, cinsi tərbiyə beynəlxalq dərəcədə qəbul olunmuş insan haqları çərçivəsində aparılmalıdır.

UNESCO-nun cinsi tərbiə anlayışına verdiyi tərif:

“ Ətraflı cinsi tərbiyə gəncləri öz cinslərini fiziki, emosional, fərdi və münasibətlər daxilində ayırd etmək və onu sevmək üçün onlara bilik, bacarıq, münasibət və dəyərlərlə təmin edir. O, “cinsəlliyə” emosional və sosial inkişaf konteksi daxilində vahid yanaşır. Burada yalnız məlumat vermək kifayət deyil. Gənclərə  vacib həyati bacarıqlar və müsbət münasibətlər və dəyərlər inkişaf etdirmək şansı vermək də lazımdır.”

*Feminizm*

Feminizm cinslər arasında bərabərliyi təşviq edən sosial-fəlsəfi cərəyan və ictimai-siyasi hərəkatdır. Feministlər deyirlər ki, kişilərlə qadınlar bərabər imkanlara, hüquqlara malik olmalı, onlara eyni cür rəftar və hörmət edilməlidir.

Beləliklə, gender tədqiqatlarının inkişafı, cəmiyyətdə qadınların statusu və vəziyyətini dəyişən iqtisadi və ictimai münasibətlərin kardinal şəkildə yenidən qurulması ilə şərtlənmişdir. Ədəbiyyatın təhlilinin göstərdiyi kimi, yeni bilik sahəsinin formalaşması, yeni tədqiqat istiqamətinin başlanğıc prosesi marginal gender tədqiqatlarında əks etdirilən qarşıdurma kontekstində baş verir. Bizim fikrimizcə, səbəb ölkədə gender tədqiqatlarının formalaşmamış xüsusi predmeti ilə şərtləndirilmişdir (onun sərhədləri formalaşmaqda davam edir ). İnsanın cins probleminin təhlili bioloji və sosial determinantlarını müəyyənləşdirir, cins - gender iki terminin istifadə edilməsi insanın sosial və xüsusi bioloji cinsini izah edir.

**Açar sözlər:** gender meynstriminq, gender identikliyi, gender bərabərliyi, gender idealları, cinsi tərbiyə.

## Ədəbiyyat

1. Judy Roof Aulette. Changing Families. Belmont, California, 1994.
2. Crompton R. Discussion and Conclusions, Restructuring Gender Relations and Employment. The Decline of the Male Breadwinner. Oxford University Press, 1999.

# ƏLİLLİYİ OLAN QADINLARIN SOSİALLAŞMA PROBLEMİ

**Ülviyyə Mehdiyeva**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: Ulya.mehdixan@gmail.com

*Gender bərabərliyi özü-özlüyündə bir məqsəd olmasından əlavə,*
*həm də yoxsulluğun azaldılması, davamlı inkişafın təmin olunması və*
*səmərəli idarəçiliyin qurulması üçün zəruri olan şərtdir.*
***Kofi Annan, BMT keçmiş baş katibi***
*İnsan inkişafı uzun, sağlam və yaradıcı həyat sürmək, dəyər verdikləri*
*hər hansı məqsədlərə nail olmaq və hamı üçün ümumi olan planetdə ədalətli*
*və dayanıqlı inkişafa fəal surətdə qoşulmaq üçün insanların azadlıqlarının*
*genişləndirilməsi deməkdir. İnsanlar istər fərd kimi, istərsə də qrup olaraq*
*insan inkişafının həm benefisiarları, həm də aparıcı qüvvələridir.*
***İnsan İnkişafı Hesabatı, 2010-cu il***

Əlilliyi olan şəxslər, tarixən cəmiyyətin “xaric olunan və arzuolunmaz” hissəsini təşkil edirdilər. Ümumiyyətlə, cəmiyyətdə əlilliyə - uğursuzluq, lazımsız, fərqli, məzlum və xəstə olaraq baxılmışdır [1].

Feminist yanaşmasında əlillik, qüsur olaraq deyil, fərqlilik olaraq qəbul edilir. Yanaşmaya görə, əlilliyin zəiflik olaraq görülməməsi və siyasi bərabərliyin qorunması əsas olaraq vurğulanır. Feminist yanaşma, sosial rəftarların və qurumların bioloji həqiqətlərdən daha çox bədən reallığının təmsil olunmasında fəal rol oynadığını iddia edir [7]. Feminist nəzəriyyənin radikal tənqidi, əlilliyin bədən fərqi növlərini damğalayan ümumi bir mədəniyyət sistemi olaraq başa düşülməsidir [4].

Əlil qadın və kişilərlə bağlı aparılan tədqiqatların demək olar ki, hamısında əlilliyi olan insanların cins, irq, sosial sinif və etnik kimlik baxımından cəmiyyətdən kənarda qaldıqları görülür. Əlil olmaq, bu sosial təcrübələrin ölçülərini kölgədə qoymaqdadır [3].

Əlilliyi olan qadın, cəmiyyətdə qadın və əlil olması ilə bağlı olaraq problemlər və maneələr yaşayan qadın olaraq görülməkdədir [5].

Əlil kişilərdən fərqli olaraq, cəmiyyətdə əlil qadınların evlənə bilməyəcəyi və hətta uşaq sahibi ola bilməyəcəyi barədə geniş yayılmış bir qərəz mövcuddur. Bu təəssübkeşlik əlil qadının öz imicinin və ənənəvi şəxsiyyətinin formalaşmasında çətinliklər yaradır. Əlilliyi olan qadın, evlənəcəyi şəxslə və ailəsi ilə münasibətlərində qarşıdurma ilə qarşılaşa və əlil bir qadın olaraq ətrafdakı insanlara öz istəklərini tətbiq etməkdə çətinlik çəkə bilər [6].

Əlil qadınların ailələri və ətrafları, onların uşaq sahibi olmasının qarşısını almağa çalışır və bununla birlikdə cəmiyyətdə əlil qadınların seksuallığını görməməzlikdən gəlmə meylini genişləndirir. Araşdırmalar əlil qadınların digər qadınlar kimi normal bir cinsi həyatı olduğunu göstərir. Digər bir yanlış inam isə, əlilliyi olan insanların övladlarının da əlil olacağına dair həqiqəti

əks etdirməməsidir. Əlil qadınların evlənməsinin qarşısını alan digər bir çətinlik, onların uşaq böyüdə bilməyəcəklərinə olan inamdır. Ümumiyyətlə, bu reallığı əks etdirməyən məlumatlardır [6].

Əlil qadınların sosial balanssızlıqlar və qeyri-kafi qaynaqlar səbəbiylə evə qapanması və özlərini cəmiyyətdən təcrid etməsi nəticəsində yarana biləcək sosial və psixoloji problemlərin öhdəsindən gəlmək üçün onları dəstəkləmək, zəif tərəflərini müəyyənləşdirmək və sosial qaynaqları zənginləşdirmək lazımdır. Cəmiyyətin qərəzli fikirlərini aradan qaldırmaq üçün davamlı təhsilə mütləq ehtiyac var. Buna nail olmaq üçün əlil qadınların cəmiyyətə gəlmələri və özlərini göstərmələri və görünməli olmaları lazımdır. Sosial dəstəyə ehtiyacı olan əlil qadınların, cəmiyyət tərəfindən qəbul edilməsi mərhələsində dəstəyə ehtiyacları var. Sosial işçilər, sosial qaynaqların yaradılması, onlarla maraqlanmaq və onlarla zənginləşdirmə prosesində əlil qadınlarla və onların sosial mühitləri ilə işləyirlər. Səlahiyyətləndirmə perspektivi daxilində, əlil qadınlar üçün hər cəmiyyətdə yaşlarına görə gözlənilən inkişaf vəzifələrini yerinə yetirmək üçün işlər aparılmalıdır. Əlil qadınların evlənmə, uşaq sahibi olmaq və işə düzəlmə müddətində yaşaya biləcəkləri çətinlik və maneələri aradan qaldırmaq üçün əlillərdən evlilik, iş, uşaq sahibi olmaq kimi inkişaf tapşırıqları ilə əlaqədar gözləntilərinin az olması səbəbindən bu şəxslərə sosial xidmət təşkilatlarında məsləhət xidmətləri göstərilə bilər. Cəmiyyətdə ictimailəşə bilməməsi nəticəsində, əlil şəxslərin dağınıq olması cəmiyyətdəki mənbələrin səfərbər edilməsini çətinləşdirir. Bu səbəbdən əlil qadınlar təşkil edilməli, onlarla oxşar problemləri olan insanlarla bir araya gəlməli və həyatlarının mövzusu olmalıdır. Əlilliyi olan insanların təşkili güc qazanmaq üçün vacib bir prosesdir [2].

Sosial işçilərin əlilliyi olan qadınların sosiallaşması, cəmiyyətə inteqrasiya olunması, təhsil və əmək prosesinə qoşulmasında göstərdiyi xidmətlər misilsizdir. Bu prosesə cəlb olunan şəxslərinin həyat tərzi və rifahı dəyişir. Onlar özlərini dəyərli və xoşbəxt hiss edirlər.

**Açar sözlər:** gender, əlillik, əlil qadınlar, əlillik və gender.

## Ədəbiyyat

1. Abberley P. (1987). The concept of oppression and the development of a social theory of disability. Disability, Handicap and Society, 2(1), 5-19.
2. Cankurtaran Öntaş Ö. (2001). Güçlendirme Yaklaşımı. Sosyal Hizmette Yeni Yaklaşımlar ve Sorun Alanları (Prof. Dr. Nihal Turan'a Armağan). Ankara: Hacettepe Üniversitesi Sosyal Hizmetler Yüksekokulu Yayın No: 008.
3. Fine, M., Asch, A. (1988) Women with Disabilities. Essays in Psychology, Culture and Politics. Philadelphia: Temple University Press.
4. Garland T. A Feminist Materialist Disability Concept.
5. Kurnaz Özdemir D. (2010). Ortopedik engelli kadınların sorun ve beklentileri: Tuzla ilçesi örneği (Yüksek lisans tezi). Hacettepe Üniversitesi, Ankara.
6. Lipson J.G., Rogers, J. (2000). Cultural Aspects of Disability, Journal of Transcultural Nursing; 11: 73-77.
7. Siebers, T. (2001). Disability in theory: From social constructionism to the New Realism of the body. American Literary History, 13(4), 737-754.

# BƏDİİ ƏSƏRDƏ GENDER ASPEKTİNİN MÜƏLLİFİN İDEYA-ESTETİK BAXIŞLARI İLƏ QARŞILIQLI ƏLAQƏSİ

**Vüsalə Mirzəyeva**
Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan

Müasir dünya təcrübəsi göstərir ki, insan faktorunun ən başlıca komponentlərindən biri cəmiyyətdə gender tarazlığının təmin olunmasıdır. Bu sahədə mövcud olan problemlərin həlli istiqamətində məqsədyönlü davamlı addımların atılması düzgün vətəndaş cəmiyyətinin qurulucuğuna, sosial-iqtisadi inkişafın təminatına zəmin yaradır. Müasir sosial və mədəni proseslərdə və hadisələrin analizində gender yanaşmalarından cox geniş istifadə olunur.

XX əsrin 80-ci illərindən etibarən gender anlayışı bir ideologiya (feminizm), sosial elm kimi mədəniyyət, incəsənət, ədəbiyyat sahəsində də həqiqi dəyərlərin daşıyıcı rolunda çıxış etməyə başladı.Ədəbi-bədii müstəvidə gender aspektini ifadə etməyinmüxtəlif üsulları mövcuddur. Bu proses bədii əsərdə primitiv qadın-kişi personajları ilə zəngin məhəbbət mövzusundan kənara çıxa bilməyən əsərlərin yaranması çərçivəsindən xeyli kənara çıxaraq, ənənəvi gender assimetriyası və hakimiyyət ierarxiyasını tamamalamaq üçün cəmiyyətin qadın və kişilərdən tələb etdiyi rollar, normalar, dəyərlər, xarakter əlamətlərini işıqlandıran mövzularla zəngin bədii nümünələrin yaranmağına rəvac verdi. Bu planda ədəbiyyada gender aspektinin təhlili, bəzi məlum hadisələri, insan faktoru və onun sosium reprezentasiyasının bədii əksində müəllifin ideya-emosional münasibətini dərk etmək imkanı verir.Ədəbiyyatda gender aspektinin ifadəsi bir başa müəllifinideya-estetik baxışlarının istiqamətindən asılıdır desək, yanılmarıq. Ədəbi inkişafın bütün mərhələlərində yaradılmış sənət əsərlərinin tədqiqatı göstərir ki,bədii nümunənin ideya-mövzu xüsusiyyətləri, müəyyən mənada müəllifin mövqeyi ilə birbaşa əlaqəlidir.Bədii əsərdə gender aspektinin yazıçının ideya-estetik baxışları ilə qarşılıqlı əlaqəsindən danışarkən tarixə xronoloji planda qısa ekskurs bütün bu deyilənləri aşkar göstərmək imkanı verir.

Orta əsrlər Azərbaycan dövlətinin tarixi inkişafında, ümumiyyətlə ictimai həyatında qadınların rolu danılmazdır. Möminə xatun, Sara xatun, Xurşidbanu Natavan ölkənin, dövlətçiliyin möhkəmləndirilməsində mühüm rol oynamışlar.Onların timsalında klassik dövr ədəbiyyatımızda gözəlliyi, iradəsi, qətiyyəti, hazırcavablığı, müdrikliyi ilə seçilən bir sıra qadın obrazları yaranmış, həmçinin, dövlətin idarəm olunmasında cinsi rol münasibətlərinin xarakteri də obyektiv işıqlandırılmışdır. Ümumiyyətlə, "Nizamidən Nəsimiyə, Füzulidən Vaqifə doğru ediblərimiz qadln obrazlarını müsbət çalarda yaratmışlar" [2]. Dahi mütəffəkkir Nizami Gəncəvinin yaradıcılığında ideal qadın obrazı yaratması onun qadına humanist münasibətinin təzahürüdür. Orta əslər Azərbaycan poeziyasının əsas janrları hesab olunan lirik xarakterli qəzəl, rübailərimizdə məhəbbət mövzusu fonunda sosial-fəlsəfi mövzulara da rast gəlinir ki, bu da bizə gender problematikası ilə üzləşmə imkanı verir. XII əsr poeziyamızın nümayəndələri Məhsəti Gəncəvi, Xaqani Şirvaninin rübailərindəazad təfəkkürə, qadın azadlığına məhdudiyyət qoyan real gerçəkliyə sərt münasibətaçıq-

aydın duyulur. Məhəmməd Füzulinin poemalarında qadın hüquqsuzluğundan, onu əşya kimi alıb satan,özündən asılı vəziyyətə salan cəmiyyət ittiham olunur.Şair, sosial zülmün qurbanına çevrilmiş Leyli obrazının timsalında bilavasitə, dövrünün radikal dünyagörüşünün konsepsiyalarını ifadə edir.

Digər milli ədəbiyyatlar kimi Qərb ədəbiyyatı da cəmiyyətdə qadın probleminin qoyuluşunda və həllində özəl ənənəyə malikdir. Bu ədəbiyyatgender stereotipləri vasitəsiylə sosial-bəşəri problemlərin, müxtəlif mədəni sosium kontekstində araşdırılması ümumiyyətlə, mənəvi-etik problematikanınnı özünəməxsus cəhətləini üzə çıxartmaq üçün əlverişli materialdır.

Bildiyimiz kimi, ingilis ədəbiyyatında da bu mövzubəşəri qlobal problem kimi əsrlər boyu aktual olmuşdur. Avropa İntibahının görkəmli nümayəndəsi Şekspirin yaradıcılığındaməhəbbət mövzusu ilə yanaşı gender məsələsi də aparıcı mövqe tutur. Dahi sənətkarın yaradıcılığındadaim ədalətsizliklə üzləşən, vəfa və sədaqət rəmzi olan qadın obrazlarının qalereyası həmin dövr ingilis cəmiyyətində də sosial və gender bərabərsizliyinin mövcudluğundan xəbər verir.XVII əsrin cəmiyyət, qadın-kişi münasibətlərindən çıxış edən ədib üçün ideal qadın susmağı bacaran, taleyin hökmünə boyun əyən qadındır.Əsərlərində ictimai təbəqələşmənin, irqi, cinsi bərabərsizliyə qalib gələ bilməyin qeyri-mümkünlüyünü həqiqət kimi oxucusuna çatdırmaq istəyən sənətkar, buna sanki yaratdığı qadın obrazlarının vasitəsiylə nail olur.

Sosial bərabərlik prinsiplərində humanist mövqe tutan Fransız maarifçiliyinin görkəmli nümayəndəsi J.J. Russonun şəxsiyyət azadlığını müdafiə etməsi fonunda sosial zülmə qarşı çıxması ona ümumdünya şöhrəti gətirdi. Yazıçının sentimental nəsrin klassik nümunəsi olan “Yeni Elioza” romanının təhlili gender problematikası planında da maraqlıdır. Romanın qadın qəhrəmanı Yuliyanın sevdiyi şəxslə evlənməsi üçün silki xürafat manelər yaradır. Bu qeyri-bərabər nigaha Yuliyanın atası da razı deyil. Sevdiyi şəxslə qaçmağa imkanı olsa da gəncqız ata evini tərk etməkdən qəti imtina edir. Ənənələrin sevgi, hisslər üzərində hökmranlığı Yuliyanı məhv edir. Romanda gənc qızı bədbəxt edən ictimai şəraitin tənqidi təsviri və sevgi hissinin poetikləşdirililməsinə baxmayaraq, Russo diskriminasiya xarakterli müəllif mövqeyini açıq-aydın ortaya qoyur.Maarifçiyə görə, əsas olan qadının adının ləkələnməməsidir. Sərt sparta əxlaqına malik olan Yuliyanın timsalında Russonun əxlaqi-estetik idealı öz təcəssümünü tapır. Əxlaqi dəyərlərə önəm verən maarifçi, qadını ən əsas cəmiyyətin hörmətini qazanmağa, onunrifahını qorumağa çağırır. Əlbəttə ki, belə patriarxal mövqe qadının azad şeçimə, ictimai sferaya yolunu bağlayır, qadın hüdudlarının məhdudluğunu göstərir.

Gördüyümüz kimi, öz məzmun dolğunluğu və müxtəlif həyat təsvirləri ilə seçilən hər bir bədii mərhələdə bu konfliktə fərqli yanaşma tərzinin mövcudluğu, ədəbiyyatda gender aspektinin öyrənilməsi prosesini aktuallaşdırır.

**Açar sözlər:** Gender, Azərbaycan ədəbiyyatı, İntibah, Fransız maarifçiliyi.

## Ədəbiyyat

1. Abasov A., Mirzəzadə R. Genderə giriş. Bakı, 2004.
2. Hacıyev A. Bədii yaradıcılığın gender aspektləri və feminist tənqid, Gender problemi və müasir Azərbaycan. Respublika elmi konfransının materialları, 2017, Bakı, Azərbaycan Universteti, 2017, s.18-22.

# AZƏRBAYCAN ƏDƏBİYYATINDA GENDER PROBLEMİNİN ÜÇ MÜXTƏLİF DÖVR VƏ JANRDA TƏSVİRİ

**Təbəssüm Muxtarova**
AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, Bakı, Azərbaycan
tebessum.mukhtarova@gmail.com

XXI əsrdə, texnikanın inkişaf etdiyi, informasiyanın geniş vüsət aldığı dövrdə gender problemi yenə əsas problemlərdən olaraq qalmaqdadır. Ədəbiyyatımızda həmişə öndə gedən mövzulardan biri olmuşdur və indi də olmaqdadır. Buna nəzər yetirmək üçün XX əsrin müxtəlif dövrlərini və XXI əsrin əvvəlini əhatə edən dörd müxtəlif janrlı əsərə Cəfər Cabbarlının "Sevil" – 1928 [3], Anarın "Beşmərtəbəli evin altıncı mərtəbəsi" – 1974 [1], Çingiz Abdullayevin "Payız madriqalı" – 2002 [2], İlqar Fəhminin "Aktrisa" – 2003 [4] nəzər salmaq kifayətdir.

Dramaturq Cəfər Cabbarlının "Sevil" [3, s.349-402] əsərinin yazıldığı zaman Azərbaycanda sovet hakimiyyətinin yenicə qurulduğu, ateizmin, sosializm prinsipinin geniş təbliğ olunduğu dövr idi. İslam dininin qanunlarına kortəbii tabe olaraq çadra bağlamış qadınlar dindən o qədər də informasiyaya malik olmayan şəxslər tərəfindən hüquqsuz personaya çevrilmişdilər. Ailə qurulanda qadının fikri nəzərə alınmazdı, qız uşaqlarına təhsil verilməzdi, onların yeganə "qazanclar"ı məişətdə işləmək və tanımadıqları şəxsə zorən ərə verilmək idi. Uzun illər bu əsər teatrlarda səhnəyə qoyuldu, haqqında filmlər çəkildi, opera yazıldı. "Sevil" kimi əsərlərin sayəsində əsrin XX əvvəllərində çadralı qadınların sayı nəzərəçarpacaq dərəcədə aşağı enmişdi.

Yazıçı Anarın "Beşmərtəbəli evin altıncı mərtəbəsi" [1, s.145-356] yazılan dövr, yəni SSRİ-nin mövcud olduğu zamanda, XX əsrin 60-70-ci illərini əhatə edir. O zaman artıq təhsil səviyyəsi yüksəlmiş, insanların dünyagörüşü dəyişmşdi. Mətbuat, televiziya, radio məhdud çərçivədə də olsa, öz müsbət təsirini göstərmiş və cəmiyyətdə sinfi və gender bərabərliyi yaranmışdı. 60-cı illəri Azərbaycan ədəbiyyatında dönüş dövrü də adlandırırlar. Sovet hakimiyyəti tərəfindən uzun müddət diktə edilərək yazılmış və xüsusilə, kollektivlik ruhunda, şəxsiyyət problemi arxa plana keçirilmiş əsərlər içərisində bu əsər böyük rezonans doğurmuşdu və indi də müzakirə edilməkdədir. Bu əsərdə insanın cəmiyyətdən anormal tərzdə asılılığı, özünün xoşbəxtliyi üçün deyil, ətrafdakıların nə deyəcəyi naminə yaşadığı həyat və atdığı addımlar, ailədə, cəmiyyət tərəfindən çətinliklə anlaşılması, qadının azadlığının isə qəbul edilməməsi kimi problemlər önə çəkilir. Bu əsər də dəfələrlə tamaşalara qoyulmuş, filmlərdə öz əksini tamışdır.

Çingiz Abdullayevin "Payız madriqalı"nın [2] və İlqar Fəhminin "Aktrisa"sının [4] yazıldığı zaman isə artıq SSRİ-nin dağılmasından sonra müstəqil Azərbaycan Respublikasının mövcud olduğu indiki dövrü əhatə edir. Klassik detektiv və psixoloji detektiv janrlarında olan bu əsərlərdə təsvir edilər hadisələr ilk baxışdan adi cinayət təəssüratını yaratsalar da, mahiyyətləri fərqlidir. Ç.Abdullayevin əsərindəki Pərviz öz qohumu Gözəl ilə namussuz hərəkətinə görə anası tərəfindən qətlə yetirilir. Pərviz öldürüldükdən sonra dul qalmış və Nərminənin baş tutmayan adlandırılmış həyatı bundan sonra da boşuna gedəcəkdir. Dronqo ilə Esmira xanım məhəbbəti boğmağa

məhkumdurlar. "Aktrisa"nın qəhrəmanı Lalə mənəvi cəhətdən tənhalığını aktryorluq sənəti ilə doldurur, bu isə özü də daxil olmaqla, üç nəfərin qətlinə səbəb olur. "Aktrisa" filmində də əsərdəki bütün nüanslar qabardılmışdır.

İnsanların şüurunda kəskin dəyişikliklər yaranmış, ailələr daxilindəki ciddi qanunlar nəzərəçarpacaq dərəcədə azalmış və çoxlarının düşüncəsində hər bir vətəndaşın öz mənafelərini, hüquqlarını qorumaq haqqında fikirlər dərin kök salmışdır. Kütləvi informasiya vasitələrində tez-tez təşviq edilən hüquqların qorunması prinsipi, zorakılıqların, hüquqsuzluqların sosial şəbəkələrdə geniş rezonans doğurması insanların şüuruna təsirini göstərsə də, mənəvi qanunların yeri daha möhkəmdir.

Tədqiqatçı Yaşar Qarayev buna belə izah verir: "Cəmiyyətdəki fəci vəziyyəti ilə qadınlıq özü-özlüyündə faciə üçün çox əlverişli mövzu verirdi. Lakin nə qədər ki, qadınlıq etiraz və üsyana qalxmır, öz fəci vəziyyəti ilə soyuqqanlılıqla barışırdı, bu vəziyyət adicə bir müsibət olaraq qalırdı. Qadınlıq öz taleyinə üsyan etdikdə, etiraz və qürurla ayağa qalxdıqda isə bu müsibət faciəyə çevrilirdi" [5, s.134]. Əgər C.Cabbarlının "Sevil"ində optimist motivlər varsa da, baş qəhrəmanın müstəqilliyini hansı qurbanlarınsa sayəsində əldə edildiyi aydınlaşır, Təhminə gənc yaşlarında həyatdan köçür, Esmira yenə əvvəlki kimi mənəvi cəhətdən tək qalır, Lalə özü bilmədən qətllərə və özünün vaxtsız ölümünə səbəbkar olur.

Dörd əsərin müqayisəli təhlilinə son verdikdə fərqli dram, roman və detektiv janrlarında və müxtəlif tarixi dövrlərdə, ictimai-siyasi quruluşlarda yazılmalarına baxmayaraq, yəni sovet hakimiyyətinin yeni yarandığı dövr, dəmir pərdəli SSRİ-nin mövcud olduğu dövr və müstəqil Azərbaycan Respublikasının dövrü – bu əsərləri ümumi bir motiv birləşdirdiyi görünür. Hüquqi cəhətdən qadın müstəqil vətəndaş kimi yaşasa da (seçkilərdə iştirak edir, təsərrüfat və idarə rəhbərləri kimi çalışır, respublikanın ictimai-siyasi, mədəni həyatında silinməz izlər qoyurlar və s), ailədə mənəvi qanunların təsiri altında kişinin – ata, qardaş, həyat yoldaşı və digər ailə üzvünün – tabeliyində yaşayır. Qadının cəmiyyət içinə çıxması, həyatında həyat yoldaşından başqa kiminsə peyda olması cəmiyyətdəki nüfuzuna xələl gətirir və faciələrə yol açır. Qadına yanaşma baxımından təhlil edilərsə, cəmiyyətimizdə vəziyyətin o qədər də dəyişmədiyi aydın olar. Bu problem ən müxtəlif və bir-birindən tam fərqli janrlarda əsərlərdə əks edilir.

**Açar sözlər:** Cəfər Cabbarlı "Sevil", Anar "Beşmərtəbəli evin altıncı mərtəbəsi", Çingiz Abdullayev "Payız madriqalı", İlqar Fəhmi "Aktrisa", detektiv janrı, gender problemi.

## Ədəbiyyat

1. Anar. Beşmərtəbəli evin altıncı mərtəbəsi. Bakı, Yazıçı, 1982, 356 s.
2. Abdullayev Ç. Payız madriqalı. Bakı, Nurlar, 2005, 200 s.
3. Cabbarlı C. Əsərləri. 3 clddə. 1-ci cild. Azərbaycan Dövlət Nəşriyyatı. Bakı, 1968, 408 s.
4. Fəhmi İ. Aktrisa. Bakı, Qanun, 2011, 156 s.
5. Qarayev Yaşar. Faciə və qəhrəman. Azərbaycan ədəbiyyatında faciə janrı. Azərbaycan SSR EA Nəşriyyatı. Bakı, 1965, 192 s.

# SİLAHLI MÜNAQİŞƏLƏR ZAMANI İNSAN HÜQUQLARININ MÜDAFİƏSİ GENDER MÜSTƏVİSİNDƏ

**Esmira Orucova**
AMEA-nın Hüquq və İnsan Haqları İnstitutu, Bakı, Azərbaycan

Bəşəriyyət yarandığı gündən qadın-kişi münasibətləri, onların cinsi əlamətlətinə görə ictimai həyatda və ailədə fərqi və rolu diqqət mərkəzində olub. Lakin qadının təkcə bioloji deyil, həm də sosioloji cins olması ilə bağlı mülahizələr yalnız XX əsrdə meydana gəlmişdir.

İnsan yaranandan ölümünə qədər cinsindən, irqindən, dinindən asılı olmayaraq onun hüquq və azadlıqları toxunulmazdır.

Cinsi (bioloji) fərq, ümumiyyətlə, sosiumda-sivil quruluşlarda müzakirə predmeti deyil [2, s.29] .

İnsan hüquqları dedikdə cəmiyyətin üzvü olan fərdin, şəxsiyyətin hüquqları nəzərdə tutulur.

Cinslərin müxtəlif sahələr üzrə problemlərini, o cümlədən çeşidli zorakılıq formalarını və sairəni araşdırmaq, onların bərabərhüquqluluğunun tənzimlənməsini zəruri edir [2, s.7].

Cəmiyyətdə insan hüquqlarını kişi və qadın bərabərliyi müstəvisində aşkarlayan nəzəriyyə gender adlanır.

“Gender” dedikdə kişilər və qadınlar arasında sosial olaraq qurulmuş rollar və münasibətlər nəzərdə tutulur. Gender bioloji amillərlə müəyyənləşdirilmir, əldə edilir [8, s. 3].

XXI əsrdə insan hüquqları, o cümlədən qadın hüquqları dövlət siyasətində daxili proseslərin müzakirəsinə, təhlükəsizlik, sülh, zorakılıq, terrorizm, kütləvi silahlanma əleyhinə olan olan əməkdaşlıq haqqında beynəlxalq müqavilələrin əsas prinsiplərinə söykənən aparıcı xətt olmuşdur [2, s.245].

Məlum olduğu kimi insanlar arasında münaqişəli münasibətləri həll etmək üçün ən primitiv və qəddar üsul silahlı müaqişələr və müharibələrdir. Baş verdiyi zamandan və coğrafi ərazidən asılı olmayaraq, dünyanın hər yerində müharibə və silahlı münaqişələrdən ən çox əziyyət çəkən mülki əhali, xüsusilə də qadınlar olur [5].

Son onillikdə baş vermiş silahlı münaqişələr zamanı mülki əhalinin 80 faizi günahsız müharibə qurbanına çevrilib. Zorakılıq qurbanlarına çevrilən mülki əhalinin əksəriyyəti isə qadınlardır.

Məlum olduğu kimi, müasir dövrdə uzun sürən silahlı münaqişələrdən biri Yaxın Şərq regionunda Fələstin-İsrail münaqişəsidir. Döyüş əməliyyatlarından, qeyri-sabit vəziyyətdən bu ölkənin mülki əhalisi, o cümlədən qadınları daima əziyyət çəkirlər. Birləşmiş Millətlər Təşkilatının Qərbi Asiya üzrə İqtisadi və sosial Komissiyasının məlumatına görə, bu regionda siahlı münaqişələr zamanı tez-tez qadınların girov götürülməsi çox aktual bir hala çevrilib. Təkcə işğal olunmuş Fələstin ərazisindəki hərbi bazalarda 10500 fələstinli mülki əhali saxlanılır ki, onlarında 117 nəfəri qadınlardır [4].

Silahlı münaqişələr zamanı qadın və kişilər arasında ayrıseçkiliyə yol verilməməsi, onların hüquq bərabərliyi müharibə hüququ adlanan beynəlxalq humanitar hüquq normalarında, o cümlədən 1949-cu il 12 avqust tarixliI Cenevrə Konvensiyasının 12-ci [1, s.17], III Cenevrə Konvensiyasının16-cı [21 s.82], IV Cenevrə Konvensiyasının 16, 20, 27-ci [1, s.174, 176, 180], həmçinin 1949-cu il 12 avqust tarixli I Cenevrə Konvensiyalarına 1977-ci il 8 iyun tarixli I Əlavə Protokolun 17-ci [1, s.275], 50, 51 (1,2) [1, s.298], 75-ci[1, s.319], II Əlavə Protokolun 4-cü [1, s.357] maddəsində rəsmi təsbitini tapmışdır.Ümimilikdə Cenevrə Konvensiyalarında və onlara Əlavə protokollarda 19 maddə qadınlara aid edilmişdir.

Bərabər rəftar prinsipi eyni zamanda daha bir mühüm müddəa "qadınlara onların cinsinə uyğun qaydada rəftar bəslənməlidir" prinsipi ilə tamamlanır [6, s.147].

BMT Baş Məclisinin 3318 (XXIX) saylı 14 dekabr 1974-cü il tarixli qətnaməsi ilə qəbul edilmiş "Qadın və uşaqların fövqəladə hallarda, silahlı münaqişələr dövründə müdafiəsi haqqında" Bəyannamə beynəlxalq humanitar hüququn inkişafında mühüm mərhələ olmuşdur. I Protokolun 75-76-cı maddələrində qadınların mühafizəsi ilə əlaqədar nəzərdə tutulmuş müddəaların beynəlxalq hüquq norması kimi təsbit olunmasında bu bəyannamə hüquqi baza rolunu oynamışdır. Bəyannamənin 1-ci maddəsində göstərilir ki, mülki əhaliyə, xüsusən onun ən müdafiəsiz hissəsi olan qadınlara saysız-hesabsız əzab-əziyyət gətirən hücum edilməsi qadağandır[3].Bəyannamənin 5-ci maddəsində göstərilir ki, müharibə edən tərəflərin hərbi əməliyyatların gedişində və ya işğal edilmiş ərazilərdə, həbsxanaya salma, işgəncə vermə, güllələmə, kütləvi silahlanma əleyhinə olan əməkdaşlıq haqqında beynəlxalq müqavilələrin əsas prinsiplərinə söykənən aparıcı xətt olmuşdur [3, s.1].

Bəyannamədə silahlı münaqişələr zamanı qadınlaringirov götürülməsi, təhqir edilməsi, işgəncələrə məruz qalması və sairlə səciyyələnənqadağan olunan hüquq pozuntuları Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı öz əksini tapmışdır. Belə ki, bu günə kimi davam edənDağlıq Qarabağ münaqişəsinin qızğın fazaları zamanı işğal olunmuş ərazilərin sakinləri olan qadınlar erməni işğalçıları tərəfindən heç bir müdafiə görməmiş, əksinə onlara qarşı beynəlxalq humanitar hüququn müdafiə prinsipləri məhz qadın olduqları üçün məqsədyönlü şəkildə, kobudcasına pozulmuşdur.

İşğal olunmuş ərazilərin sakinləri olan 363 nəfər qadın erməni girovluğundagörülməmiş işgəncələrə məruz qaldıqdan sonra azad edilmişdir.

Münaqişə zamanı itkin düşmüş hesab olunan 3875 nəfərin 265-i qadındır.

Şahid ifadələrinə əsasən, girov götürülməsi sübut olunmuş 773 nəfərin 68-idə qadındır.

Əsir və girovluqda qətlə yetirilmiş və ya müxtəlif səbəblərdən vəfat etmiş 553 nəfərin 104 nəfəri qadın olub [7].

Silahlı münaqişə dövründə qadınlara gücləndirilmiş müdafiə təqdim edilməsi adətən onların "zəifliyi, həssaslığı və kövrəkliyi" ilə izah olunur. Qadınların kövrəkliyi daha çox onların xüsusi fiziki tələbatları, zəif fiziki inkişafı, habelə qadın ləyaqəti və qadın əxlaqı ilə bağlı uzun illər ərzində formalaşmış təsəvvürlərlə şərtlənir.

**Açar sözlər:** silahlı qarşıdurmalar, insan hüquqları, gender bərabərliyi, Cenevrə Konvensiyası, Orta Şərq bölgəsi, Dağlıq Qarabağ münaqişəsi.

**Ədəbiyyat**


1. 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyaları və onlara əlavə protokollar. Bakı, 1999, 391 s.
2. Mirzəzadə R. Gender: Cəmiyyət. İnsan Hüququ. Siyasət (fəlsəfi, tarixi və siyasi-hüquqi istiqamətlər), Bakı, 2003, Adiloğlu nəşriyyatı, 420 s.
3. Декларация о защите женщин и детей в чрезвычайных обстоятельствах и в период вооруженных конфликтов. Резолюцией 3318 (XXIX) Генеральной Ассамблеи от 14 декабря 1974 года https://www.un.org/ ru/ documents/decl_conv/declarations/armed.shtml
4. Женщины в вооруженных конфликтах в 13 странах мира. https://www.un.org/undpa/ru/women-peace-security
5. ООН и защита гражданских лиц в вооруженном конфликте www.un.org/russian
6. Commentary on the Trid Ceneva, 1960 mArt. 14, p.147.
7. www.human.gov.az
8. https://www.osce.org/files/f/documents/f/6/75278.pdf


## ГЕНДЕР И БИОЭТИКА: ВЫЗОВЫ СОВРЕМЕННОСТИ


**Нигяр Каландарли**

Бакинский Государственный Университет, Баку, Азербайджан

e-mail: nigar_qh@hotmail.com


Динамично меняющийся мир ставит перед человечеством неизвестные ранее проблемы в области гендера. Мозаичность современного общества, сосуществование разных типов социальности все больше выделяют в качестве доминирующих ключевые понятия, отражающие социальный характер гендера, оставляя его анатомо-физиологический и биологический фактор на втором плане. Современные инновационные достижения научно-технического прогресса не только позволяют улучшить качество жизни человека, но и создают многочисленные гендерные проблемы, которые непосредственным образом связаны с правовыми вопросами в области дискриминационных нарушений по половому признаку.

Развитие всемирного правозащитного движения, совершенствование биоэтических трендов способствовали усилению внимания к существовавшим с незапамятных времен и обострившимся в XXI в. проблемам гендера. Механизмы современной регуляции последствий биотехнологических возможностей наук, связанных с жизнедеятельностью человека, сегодня не в полной мере соответствуют морально-нравственным заповедям, которым человечество следует на протяжении веков, а также нормам традиционной медицинской этики в области гендерной психологии. Инновационные прорывы науки в области генетики человека, трансплантация органов и тканей, хирургические манипуляции с человеческой телесностью, вмешательство в изменения пола эмбриона на дородовом уровне и многие другие биотехнологии оказывают радикальное влияние на проблему взаимосвязи

гендера с биоэтикой. Большое распространение получили различные современные движения, связанные с отношениями мужчин и женщин, деторождаемостью («freechild») и другими «новомодными» трендами.

Согласно Ф.Фукуяме, биотехнологическая революция, происходящая в современных науках о жизни и здоровье человека, их достижения и строящиеся прогнозы означают не просто нарушение или ускорение размеренного хода событий, а приводят к тому, что будущее человечества, биологическая природа человека оказываются в решающей мере зависящими от наших нынешних решений и действий [6].

В современном мире неизменность человеческой природы уступает место принципу выхода из естественности, когда можно изменить пол либо внешние признаки будущего ребенка (цвет глаз, волос, др.), родить ребенка при отсутствии природных предпосылок, манипулировать эмбриональными технологиями и т.п. Это, в свою очередь, втягивает в формат гендерной проблематики вопросы духовного, социокультурного и, безусловно, правового, регулирования, поскольку возможность влиять на пол еще не родившихся детей может вызвать дисбаланс в сексуальных пропорциях человечества и во многих других сферах природы. Сегодня свобода человека оказалась безграничной, в том числе, и в выборе биологического пола. Решающим негативным фактором для устойчивого развития человечества является проблема селекции в вопросах деторождения и приоритеты в пользу мужского пола.

Большую озабоченность в мире вызывает прогрессирующая интервенция идеологии «агрессивного меньшинства так называемого сообщества ЛГБТ», представляющего угрозу для человечества как природно-естественной субстанции. Выдвигаемые ими цели, как то: формирование бесполого человека, нивелирование половых различий и обеспечение соответствующими условиями (общественные туалеты трех видов, провозглашение нескольких видов полов и т.д.), деградация семейных ценностей, ликвидация института родителей и другие безгендерные аспекты – все это разбалансирует соотношение мужчин и женщин в обществе и природе.

В связи с этим, можно утверждать, что при условии такого развития событий понятие гендера, равно как и его проблемы – как социальные, так и анатомо-физиологические – станут неактуальными для человечества ввиду существования бесполого человека с его ограниченными потребностями. Насколько они будут индивидуальностями, личностями, способными для продолжения жизни – существенный вопрос для общества.

Несомненно, такая ситуация представляет собой вызов традиционным представлениям и этическим нормам в области гендера, но, то же время, это и социальный заказ современного общества на разработку правовых оснований, учитывающих инновационные представления о биологическом и социальном статусе человека.

Гендерные стереотипы и предрассудки женского неравноправия давно и глубоко укоренились в общественном сознании, в распределении семейных ролей, на рынке труда. Выравнивание социального статуса мужчин и женщин, построение и продвижение сбалансированной гендерной политики – процесс долговременный и сложный. В связи с

необходимостью установления правовой взаимосвязи биоэтики и права, разрабатываются многочисленные международно-правовые документы, рекомендующие странам-подписантам вырабатывать государственные политики, направленные на нивелирование дискриминации женщин, в том числе, в области биоэтики.

Это, прежде всего, Конвенция ООН о ликвидации всех форм дискриминации в отношении женщин (CEDAW, 1979 г.) [5]; в 1995 г. в Пекине на 4-й Всемирной конференции ООН по положению женщин были приняты Декларация и Платформа действий (Пекин, 1995 г.); Декларация тысячелетия также содержит установления по гендеру. Ранее, в 1966 г. был принят Международный пакт о правах человека, в котором предусмотрена необходимость обеспечения равного для мужчин и женщин права пользования всеми экономическими, социальными, культурными, гражданскими и политическими правами. Принятая гораздо позже Всеобщая декларация ЮНЕСКО о биоэтике и правах человека (2005 г.) содержит признание о важности уделять внимание положению женщин и достижения справедливости в этой сфере [2].

Конвенция CEDAW, кроме законодательных мер в области правового регулирования, указывает на необходимость изменения традиционных социально-культурных моделей поведения мужчин и женщин с целью достижения искоренения предрассудков и упразднения обычаев, которые основаны на идее неполноценности или превосходства одного из полов и стереотипности роли мужчин и женщин, в том числе, осознания обоюдной ответственности за вмешательство в репродуктивное здоровье женщины и состояние эмбриона.

Не приуменьшая достоинств вышеперечисленных международно-правовых документов, отметим, чтостремительность развития био- и медицинских технологий, в том числе, в области женской репродукции, генного конструирования человеческого потомства и ряда других биоэтических направлений из этого ряда, оставила далеко позади постулаты международных актов второй половины прошлого столетия. XXI век разразился такими невероятными технологиями, связанными с моралью, нравственностью, этикой поведения и представляющими угрозу целостности и гармонии мира, что потребуется особое внимание по отношению к институту семьи и семейно-брачных отношений, пропаганде ценностей гендерного равенства, дальнейшей трансформации общественного сознания [3].

Биоэтические парадигмы со свойственными им инновационностью и парадоксальностью, новыми этическими стандартами, подобными суррогатному материнству, дородовому манипулированию с эмбрионом, замораживанию репродуктивных клеток и тканей, искусственному прерыванию беременности и использованию абортария в медицинских и немедицинских целях и т.п., аккумулируют в себе весьма неоднозначную философию человека, основанную на желании получить максимум благ, касающихся качественного уровня жизни и здоровья, без оглядки не будущее и на формирующийся сегодня генофонд.

Гендерное развитие всегда было одним из приоритетов в системе национальных интересов государственной политики Азербайджанской Республики. В 1995 г. республика присоединилась к КонвенцииCEDAW. Во исполнение стратегии Пекинской платформы действий, утвержденной на IV Всемирной конференции женщини определившей приоритеты международного женского движения в Азербайджане разработан и реализуется Национальный план действий, который предусматривает меры, в частности, в сфере репродукции человека. За два прошедших десятилетия научно-технический прогресс достиг таких высот, что, в отсутствие правового обеспечения и законодательной базы, генофонд будет подвержен необратимым изменениям.

Положение женщины в обществе – один из важнейших индикаторов применения этических принципов. Биоэтика призвана играть и играет главенствующую роль в выборе необходимых решений по вопросам, возникающим в связи с влиянием достижений научно-технического прогресса на гендерное равенство во всех сферах жизнедеятельности человека. Введение гендерного компонента требует пересмотра всей структуры гражданского общества в целом и структурной основы неравенства. Поэтому основное внимание должно быть перенесено на перестройку институтов и процесса принятия политических и экономических решений в обществе в целом и в сегментах промышленности, науки, здравоохранения, а также в общественном просвещении.

**Ключевые слова:** Биоэтика, право, гендер, международно-правовые документы, конвенция CEDAW, Азербайджанская Республика, научно-технический прогресс.

## Литература

1. Bioetika: sənədlər, terminlər. Elm.red. A.İ.Mustafayeva. Bakı, 2009.
2. Всеобщая декларация ЮНЕСКО о биоэтике и правах человека (2005 г.), В кн. «Bioetika: sənədlər, terminlər». Elm.red. A.İ.Mustafazadə. Bakı, 2009.
3. Каландарли Н. Проблемы биоэтики в свете Азербайджанского законодательства, Сборник материалов XVI Республиканской научной конференции докторантов и молодых ученых, Баку, 2012.
4. Каландарли Н. Права пациентов в Азербайджанском законодательстве и международный опыт. Баку, 2016.
5. Конвенция «О ликвидации всех форм дискриминации в отношении женщин, Официальные отчеты Генеральной Ассамблеи, 34-я сессия. Дополнение № 46.
6. Фукуяма Ф. Наше постчеловеческое будущее: последствия биотехнологической революции (пер. с англ.). Москва, 2004. Эл.ресурс: www.alt-future.narod.ru/Future/ Fnpb/ fukunpb.htm

**Gender və bioetika: müasir çağirişlar**

Bioetika və hüquq insan həyatının bütün sahələrində gender bərabərliyinin təmin edilməsi məsələlərində əsas rol oynamalıdır. Gender inkişafı Azərbaycan Respublikasının dövlət siyasətinin prioritet milli marağıdır.

## ПРОБЛЕМА ТОРГОВЛИ ЛЮДЬМИ В ГЕНДЕРНОМ АСПЕКТЕ

**Сона Каландарли**
Бакинский Государственный Университет, Баку, Азербайджан
e-mail: sona.galandarli@mail.ru

Серьезной общественно опасной реальностью современного мира становится проблема торговли людьми, в особенности женщинами. Хотя эта проблема имеет древние исторические корни, в XXI векеона обрела новые «инновационные» тренды. Многие страны, признавая, что торговля людьми стала одной из самых актуальных форм попрания прав человека, принимают законы и планы действий, создают национальные координационные механизмы, противодействующие развитию этого чрезвычайно негативного преступного явления.

В новое столетие мир вступил с радикальными изменениями в области гендера. Взаимоотношения между мужчинами и женщинами претерпевают существенно новые идеологические и мировоззренческие трансформации, противоречащие естественно-природным ценностям. Проблема торговли людьми также оказалась в зоне влияния этих трендов.

Ликвидация торговли женщинами напрямую зависит от правового обеспечениярешения этой проблемы на уровне как международного, так и внутригосударственного права. Основные меры по борьбе с этим опасным явлением излагаются в ряде международных документов, которые рекомендуют направить государственные политики на безусловный и безоговорочный запрет подобного рода деяния, нивелирование условий, способствующих развитию торговли людьми в сфере гендера, установление за них ответственности в каждом государстве, являющемся подписантом этих документов.

Сегодня на распространение торговли женщинами влияют глобальные достижения научно-технического прогресса и применение их в преступных целях. Являющийся сам по себе опасно актуальным, «живой» траффикинг, в условиях открытости границ, неограниченного и слабоконтролируемого экспорта «уродливых ценностей», мотивированного и поощряемого различными факторами (материальным, финансовым, социальным), несет в себе еще более жесткую парадигму рабской сексуальной эксплуатации, расширяется сфера ее использования, ужесточаются методы и увеличивается масштаб применения.

Состояние гражданского общества в определенной степени радикализируется быстро распространяющимся движением нивелирования половых различий и формированием бесполого человека.

В связи с нарастающими темпами глобализации, стремительным развитием всепроникающих информационных технологий, неконтролируемым обогащением одних слоев населения и маргинализацией других, ростом современных видов организованной преступности, проблемное пространство гендерной науки значительно расширяется: в нее включаются не только морально-нравственные, но также и правовые компоненты, объединяющие различные системы ценностей – социально-личностные, биофизиологические, юридические.

Торговля людьми, в доминанте своей, женщинами – это не что иное как рабство, которое было отменено, как известно, более 200 лет назад. Тем не менее, сегодня этот своего рода преступный «институт», претерпев изменения временем, возрождается, причем достаточно активно и угрожающе. Согласно Всеобщей декларации прав человека [1], свобода человека является одной из главных общечеловеческих ценностей, а обеспечение неприкосновенности личности – основной функцией государства.

«Сегодня большинство государств-участников ОБСЕ признают, что торговля людьми является большой проблемой. Многие страны принимают активное участие в собственных законотворческих и законодательных процессах по минимизации негативных последствий и полной ликвидации преступной торговли людьми. На сегодняшний день вызов для населения заключается в том, чтобы значительно увеличить масштабы эффективности применяемого законодательства по борьбе с торговлей людьми», – отмечает спецпредставитель ОБСЕ и координатор по борьбе с торговлей людьми Мария Грация Джьямаринаро [4].

Проблема торговли людей с каждым днем охватывает все большее количество людей, большая часть из которых – женщины, вывозимые за рубеж с целью сексуальной эксплуатации.Международные эксперты подсчитали, что годовая мировая прибыль преступников достигает 9,5 млрд.дол. [2]. Это соответствует общему доходу от мировой торговли основными товарами потребления. Статистические данные неопровержимо указывают на тенденцию возрастания темпов торговли людьми во многих государствах мира.

Движущими силами торговли людьми, как осовременившегося «тренда» рабства, являются: гендерное неравенство и дискриминация женщин; отсутствие равных возможностей; экономическое неравенство как внутри государств, так и между ними; коррупция; гражданская нестабильность; недостаточное выполнение государствами своих функций по защите прав своих граждан; наличие спроса на платные сексуальные услуги и дешевую рабочую силу.

Торговля женщинами представляет собой особый вид нелегальной преступной предпринимательской деятельности, которая использует для своей выгоды потенциал все более интенсифицирующихся международных миграционных потоков. Она оказывает

глубочайшее воздействие на свои жертвы, причиняя им психологический и физический вред и травмируя их, а также повышая шансы заразиться такими опасными болезнями, как СПИД.

Глубокий духовный и социально-экономический кризис, дифференциация населения по уровню материального обеспечения приводят к тому, что охват вовлекаемых в преступную деятельность жертв стремительно расширяется, и, что самое опасное, группу социально незащищенного слоя населения значительно пополняют несовершеннолетние подростки, дети младшего возраста, причем не только девочки.

Мировое сообщество, осознав чрезвычайную серьезность проблемы, направляет свои усилия на противодействие торговле людьми, ликвидации факторов, способствующих усиливающемуся развитию преступных деяний в области гендера. Принцип свободы и неприкосновенности личности закреплен в основополагающих международно-нормативных актах. Так, ст.3 Всеобщей декларации прав человека, провозглашенной Генеральной Ассамблеей ООН (1948 г.), провозглашает, что «каждый человек имеет право на жизнь, свободу и на личную неприкосновенность». Уже в 1949 г. резолюцией 317 (IV) Генеральной Ассамблеи ООН была принята Конвенция «О борьбе с торговлей людьми и с эксплуатацией проституции третьими лицами», в Преамбуле которой перечисляются международные акты начала XX в. Это: (1) Договор от 18.05.1904 «О борьбе с торговлей белыми рабынями» и одноименная Конвенция от 04.05.1910 с изменениями, внесенными в них Протоколом, утвержденным Генеральной Ассамблеей ООН 03.12.1948; (2) Конвенция от 30.09.1921 «О борьбе с торговлей женщинами и детьми» с изменениями, внесенными в нее Протоколом, принятым Генеральной Ассамблеей ООН 20 октября 1947 г.; (3) Международная конвенция от 11.10.1933 «О борьбе с торговлей совершеннолетними женщинами», с изменениями, внесенными в нее указанным Протоколом.

Эта Конвенция отмечает, что «проституция и сопровождающее ее зло, каковым является торговля людьми, преследующая цели продажи женщин и из других групп населения, несовместимы с достоинством и ценностью человеческой личности и угрожают благосостоянию человека, семьи и общества» [5]. Статьи конвенции отражают меры наказания всех, кто для удовлетворения сексуальных желаний другого лица сводит, склоняет или совращает в целях проституции другое лицо, даже с согласия этого лица; эксплуатирует проституцию другого лица (ст.1); содержит дом терпимости или управляет им, или сознательно финансирует или принимает участие в финансировании дома терпимости; сдает в аренду или снимает здание или другое место, или часть такового, зная, что они будут использованы в целях проституции третьими лицами (ст.2); покушается на совершение правонарушений из ст.1 и 2 (ст.3).

В 1979 г. ООН была принята Конвенция о ликвидации всех форм дискриминации в отношении женщин (CEDAW). Так называемая «Женская конвенция» стала основополагающим документом, выделившим в отдельную категорию права женщин в системе прав человека. Она стала основой для всех остальных документов, защищающих права женщин, которые принимаются ООН [6].

В принятых в 1995 г. Пекинской декларации и Платформе действий установлено, что в настоящее время понятие торговли людьми значительно расширилось и стало включать в себя все другие виды эксплуатации женщин. В соответствии с положениями этих документов, в сферу торговли людьми входит, помимо вовлечения женщин в занятие проституцией, принудительный труд и браки по принуждению.

Нормативную базу Европейского Союза в области предотвращения торговли людьми формирует пакет рекомендаций, принятых в 1991 г. и утвержденных в 1995 г. Европейским Парламентом. В нем нашли отражение все существовавшие ранее юридические акты, в которых содержатся права человека и вопросы, связанные с торговлей людьми. Это: Европейские права человека и Конвенция (1950 г.) основных свобод и ее протоколы, Европейская Социальная хартия (18.10.1961 и 1996 г.), Рекомендация (1987 г.) «О нелегальной торговле детьми и другим формам эксплуатации детей» и ряд др.

В этих и других международных документах в качестве целей торговли женщинами помимо проституции и других форм сексуальной эксплуатации приводятся принудительный труд или услуги, рабство или обычаи, сходные с рабством, подневольное состояние или извлечение органов. В современных условиях совершенствуются способы и действия для достижения указанных целей, которые подразумевает вербовку, перевозку, передачу, укрывательство и доставку людей. Цели достигаются путем угрозы применения силы или других форм принуждения, похищения, обмана, мошенничества, злоупотребления властью или уязвимостью положения, либо путем подкупа, в виде платежей или выгод для получения согласия лица, контролирующего другое лицо.

Помимо разработки и имплементации в национальные законодательства правовых нормативных актов необходима реализация превентивных мероприятий, таких как общественное просвещение об опасных ситуациях, организация информационных кампаний, образование в учебных заведениях, в том числе, в школах. В этих действиях необходимо всегда делать акцент на равноправие женщин и мужчин, уважение прав человека и достоинства личности, гендерную недискриминацию.

**Ключевые слова:** торговля людьми, гендер, международно-правовые акты, дискриминация женщин.

## Литература

1. Всеобщая декларация прав человека. Эл. ресурс: www.un.org/ru/ documents/decl_conv/declarations/declhr.shtml
2. Доклад Государственного департамента США за 2009 г. «О торговле людьми». Эл.ресурс http://sartraccc.ru/Traffic/i.php?oper=read_file& filename=scien_rep/0008.htm
3. Дягилев А. Некоторые вопросы уголовно-правовой квалификации торговли людьми в целях сексуальной эксплуатации, Вестник Нижегородской академии МВД РФ, 2015, №3(31), с.195.
4. Журнал ОБСЕ. Вып.№4, 2010.
5. Международная конвенция «О борьбе с торговлей совершеннолетними женщинами».

6. Официальные отчеты Генеральной Ассамблеи, 34-я сессия. Дополнение № 46, с.250-254.

**İnsan ticarəti problemi gender aspektində**

Qadın alverinə qarşı mübarizə üçün beynəlxalq hüquqi sənədlər işlənib hazırlanır ki, onlar ayrı-ayrı dövlətlərin milli siyasətinə bu mənfi halın və ona sövq edən şərtlərin qadağan edilməsinə yönəlsin.

## MİLLİ OYANIŞ HƏRƏKATINDA MAARİFÇİ QADINLARIN ROLU

**Növrəstə Quliyeva**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: quliyevanovi@gmail.com

Milli oyanış hərəkatı, milli zülmə qarşı mübarizə aparıb azad olmaq müxtəlif xalqların həyatında müxtəlif formada baş vermişdir. Bir sıra xalqlar bu müqədddəs amala inqilab, silahlı mübarizə yolu ilə, digər xalqlar maarifçi ziyalıların apardığı uzun müddətli təbliğat, dinc mübarizə metodları nəticəsində nail olmuşlar. Dünyada baş verən bu cür proseslər heç də təsadüf nəticəsində, bir qrup şəxsin istəyi nəticəsində deyil, müəyyən tarixi şəraitin, obyektiv amillərin yetişməsi nəticəsində baş verirdi.

XIX əsrin ikinci yarısında Şimali Azərbaycanda neft sahəsində baş verən yüksəliş kapitalist münasibətlərininsürətli inkişafına şərait yaratdı. Həmçinin XIX əsrin 60-70-ci illərində Rusiyada və Qafqazda həyata keçrilən islahatlar da sosial-iqtisadi və ictimai-siyasi həyata öz müsbət təsirini göstərməkdə idi. Cəmiyyətdə baş verən bu cür mütərəqqi inkişaf milli burjuaziyanın və mütərəqqi ziyalılar nəslinin formalaşmasına güclü təkan verdi. XIX əsrin sonlarına doğru maarifçilik hərəkatı cəmiyyət həyatına daha çox təsir edir, milli oyanış başlayırdı. Görkəmli ziyalılarımız, maarif xadimləri, xüsusən də İ.Qutqaşınlı, M.F.Axundzadə, N.Vəzirov öz əsərlərində qadın məsələsinə, Azərbaycan qadınının ailədə və cəmiyyətdə rolunun yüksəldilməsinəmühüm yer verirdilər. Qadınların başına gətirilən müsibətlərin səbəbini cəhalətdə, mövhumatda, onların təhsildən kənarda qalmasında görürdülər. M.F.Axundzadə qadınların cəmiyyətdəki acınacaqlı vəziyyətini nəzərdə tutaraq yazırdı: “Ay camaat, qadın tayfasını həbsdə və pərdədə saxlamayın. Onların haqqında zülm və cəfanı layiq görməyin, çadrada camaatın yarısı haqqında zülm olmaqdan başqa, onun kişi tayfası üçün də saysız-hesabsız zərərləri vardır” [1, s.84].

XIX əsrin sonlarına doğru Azərbaycanda maarif inkişaf edir, yeni-yeni tədris ocaqları fəaliyyətə başlayırdı. Bakıda 1865-ci ildə real məktəb – progimnaziya, 1872-ci ildə isə real məktəb və qadın gimnaziyası, 1896-cı ildə daha bir orta təhsil müəssisəsi – gimnaziya təsisi edildi [5, s.26].

XIX əsrin ortalarında Tiflisdə yaradılan “Müqəddəs Nina” cəmiyyətinin Azərbaycanda – Bakıda eyniadlı qadın təhsil ilə məşğul olan şöbəsifəaliyyət başladı. Bu cəmiyyətin üzvləri arasında 17 nəfər azərbaycanlı qadın var idi [8].

"Müqəddəs Nina" məktəbinin Tiflis və Bakı məzunları Hənifə xanım Abayeva-Məlikova, Mədinə xanım Qiyasbəyli və Sara xanım Vəzirova azərbaycanlı qızların maariflənməsi, təhsilə cəlb olunmasında fəal iştirak etmiş, həyatlarının çoxunu bu müqəddəs amala həsr etmişlər.

Mədinə Qiyasbəyli 1906-cı ildə atasının köməyilə öz evində qızlar üçün məktəb açmış və burada 60 şagird təhsil almışdı. Sara xanım Vəzirova 1910-cu ildə maarifpərvər ziyalılar tərəfindən təsis olunan ikinci rus-tatar (azərbaycanlı – N.Q.) məktəbinin müdiri olmuş, Bakı Müsəlman Qadınları Xeyriyyə Cəmiyyətinin qadın təhsili uğrunda apardığı mübarizədə fəal iştirak etmişdi [1, s.121, 125-126].

1905-ci ildə baş verən inqilabi çıxışlarAzərbaycanda milli şüurun inkişafında, cəmiyyətin demokratikləşməsində mühüm tarixi mərhələ oldu. Belə ki, Rusiyanın mərkəzində başlananinqilab milli ucqarlara da öz təsirini göstərdi, söz, mətbuat azadlığına təkan verdi. Azərbaycan yazıçıları, publisistləri ana dilində yazmaq imkanı əldə etdilər, bir-birinin ardınca "Həyat", "Füyuzat", "Tərəqqi", "Təkamül", "İrşad", "İqbal", "İrşad" qəzetləri, "Molla Nəsrəddin", "Bəhlul", "Zənbur", "İşıq" kimi jurnallar işıq üzü gördü. Dil üslubiyyəti və ideya istiqamətləri fərqli olmasına baxmayaraq bu dövrdə nəşr olunan qəzet və jurnalların əsas amalı zülm, cəhalət içərisində inləyən xalqın qəflət yuxusundan oyadılmasına, öz hüquq və azadlığını dərk etməsinə yönəlmişdi [4, s.82].

Azərbaycanın maarifçi ziyalıları cəmiyyətində hökm sürən cəhalətin, mədəni geriliyin səbəbini elmdən, təhsildən uzaq olmaqda görməklə yanaşı, anlayırdılar ki, cəmiyyətdə kök salmış bu geriliyin aradan qaldırılmasında Azərbaycan qadınının həyat tərzi mühüm rol oynayır. Ə.Ağaoğlu, M.Şaxtaxtlı, C.Məmmədquluzadə, Ö.F.Nemanzadə və başqaları öz yazılarında bu məsələyə xüsusi diqqət yetirir, məsələnin həlli yolunu qadının bir şəxsiyyət kimi azad olmasında görürdülər [3, s.32]

XIX əsrin 80-ci ilərindən başlayaraq Azərbaycan ziyalılarının köməyilə tədrisin ana dilində olduğu yeni üsullu məktəblər fəaliyyət göstərirdilər. Yeni üsullu məktəblərlə yanaşı, rus-tatar (azərbaycanlı – N.Q.) məktəbləri də yaranırdı. Maarif sahəsindəki bu mütərəqqi yeniliklərlə yanaşı azərbaycanlı qadınların təhsilə cəlb olunması, maarifləndirilməsi qarşıda duran ciddi məsələlərdən biri olaraq qalırdı. Azərbaycan qadınının təhsil məsələsinin vacibliyini dərk edən milli burjuaziyanın görkəmli nümayəndəsi H.Z.Tağıyev çətin də olsa öz şəxsi vəsaiti hesabına 1901-ci ildə Bakıda azərbaycanlı qızların təhsil alması üçün ilk rus-müsəlman qız məktəbi açdı [4, s.31]. H.Z.Tağıyevin şəxsi təşəbbüsü və vəsaiti hesabına açılan bu məktəb Azərbaycan maarifçi qadınlarının fəaliyyətində və ziyalı qadın nəslinin yetişməsində mühüm rol oynadı.Gəncədə də 1902-ci ildəazərbaycanlı qızların təhsil alması üçün məktəbin əsası qoyuldu.

Azərbaycanın görkəmli maarifpərvər qadınları Nazlı Tahirova-Nəcəfova, Adilə xanım Qayıbova, Hacı Zeynalabdin Tağıyevin həyat yoldaşı Sona xanım və qızları, Həmida xanım Cavanşir-Məmmədquluzadə və başqaları qadınların təhsilə cəlb olunması, qadın hüquqları uğrunda dövrün bütün çətinliklərinə baxmayaraq inadla mübarizə aparırdılar.

İlk rus-müsəlman məktəbinin direktoru Tiflis gimnaziyasının müdavimi Hənifə xanım Məlikova oldu [6, s.26].Təhsilli ilk müsəlman qızlarından olan Hənifə xanım Abayeva-Məlikova ömür-gün yoldaşı Həsən bəy Zərdabinin "Əkinçi" qəzetini nəşr etməsini sevinclə qarşılamış, bu yolda onun ən yaxın köməkçisi olmuşdu. "Əkinci" qəzetində qadın məsələsinə də toxunurdu. İki

maarifpərvər ziyalı qəzet bağlandıqdan sonra Zərdaba qayıtmış və burada da öz fəaliyyətlərini davam etdirmişlər. Hənifə xanımın mehribanlığı, qadınlara xüsusi qayğı ilə yanaşması, təhsilə olan bitib- tükənməyən sevgisi onun evini yenidən mədəniyyət ocağına çevirmişdi. Hənifə xanım Bakıya yenidən qayıtdıqdan sonra maarif və mədəniyyət sahəsindəki fəaliyyətini davam etdirmiş, 1901-ci ildə təsis edilən rus-müsəlman qız məktəbinin təşkilində xüsusi rol oynamışdı [1, s.96-100].

1911-ci ilin yanvarından nəşr olunmağa başlayan “İşıq” jurnalı ilk qadın mətbuat orqanı idi və qadın hüquqları uğrunda mübarizədə mühüm rol oynadı. Jurnalın naşiri hüquqşünas, tərcüməçi, publisist və xeyriyyəçi Mustafa bəy Əlibəyov, redaktoru isə həyat yoldaşı həkim-ginekoloq Xədicə xanım Əlibəyova idi [2, s.303].

Qəzetə Azərbaycanın müxtəlif  yerlərində yaşayan qadınlar  öz məqalələrini göndərərək qadın azadlığı ideyalarını dilə gətirirdilər. Qadınların təhsilə cəlb olunması, onların hüquq və azadlığı uğrunda mübarizəsi dərc olunan məqalələrin önəmli mövzusunu,qəzetin əsas qayəsini təşkil edirdi. Qadınlar redaksiyaya göndərdikləri məqalələrində öz hüquqsuz vəziyyətlərindən şikayətlənərək yeni məktəblərin açılmasını tələb edirdilər. “İşıq” qəzeti həmçinin uşaqların təlim-tərbiyəsinə dair yazılar dərc etməklə, evdə ər zülmü altında yaşayan anaları öz övladları haqqında düşünməyə çağırırdı [2, s.137, 140].

Jurnalın əsas müəllifləri Azərbaycanın maarifsevər qadınları: Asiya Axundzadə, Xuraman Rəhimbəyzadə, Maral Nəbizadə, Gövhər Şövqiyyə, Səidə Şeyxzadə, Nabat Nərimanova mövhumatın və cahalətin hökm sürdüyü qaranlıq bir zamanda öz yazıları ilə cəmiyyəti aydınlatmağa çalışırdılar. “İşıq” jurnalının nəinki ölkə daxilində, eyni zamanda Dağıstandan, Gürcüstandan, Türkmənistandan, Krımdan oxucuları və müəllifləri var idi.

Müsavat Partiyasının  mətbu orqanı olan“Açıq söz” qəzetində də millətin bütün ağrılı problemlərindən, o cümlədən insanların təhsilə münasibətindən, qadınların vəziyyətindən bəhs edilirdi. Millətin fəlakətini dini fanatizmdə görən qəzetbunun qarşısının alınması üçün məktəblərdə təhsil verən müəllimlərin fəaliyyətinin mühüm rolunu qeyd edirdi.Qəzet, bu fəlakətlərdən qurtuluşun bir yolunun da qadınların maariflənməsi olduğunu yazırdı [5, s.162,163,165].

1917-ci ilin oktyabrında Müsavat partiyasının qurultayında o dövr üçün aktual olan bir sıra problemli məsələlər müzakirə olundu. O cümlədən, İdil boyu və Krım tatarları üçün milli-mədəni muxtariyyət verilməsi tələbi irəli sürüldü. Bu məsələnin müzakirəsi zamanı qəbul olunan 4-cü maddəyə əsasən hər vətəndaşın milliyyətindən, dinindən, kişi və ya qadın olmasından asılı olmayaraq seçki hüququna malik olması qeyd olunurdu. Bu isə cəhalətin hökm sürdüyü Şərq cəmiyyəti üçün olduqca cəsarətli addım idi. Proqramda qəbul olunmuş “İşçi məsələsi” haqqında maddədə qadınların iş hüquqlarından bəhs edilmişdi: qadınlar öz güclərinə uyğun işlərdə işləməli idilər [7, s.124, 126].

Beləliklə, milli oyanış dövründə Azərbaycan qadınlarının iştirakı ilə baş verən maarifçilikhərəkatı öz dövrünün qaranlığını işıqlandırmaqla yanaşı, qadınların sonrakı taleyində də mühüm rol oynadı, onların hüquq və azadlıqlarının carçısına çevrildi.

**Açar sözlər**: qadın azadlığı, qız məktəbləri, mətbuat, cəhalətə qarşı mübarizə.

**Ədəbiyyat**

1. Gəncəli S. Hər sətirdə bir tarix. Bakı “Şur”, “Cik-Cik”, 1994, 429 s.
2. Hüseynov Ş.A. Mətbu irsimizdən səhifələr. Bakı, “Çənlibel”, 2007, 484 s.
3. Qasımova A.N. XX əsrin əvvəllərində Şimali Azərbaycan mətbuatında qadın problemləri (1901-1917). Bakı, “Adiloğlu”, 2010, 168 s.
4. Məmmədov X.M. Azərbaycan Milli Hərəkatı. (1875-1918) Bakı,1996, 174 s.
5. Rəsulzadə M.Ə. Əsərləri, IV c. Bakı, Qanun Nəşriyyatı, 2013, 456 s.
6. Süleymanova S.Y. Azərbaycanda ictimai-siyasi hərəkat (XIX yüzilliyin sonu-XX yüzilliyin əvvəlləri). Bakı, 1999, 419 s.
7. Yaqublu N.Q. Məhəmməd Əmin Rəsulzadə Ensiklopediyası. Bakı, Kitab Klubu, 2013, 506 s.
8. Zeynalov N.N. Azərbaycan Mətbuat Tarixi. II hissə. Bakı, 1974, 104 s.
9. https://news.milli.az/culture/139768.html
10. http://hacizeynalabdintagiyev.blogspot.com/p/qzlar-litseyi.html

# РОЛЬ ЖЕНЩИН В С СФЕРЕ ОБРАЗОВАНИЯ В СОВРЕМЕННОМ АЗРБАЙДЖАНЕ

**Нушаба Гулиева**
Университет Азербайджан, Баку, Азербайджан
Бакинский Государственный Университет, Баку, Азербайджан

Неоценима роль женщин в современном развитии Азербайджана. Женщины принимают участие в государственном управлении, трудятся в сфере образования, здравоохранения, культуры.

Образование – на сегодняшний день является одним из важнейших средств обеспечения гендерного равенства и расширения возможностей женщин. Система образования в Азербайджане регулируется Конституцией, законом об образовании, программой реформ в области образования и другими нормативно-правовыми актами. В статье 42 Конституции Азербайджанской Республики предусматривается право каждого гражданина на получение образования. Статья 3 Закона об образовании Азербайджанской Республики предусматривает право получения образования всеми гражданами независимо от пола. Основу образования составляют средние общеобразовательные школы. Среднее образование в Азербайджане – 11-летнее, бесплатное, обязательное.

В Азербайджане традиционно существует высокий уровень образованности. По данным Государственного Комитета по Статистике в 1999 г – уровень грамотности населения от 15 лет и выше у женщин составляет 98%, у мужчин -100%. Уделяется особое внимание преподаванию вопросов, касающихся равенству прав мужчин и женщин, недопущению дискриминации в подготовке учебных пособий и учебников на всех уровнях системы образования. С 2003 года в средних общеобразовательных школах введён

факультативный курс под названием «Человеческое развитие» и составной его частью является «Гендерный фактор в развитии человека». Также в некоторых ВУЗах были введены образовательные программы по гендеру.

В средних общеобразовательных школах работает 69% женщин, в средне специальных школах- 60%, в ВУЗах-42%. Несмотря на все это, на уровне принятия решений в области образования большинство составляют мужчины. В научно - исследовательских учреждениях республики наравне с мужчинами женщины занимаются активной творческой деятельностью. Если между мужчинами и женщинами, работающими в области науки и существует численная разница, это разница невелика. В целом, среди тех , кто работает в области науки женщины составляют 43%, и это близко к показателям многих развитых стран. Количество женщин, занимающихся в области технических и сельскохозяйственных наук сравнительно мало. Среди занимающихся в сфере гуманитарных наук количество мужчин немного превосходит количество женщин. И только в области медицинских наук женщины составляют большинство. Следует отметить, что вышеуказанное деление по гендеру относится к общему числу работающих в научных заведениях. Анализируя гендерное соотношение среди имеющих научную степень, становится ясно, что наблюдаемая разница более высока. Т.о среди кандидатов и докторов наук мужчины составляют большинство. Несмотря на хорошие, в общем, показатели в области образования, имеются неразрешенные вопросы, связанные с качеством образования, и ряд существенных проблем, которые в течение длительного времени будут отрицательно сказываться на образовании. Проблемы в секторе образования могут быть обобщены нижеследующем образом: - на всех уровнях образования, особенно на начальном и среднем уровне образования ухудшилось качество обучения. Одной из причин этого является то, что в результате армянской агрессии и оккупации 20% территории Азербайджана было разрушено 616 школ и более 20 тыс. педагогов, в том числе и женщин, осталось без работы; - во всех учреждениях образования не хватает учебных материалов и принадлежностей для осуществления деятельности на уровне высоких стандартов; - наблюдается снижение уровня посещаемости девочками школ в связи с социальноэкономическими условиями; - за последние 10 лет уменьшилось количество школ профессионального образования, в том числе, и их учеников; - между образованием и рынком труда имеется несоответствие, а это требует внесения ощутимых изменений в учебные программы для координации их с новыми требованиями рыночной экономики (в среднем, профессиональном и высшем образовании); 9 - следует обратить особое внимание созданию новых возможностей для развития гендерного образования и гендерных исследований, а также повышению гендерной осведомленности, качеству обучения и гендерной квалификации.

По данным на 2014 год женщины составляют 76,2 % от общего количества учителей средних школ страны, 77,5 % от общего числа преподавателей профессиональных школ, 47,2 % от учителей высших учебных заведений.

По данным на 2017 год женщин среди учителей – 78,1%, в средних специальных учебных заведениях – 76,1%, в высших учебных заведениях – 51,9% [2, с. 8-9].

На сегодняшний день государство способствует тому, чтобы «гендер» из факультативного предмета превратился в обязательный предмет; совершенствует работу в сфере примирения семейных и трудовых обязанностей с тем, чтобы привлекать больше женщин в науку, политику, общественную жизнь; пропагандирует привлечение девочек к получению технического образования; создает условия для получения женщинами и девочками технического образования и т.д. [2, с. 31].

В последние годы в Азербайджанской Республике достигнуты существенные успехи в области развития образования. В рамках реализуемых государственных программ во всех регионах страны значительно обновилась инфраструктура общего образования. В стране создана нормативно-правовая база образования, отвечающая современным требованиям. В высшем образовании приняты государственные программы, реализованы проекты в целях применения важнейших принципов, вытекающих из Болонской декларации, современного информационного и научно-методического обеспечения учебных заведений, обновления образовательной инфраструктуры, улучшения обеспечения учебниками, обеспечения отдаленных сельских школ педагогическими кадрами, построения услуг дошкольного и профессионального образования на уровне современных требований.

В соответствии с проводимой государственной политикой государственные расходы на образование только за последние пять лет возросли в 1,3 раза. Наряду с этим, новые долгосрочные призывы по развитию человеческого капитала в Азербайджане диктуют необходимость осуществления важных мер в финансировании сферы образования [1].

**Ключевые слова**: женщина, образование, гендер, закон.

## Литература

1. https://azertag.az/ru/xeber/Neocenima_rol_zhenshchin_v_sovremennom_razvitii_Azerbaidzhana-238683
2. https://www.un.org/womenwatch/daw/Review/responses/AZERBAIJAN-Russian.pdf, Отчет Государственного Комитета по Делам Женщин Азербайджанской Республики по вопроснику для правительств, касающийся осуществления Пекинской платформы действий (1995 год) и решений двадцать третьей специальной сессии Генеральной Ассамблеи ООН (2000 год) 32 стр.

## Summary

The role of women in the modern development of Azerbaijan is invaluable. Women take part in government, work in education, health care and culture. Today it is one of the most important means of gender equality and the expansion of women. The education system in Azerbaijan is regulated by the Constitution, the Education Law, education programs and other regulatory legal acts.

# RAMİZ RÖVŞƏNİN “DAŞ” POVESTİNDƏ GENDER PROBLEMİNİN BƏDİİ PROYEKSİYASI

**Mələkə Rəcəbova**
Bakı Slavyan Universiteti, Bakı, Azərbaycan
e-mail: melake_elyasova@mail.ru

Bədii mətndə gender problemi ilə bağlı XX əsrin 70-ci illərindən Avropa, sonralar isə Azərbaycan ədəbiyyatşünaslığında müəyyən tədqiqatlar aparılmışdır. Bu məsələ dünya ədəbiyyatında daha çox Ceyms Coy, Virciniya Vulf, Jan Pol Sartr, Frans Kafka, Albert Kamyu, Azərbaycan ədəbiyyatda isə Elçin, Anar, Ramiz Rövşən, Afaq Məsud və s. kimi yazıçıların yaradıcılığında daha qabarıq vurğulanmışdır.

Gender sözü ilk dəfə Ann Oukli tərəfindən qadın və kişilərin bioloji və sosial xarakterlərini təsvir etmək üçün istifadə edilmişdir. Genderin ən sadə təsnifatı Ann Oukli tərəfindən belə verilmişdir: İnsanlar dişi və erkək doğulurlar, qız və oğlan kimi böyüməyi öyrənirlər, qadın və kişi kimi yetişirlər. Onlara cinslərinə uyğun davranış, inam, münasibət, rollar təlqin edilir [1, s.13].

Məqalədə XX əsrdə Azərbaycan kəndlərində möcud gender mövzusunun bədii əsərdə proyeksiya məsələsini Ramiz Rövşənin 1975-1977- ci illərdə yazılmış “Daş” povesti əsasında araşdıracağıq.

Yazıçı bu əsərində müxtəlif statuslara, orijinallığa malik qadın və kişi obrazları yaratmışdır. “Daş” povestində bəzi obrazlar hisslərini, dünyabaxışlarını öz dilləri ilə oxuculara çatdırır, bəzilərinin isə hiss və düşüncələrini ya öz hərəkətlərindən, ya da digər obrazının dili ilə anlayırıq.

Biz məqalədə “Daş” povestində Müslüm kişi və onun həyat yoldaşından söhbət açmaq istərdik. Müslüm obrazının həyat yoldaşına olan buz kimi soyuq münasibəti bütün əsər boyu diqqəti cəlb edir. Ümumiyyətlə, onun qadınlara qarşı qəribə bir nifrət hissi var idi. Bəs bu nifrət, nifrətdən yaranan soyuq münasibətin səbəbi nə idi? Onu uşaq vaxtı qoyub gedən anasına görə mi Müslüm uşaq vaxtından bir yerdə böyüdüyü, ailə qurduğu əmisi qızına qarşı belə soyuq idi? O, anası haqqında bir kəlmə belə pis söz eşitməmişdi. Bəlkə də vaxtilə anasının getdiyi kimi, həyat yoldaşının da onu qoyub getmə qorxusu idi bu soyuqluğun səbəbi.

Müslüm kişinin həyat yoldaşı onun doğmaca əmisi qızı idi. Bu qadın bütün əsər boyu danışıb-dinmirdi. Sakit yatır, durur, iş görür, axşam yatır, eləcə sakit oyanırdı. Yenə həyətdə o baş-bu başa dolanırdı. İş dalınca, buyruq dalınca qaçırdı. Biz bunları onun öz dilindən yox, hərəkətlərindən görürük.

Müslüm müharibədən qayıdanda çox şey dəyişmişdi, əmisiqizi isə əvvəlki kimi sakit, həyatında baş verənlərlə razılaşan qız idi. Necə ki, müharibədən gələn gecə, Müslümün onu özünə həyat yoldaşı etdiyi gün, o bu münasibətə hər hansı bir reaksiya verdimi? Xeyr. “Bu qız bütün gecəni guya beləcə yatmışdı, nə Müslümün o yorğanın altına girməyindən xəbər tutmuşdu, nə gözünü açmışdı, nə səsini çıxartmışdı....” [2, s.641]. Evləndikdən sonra da heçnə dəyişmədi: “O qız Müslümün arvadı olandan sonra da heç dəyişib eləməmişdi” [2, s.642].

Müslüm ilə həyat yoldaşının arasındakı soyuq münasibət birtərəfli idimi? Əsla. Çünki Müslüm özü də həyat yoldaşına yaxınlaşmaq istəmirdi, qorxurdu. Bu münasibətin sonralar onun üçün bir vəzifəyə dönüşə biləcəyi fikri onu qorxudurdu. "Amma Müslüm o arvadı öpməyə qorxurdu. Elə bil öpsə, o öpüşün yeri qalacaqdı və ondan sonra gecələr o arvadın yanına girmək Müslümün boynuna düşəcəkdi, vəzifəsi olacaqdı" [2, s.643].

Əsərdə yer alan bütün qadın obrazları kimi Müslüm kişinin də həyat yoldaşı əsər boyu yazıçı tərəfindən danışdırılmır, sadəcə bu qadın əsər boyu bir dəfə dillənir. "Arvadı evin qabağında, pəncərənin altında döşəkcə qoyub oturmuşdu, kürəyini söykəmişdi divara, baxırdı. Baxdı, baxdı, birdən lap yavaşcadan pıçıldadı:

-Ölürəm…- dedi.

-Axmaq- axmaq danışma!...

-Vallah ölürəm..." [2, s.562].

Son nəfəsində də bu qadın ölümünü Müslüm kişiyə "Ölürəm", "Vallah ölürəm" kəlmələri ilə sübut etməyə çalışır. Əsərin ilk sətirlərindən biz bu qadının ölümünü görürük. Yazıçı qadının ölümünü faciəli şəkildə təsvir etməsə də, əsəri oxuduqca biz ölümün o qadın üçün bəlkə də böyük arzu olduğunu görürük. Qadın öləndə belə bir azca da olsa şikayət etmir sanki ölümü gözləyirmiş. Ölüm bu qadın üçün bütün əzablardan qurtuluş idi. Çünki əsərin başlanğıcında söylənilən ifadələrlə Müslüm kişi bütün bu olacaqlar üçün qadını günahlandırır. Onun xəstəliyinin quşlara, toyuqlara ziyan vurduğunu dönə-dönə qeyd edir. "... Bu ilin üzümü heç!.. Bu ilin üzümü getdi!... Quşlar dənləyəcək, uşaqlar talayacaq, mürəbbəsi bişməyəcək, çaxırı çəkilməyəcək!.. Hamısı da bu arvadın ucbatındandı" [2, s.563].

"...Qurtardı!.. Kəráminə şükür, Allah, deyəsən qurtardı. Səninki də buracanmış, arvad, öldün, canın dincəldi... Ancaq bu arvaddan da çox Müslüm kişinin öz canı dincəlmişdi, bütün dünyanın canı dincəlmişdi" [2, s.564]. Həqiqətən də ən çox Müslüm kişinin canı dincəlmişdi. Çünki hər dəfə Müslüm kişi lilli gölməçələrdən zəli yığıb gətirir və o zəlilər qadının qanını sümürürdülər. Sonra isə onları toplayıb torpaqda basdırmaq vəzifəsi yenə də Müslüm kişiyə düşürdü.

"Birdən Müslüm kişinin ürəyinə nə damdısa başının tükü biz- biz oldu, ancaq yenə başını qaldırmadı. Çünki arvadına sarı baxmağa qorxurdu. Niyə qorxurdu, - orasını fikirləşməyə də ürək eləmirdi" [2, s.562]. Bəlkə də, Müslüm kişini qorxudan tumarlaya- tumarlaya yonduğu daş idi. O, kənddə çox adam üçün başdaşı yonmuşdu, amma belə həvəslə, belə gözəllikdə yox. Bəlkə də arvadını ölmək üçün həvəsə gətirən onun yonduğu daş idi? "Bu necə başdaşıydı, Allah, baxanda adamın tamahı düşürdü, ölməyi gəlirdi. Bəlkə də o arvad da bu başdaşını görüb tamahlanmışdı, ölmüşdü" [2, s.567].

Əsəri oxuduqca müəllif oxuyucuya aşılada bilir ki, bəlkə də, bu qadını sağalmaz xəstəliyə düçar edən səbəb uşaqlıqdan vəfat edənə qədər susması, həyatında baş verən heç bir hadisəyə fikrini bildirməməsidir. Ona susmağı öyrədən cəmiyyət onu sevgisiz yaşamağa da məhkum edib. Povestin adı və Müslüm kişinin həyatının böyük bir hissəsini qəbir daşı yonub hazırlamağa həsr etməsi əsərdə təsvir olunan ailə münasibətləri fonunda daşın bir simvol funksiyası daşıdını göstərir.

R.Rövşən "Daş"əsərində bu mövzu ilə bağlı daha bir çox məsələləri Müslümün daxili monoloqu və nitqi, qadının isə susmağı ilə göstərməyi bacarmışdır.

Ümumiyyətlə, XX əsrin əvvəlindən 50-ci illərə kimi Azərbaycan kəndlərində özünü göstərən gender problemi ilə əlaqədar bir çox baxışların bədii proyeksiyası əsərin aktuallıq daşımasına səbəb olmuşdur.

**Açar sözlər:** gender, bədii əsər, ailə, soyuq münasibət, qorxu.

**Ədəbiyyat**

1. Ağayeva K. Azərbaycanda gender məsələləri. Bakı: "Qərb Universiteti", 2014, 416 s.
2. Rövşən R. Nəfəs. Kitablar kitabı (şeir, nəsr, esse). Bakı: "Qanun" nəşriyyatı, 2017, 728 səh.

## XX ƏSRİN ƏVVƏLLƏRİ AZƏRBAYCAN ƏDƏBIYYATINDA GENDER PROBLEMİNIN DİNAMİKASI

**Ülviyyə Rəhimova, Samirə Məmmədova**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan

Bildiyimiz kimi gender cinsindən asılı olaraq insanların sosial statusunu müəyyən edir. Bu problem özü özlüyündə insanın sosial mühitdə öyrəndiyi və cəmiyyətin insandan tələb etdiyi sosial rollar, münasibətlər sistemi və davranış qaydalarını əhatə edərək ailədə, kollektivdə və cəmiyyətdə hakimiyyətin bölüşdürülməsinə, nəzarət və güc sistemlərinə də birbaşa təsirlə bağlıdır. Bu baxımdan genderproblemi müstəsna şəkildə yalnız qadın və qızları əhatə etməsə də, bütün mədəniyyətlərdə əsasən onlara təsir edir. Artıq gender adı çəkiləndə ilk növbədə qadına qarşı olunan haqsızlıq problemi ön plana çıxır. Sosial problemlərin təcəssüm obyekti olan ədəbi-bədii nümunələrdə də əsrlər boyu qadına qarşı haqsızlıq öz əksini tapmış və bu proses hələ də davam edir.

XX əsrin əvvəllərində bütün dünyanın – o cümlədən ölkəmizin hələ yüksək texnologiyalar dövrünə qədəm basması, əyalət psixologiyasının "müasirləşmək" ideyasına köklənməsinin ən böyük problemi də qadınla bağlı olmuşdur. Əsrlər boyu cəhalətdə yaşayan qadının çadrasını atıb təhsil alması, normal insanlara məxsus hüquqa malik olması Azərbaycanda tədricənmürəkkəb və ziddiyyətli şəkildə həyata keçmişdir. Cəhalətdən imtina edən dünyaya açıq gözlə baxmağa cəsarət edən, cəmiyyətdə gedən bütün hadisələrdə qadının iştirakının səciyyəsi və bununla bağlı insanların mənəvi durumunda yaranan problemlərin açıqlanması XX əsrin əvvəllərində gender probleminin öyrənilməsinin əsas amilləri hesab oluna bilər. Bu baxımdan XX əsrin əvvələrində iki istiqamətdə-romantizm və realizm cərəyanına mənsub sənətkarların əsərlərinə diqqət yetirək. Həm romantik sənətkar Hüseyn Cavidin, həm də romantizm-realizm arasında var-gəl edən əsasən realist sənətkar kimi öz yerini tutan Cəfər Cabbarlının, Cəlil Məmmədquluzadənin yaradıcılığında qadın həyatını,

onun sosial statusunu, yerini, hüququnu müəyyən edən, mənəvi iztirablarından tutmuş fiziki işgəncələrinə qədər öz təcəssümünü tapan obrazlara geniş yer verilmişdir.

H. Cavidin ilk əsərlərindən hesab olunan "Maral" faciəsində Maral ilk baxışda malik olduğu qapalı cəmiyyətinin bütün normalarını qəbul etmişdir. On altı yaşlı gənc qız yaşlı kişiyə ərə verilmiş və o, başı aşağı, "namuslu" həyat tərzinə malik durumu ilə əsərə daxil olur. Lakin elə ilk pərdələrdə qəhrəmanın özü öz vəziyyətinin nə qədər faciəli olmasını başa düşürvə bütün gücü ilə bu əzablı durumdan xilas olmaq istəyir. Hadisələrin gedişati isə onu getdikcə daha dərin çıxılmazlıq labirintinə doğru sürükləyir. Müəllif Maral obrazı ilə yanaşı onun əksi olan Humay obrazını qarşıya çıxarır [3].

XX əsrin ikinci yarısında ədəbiyyatşünaslıqda narratologiyanın bir müstəqil elm sahəsi kimi inkişaf etməsi ilə əlaqədar olaraq motivin dixotomik təbiətə malik olması ikə bağlı konsepsiya ətraflı işlənməyə başlayır. Bu sahədə amerikalı ədəbiyyatşünasların xidmətini xüsusilə qeyd etmək lazımdır.Onlar belə hesab edirdilər ki, motiv öz təbiəti etibarilə dualist xarakter daşıyır və motivin mahiyyətini bir-birilə əlaqəli, lakin eyni zamanda struktur baxımından bir-birinə əks prinsip əsasında açıqlamaq olar.

Bu prinsiplərdən birincisi motivin ümumiləşdirilmiş invariantıdır və bir növ konkret fabula ifadələrindən təcrid olunmuşdur. Onlardan ikincisi, əksinə konkret fabulalarda ifadə olunmuş variantların toplusudur.

Bu baxımdan haqsızlığa uğrayan qadın motivinin bir çox invariantı mövcuddur. H. Cavidin yaradıcılığında maddi baxımdan tam təmin olunmuş gənc Maral ruhi baxımdan haqsızlığa düçar olmuşdur. O azad sevgiyə qovuşmaq üçün mübarizə aparır və faciəvi şəkildə həyatını itirir. Humay obrazının varlığı artıq mübariz türk qadının da mövcud olmasından xəbər verir.

C. Məmmədquluzadənin yaradıcılığında isə haqsızlığa düçar olmuş qadın motivinin üç invariantının təcəssüm olunması gender probleminin öyrənilməsində mühüm amil hesab oluna bilər. Maddi baxımdan sıxıntı içində yaşayan, ərinin, uşağının əzablarını paylaşıb dünyadan köçən Məmmədhəsən əminin övrəti, məhz qadın olduğu üçün kənarda baş verən hadisələrdə iştirak etmək hüququndan məhrum olan, evi, mülkü , qadınlığı zorla əlindən alınmış Zeynəb və xəyanətə məruz qalan Xurşid obrazı müxtəlif invariantlar olaraq konkret süjetin içərisində ifadə olunmuş variantların toplusunu təşkil edir [2].

XX əsrin əvvəllərində romantik faciələrdə qadın obrazının emosional –rasional müstəvidən deformasiyaya uğramış variantları da diqqəti cəlb edir. Bu baxımdan H. Cavidin "Afət" faciəsində meşşanlığa uymuş qadın ilə yanaşı C. Cabbarlının "Solğun çiçəklər" əsərində məsum Saranın əksi olaraq Pəri, "Sevil" pyesində Sevil, Gülüş obrazlarının xarakter əksi olaraq Dilbər obrazlarını təhlil etmək maraqlı olardı. Cavid öz qəhrəmanı Afəti həm tənqid edir, həm də onun etdiyi səhvlərə və bunun nəticəsi olaraq çəkdiyi iztirablara rəğbətlə yanaşır. Burada Afət öz səhvlərini anlayır, dərk edir, əzab çəkir."Solğun çiçəklər" əsərində Saranın ölümünə səbəb olan hər şeyə sahib durmağa cəhd edən Pəri özü də məhv olur. Bu əsərdə müəllifin Pəriyə münasibətində rəğbət qətiyyən hiss olunmur [1]. Lakin buna baxmayaraq sənətkarlar hər iki halda baş verən faciənin əsas səbəbinin cəhalət olmasına işarə edirlər. Qadının təhsil almadan erkən yaşda ərə verilməsi, onun bütün hüquqlarının əlindən alması bəzən də emosionallığın qəddarlıqla əvəz olunmasına gətirib çıxarır.

Bu halda cəmiyyət hər an xəyanətə hazır olan mələk üzlü, iblis xislətli qadın obrazları ilə üzləşməli olur.

XX əsrin əvvəllərində ədəbi-bədii nümunələrdə təcəssüm olunan ruhi-mənəvi, eyni zamanda fiziki işgəncələrə məruz qalan qadın obrazları mahiyyəti etbarilə bu gün yaşadığımız dövrdə də aktual hesab oluna bilər.

**Açar sözlər:** qadın, gender, zorakılıq, haqsızlıq, əsər.

## Ədəbiyyat

1. Cəfər Cabbarlı. Əsərləri. II cild. "Şərq-Qərb" nəşriyyatı. Bakı, 2005. s.34.
2. Cəlil Məmmədquluzadə. Seçilmiş əsərləri. I cild. "Öndər" nəşriyyat. Bakı, 2004.
3. Hüseyn Cavid. Seçilmiş əsərləri. II cild. "Lider nəşriyyatı". Bakı, 2005. s.61.

# PSİXOLOJİ-PEDAQOJİ TƏDQİQATLARDA GENDER PROBLEMLƏRİ

**Tünzalə Verdiyeva**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan

Müasir psixoloji-pedaqoji tədqiqatlarda gender identikliyi hər şeydən öncə "Mən" mövqeyinə fərdin həyəcanı və dərk edilməsi kimi baxılır. İ.V. Romanov cinsi identiklik anlayışını, özünüdərklə bağlı şəxsiyyətin ayrı-ayrı tərəflərini birləşdirən daxili dinamik struktur və müəyyən cinsin nümayəndəsi kimi təyin edir. Özünüdərk struktur elementi kimi gender identikliyinə V.S. Muxina nəzər yetirmişdir. Onun konsepsiyasının əsasında insanın ictimai dəyərləri sosial normativlər vasitəsilə mənimsəməsi ideyası durur. V.S. Muxinanın sxeminə əsasən, öz cinsinə oriyentasiya və bununla bağlı dəyişiklər ayrılmaz mənbə kimi təsəvvür olunur. V.S. Muxina uşağın şəxsi inkişaf amillərini və şərtlərini reallaşdıran mexanizmləri ayırd edir. Belə mexanizmlər qismində dialektik cəhətdən əlaqəli olan xüsusiləşmə və identiklik götürülür. İdentikləşmə gender identifikasiyasının formalaşması prosesi kimi A.İ. Zaxarov tərəfindən araşdırılmışdır. O, qeyd edir ki, həmyaşıdlarla ünsiyyət vərdişinin formalaşması üçün valideyn nümunəsi mühümdür. D.İ. İsayev və V.E. Kaqan "cinsi rol" və "cinsi identiklik" anlayışlarını təhlil etmişlər. Birinci təlimat və ekspektasiyalar sistemi ilə müəyyən edilən davranış modelinə əsasən fərd onu mənimsəməli və ona uyğun olmalıdır ki, onu kişi, yaxud qadın cinsinin nümayəndəsi hesab etsinlər. İkinci isə, özünü bu və ya başqa cinsə aid edən və müvafiq cinsi rolun tələbinə oriyentasiya olunan fərdin davranışı və özünüdərkin tamlığıdır. Eyni zamanda, onlar qeyd edirlər ki, rolun bölünməsi və identikliyi hər halda cinsi diferensiasiyanın harmonik gedişi zamanı olduqca vacibdir. İdentiklik – rolun subyektiv hissi, rol isə davranışda identikliyin təzahürüdür. Bu müəlliflər cinsi rolun - eyniliyin formalaşmasına - hazırkı mədəniyyətə xas maskul və femin stereotiplərə təsir edən psixoseksual diferensiasiyanın determinantı sxemini təklif edirlər. Onların yanaşmasına əsasən, ilkin identiklik, rol-identikiyi cinsi fərqlərin formalaşma modeli kimi çıxış edir. A.İ. Belkina şəxslərin psixoloji araşdırma materiallarında yaşlı insanlarda gender identikliyinin dəyişmə mərhələlərini ayırd etmişdir. Gender strukturunun ayrı-ayrı komponentlərinin formalaşması problemini, o cümlədən

gender ideallarını müzakirə edərək, D.N. İsayev və V.E. Kaqan qeyd etmişlər ki, müasir siyasi mövqenin çox hissəsi cinsi və sosial demokratikləşməyə baxmayaraq, maskulin oriyentasiyalıdır. Onların qeyd etdikləri kimi, istənilən mədəniyyətdə gender rolunun formalaşmasına təsir edən gender idealları xasdır. Bu stereotiplərə əsasən, maskulinizasiya fəallıqla, güclə, inamla, səlahiyyətlə, üstünlüklə, passivliklə, asılılıq və tabeçiliklə, emosionallıqla assosiasiya edilir [2]. C. Stokkard və M. Conson kişilərin instrumentallığa və fərdi nailiyyətlərə, elecədə başqa qadınlara yönəlməsini qeyd edirlər. L.M. Şeqlov gender ideallarını xarakterizə edərək, qızların empatiyasını və gənc oğlanların fərdi və aqressiv xarakteristikasını qeyd edir. XX əsrin ortalarında humanist psixologiya formalaşmağa başladı. K. Rocers hesab edirdi ki, özünüaktuallaşdıran insan, insanlığın yeni mədəni idealıdır və onun qadına xas olan xüsusiyyətləri vardır: həlimlik, insanlara diqqət, rəhmlilik, həssaslıq və s. O cümlədən, K. Rocersin yanaşmalarında əlaqənin keyfiyyətinə diqqət yetirilir, mühüm tərkib hissələr, empatik anlaşmalar və şərtsiz pozitiv münasibətlər ənənəvi qadın rolunu nümayiş etdirən keyfiyyətlər ekspressiv keyfiyyətlər kimi şərh olunur. O, "dəyişkənlik, qeyri – sabitlik, zəngin diferensiasiya edilmiş reaksiyalar vasitəsiz hiss həyəcanını göstərirdi". Görünür, bu həyəcan femin yönümlüdür. Elmi idrakda bu stereotiplərin taleyi maraqlıdır. İlk təsəvvürlər dixotomiya ruhunda verilmişdir. Davranış əlamətlərinə kişiyə və qadına xas olan əlamətlər kimi baxılırdı. Artıq qədim sivilizasiyalarda bu, sadə sosioloji model, ikili standartdan çoxsaylı geriçəkilmələrlə tarazlaşdırılırdı.

Müəyyən edilmişdir ki, cinslər arasındakı hiss olunan fərqlər onların beyin yarımkürələri arasındakı asimetriyadan irəli gəlir. Deməli, psixika şöbələri arasındakı qarşılıqlı əlaqələr qadın və kişilərdə bir-birindən fərqlənir. Q. Lansdellin müəyyən etmişdir ki, kişilərdə asimetriya funksiyası daha güclü şəkildə baş verir. Yəni qadınlarla müqayisədə kişilərdə asimetriyanın səviyyəsi çox yüksəkdir.

Psixologiyada genderin daha dərin anlamına nail olmaqdan ötrü onu müxtəlif nəzər nöqtələrindən müxtəlif nəzəriyyələrdə araşdırmaq, uşaq və böyük yaşlarda sosiallaşma aspektlərini, həmçinin gender asimmetriyası aspektlərini daha geniş öyrənmək lazımdır. Bir tərəfdən, feminist araşdırmaların məntiqi davamı olan, digər tərəfdən isə bir sıra sosiomədəni proseslərə yeni baxış kontekstində sosial bərabərsizlik probleminin keyfiyyətcə və prinsipcə yeni həll mərhələsi olan gender araşdırmalarının meydana gəlməsi bir neçə səbəblə şərtlənir. Birincisi, gender nəzəriyyəsinin mühüm tərkib hissəsi olan sosial cins konsepsiyası insanda sosial başlanğıcı lazımi qədər səmərəli şəkildə tədqiq etmək və "kişi" və "qadın" rol toplusunun şərtlənmə dərəcəsini sosiumun xüsusiyyətləri ilə aşkar etmək imkanı verir [1]. İkincisi, gender metodologiyası istehsalat və ailə sosial rollarının birləşməsindəki sosial-iqtisadi ziddiyyət mexanizmini açır, bu ziddiyyətin istiqamətini və həlli yollarını müəyyən edir, həmin prosesdə kişinin və qadının iştirak dərəcəsini üzə çıxarır. Üçüncüsü, gender nəzəriyyəsinin sosial siyasətdə qadına qarşı proteksionizmin feminizmdə mühüm nailiyyət olaraq müasir şəraitdə onun qeyri-bərabər vəziyyətinin guya aradan qaldırıldığını göstərir və mahiyyət etibarilə qadına qarşı həmişə qeyri-obyektiv münasibət yaradır. Bununla bağlı olaraq sosial bərabər imkan mühitinin formalaşması üçün şəraitin yaradılmasına yönələn yeni siyasətin nəzəri-metodoloji əsaslarının işlənməsi vacibliyi duyulur. Dördüncüsü, gender araşdırmalarının əsas qayəsi hər bir şəxsin suverenliyi və bərabərhüquqlu inkişafı olan ictimai

həyatın bütün dünyada demokratikləşməsi və humanistləşdirilməsi meyli ilə birləşir. Prinsip etibarilə yeni olan bu siyasətin əhəmiyyəti, hər şeydən əvvəl, insan cəmiyyətinin bütün nümayəndələrinin harmonik yaşaması üçün əlverişli şəraitin yaranması yollarının elmi axtarışında və əsaslandırılmasındadır.

Psixoanalitik müəlliflər kişi və qadın arasındakı psixoloji fərqlərə diqqət yetirir, lakin qadın gender rollarının inkişafı barədə çox vaxt kişi inkişafı ilə bağlı təsəvvürlərə əsaslanaraq ümumi nəzəri nəticə çıxarmağa cəhd göstərirdilər. Z. Freyd şəxsiyyətin anatomiyasına üç əsas struktur daxil edir: İd, Eqo və Supereqo. Bu üçhissəli şəxsiyyət bölümü psixi həyatın struktur modeli kimi məlumdur, amma Freyd hesab edirdi ki, həmin tərkib hissələri şəxsiyyətin xüsusi "strukturları" kimi deyil, müəyyən proses kimi nəzərdən keçirilməlidir. Şəxsiyyətin inkişafında valideynlərin rolu və uşaqlıq amili psixoanalizdə üstünlük təşkil edən leytmotiv olaraq qalır: doğuşdan bioloji cinsin müəyyən olunması valideynləri körpə ilə müəyyən davranış tərzinə sövq edir. Onlar uşağa bu ailədə kişiliyin və qadınlığın nə olduğu və nədə ifadə olunduğu barədə çoxsaylı verbal və qeyri-verbal xəbərlər ötürür; burada həmin cinsə aid olan balacaya münasibətdə valideynlərin, bacı və qardaşın mövqeyi, həmçinin müxtəlif şüurlu və qeyri-şüurlu fantaziyalar əksini tapır. Psixoanaliz nöqteyi-nəzərindən ana və qızın qarşılıqlı münasibəti onların hər ikisinin inkişafına böyük təsir göstərir.

Freydin qadın psixologiyasına dair son məqaləsinin bəzi müddəalarında onun daha ilkin tədqiqatları ilə müqayisədə qadın psixologiyasına mədəni amillərin təsiri əlavə olaraq nəzərdən keçirilir. "Eyni zamanda, biz qadını passivlik vəziyyətinə salan sosial qaydaların təsirinə verilən qiymətə diqqət yetirməliyik". K.Q. Yunq belə bir nəticəyə gəlmişdir ki, insanın "mən"i mürəkkəb kompleks olaraq Eqodan – özü barəsində şüurlu təsəvvürlərdən, şəxsi qeyri-şüuri məzmun elementlərindən və ümumi xarakter daşıyan qeyri-şüuri elementlərdən – kollektiv qeyri-şüuri arxetiplərdən ibarətdir və bu, gender nəzəriyyəsi baxımından müəyyən maraq doğurur. Ruh üç ayrı, lakin birbiri ilə qarşılıqlı təsirdə olan strukturdan ibarətdir: Eqo, Yunqun göstərdiyi kimi, "mən"i dərk edənin tamlığını, onun dəyişməzliyini, özü ilə eyniliyini və beləliklə də onun mahiyyətini, nisbi ayrıcılığını təmin edən birməzmunlu şüur mərkəzidir. Eqo – düşüncələr, duyğular, anadangəlmə sosial qəbul edilmiş meyillər, simpatiya və antipatiyalar, mədəni stereotiplər, xatirələr, hisslərdir ki, onların vasitəsi ilə biz öz tamlığımızı, dəyişməzliyimizi hiss edir və özümüzü insan olaraq qəbul edirik. Yunq yazırdı: "Eqo deyərkən mən şüurumun sahə mərkəzini təşkil edən ideyalar, təsəvvürlər kompleksini başa düşürəm və mənə elə gəlir ki, o yüksək dərəcədə aramsızlığı və öz-özü ilə oxşarlığıyla seçilir". Şəxsi qeyri-şüuri olaraq özündə nə vaxtsa dərk olunan, indi isə susdurulmuş, yaxud unudulmuş münaqişə və xatirələr birləşdirir. Şəxsi qeyri-şüuriyə fərdin öz keçmişi, şəxsi təcrübəsi yaxud nəslinin irsi təcrübəsindən götürdüyü emosionallıqla dolu fikirləri, hissləri və xatirələrinin kompleksi, yaxud məcmusu daxildir. Yunq iddia edirdi ki, şəxsi qeyri-şüur hər birimizdə təkrarolunmazdır. Bir sıra şəxsi meyil və niyyətlər ailədəki tərbiyə və həmin cəmiyyətə xas olan mədəni əxlaq normalarının təsiri nəticəsində qeyri-şüuriyə aid edilə bilər. Nəhayət, Yunq şəxsiyyətin strukturunda özünün kollektiv qeyri-şüuri adlandırdığı daha dərin qatın olması haqda fikir irəli sürürdü. Yunqun fikrincə, kişinin təhtəlşüurunda zahiri həyatda sıxışdırılıb çıxarılmış, onu tamamlayan qadın elementi, qadının təhtəlşüurunda isə kişi elementi vardır. Özünün

qeyri-şüuri tamamlayıcısını kişi qadın obrazı vasitəsilə, qadın isə kişi obrazı vasitəsilə qəbul edir. Yunq yazırdı: "Kişinin şüurunda kollektiv qadın obrazı mövcuddur ki, onun köməyi ilə kişi qadın təbiətini dərk edir", "hər bir ana və hər bir sevgili insanın ən dərin reallığına müvafiq gələn bu əbədi və yaşı olmayan obrazın təcəssümünə çevrilir". Bu obrazlar insanın şüuri və qeyri-şüuri təbiəti arasında bənd rolunda çıxış edir. Yunq burada müəyyən dərəcədə müəllimi Freydin ardınça gedir: insan üçün daha əlçatan olan qəlbin qeyri-şüuri ideyaları çox vaxt əks cinsin obrazı ilə bağlı olur. Psixologiya ilə heç bir tanışlığı olmayanlar, adətən, Anima obrazını tamamilə real qadının üzərinə keçirir və onu sırf zahirən qəbul edirlər. Psixoloji baxımdan isə Anima – yalnız kişiyə təsir göstərən xarici amil yox, onun içində olan bir şeydir. Anima – mənəvi yüksəlişə aparan hansısa ideal şəklində təsəvvür olunan daxili qadın obrazı, yaxud qadın başlanğıcıdır. Bu – kişi şəxsiyyətinin qeyri-şüuri qadın tərəfidir. Bütövlükdə Anima anlayışına üç müxtəlif səviyyəli komponent daxildir: kollektiv qadın obrazı; insanın qadın keyfiyyətləri barədə fərdi təsəvvürləri; kişinin daxilində gizlənmiş qadın prinsipləri. Yunqun fikrinə görə, "Öz"lüyün təsdiqinin əsası var və hətta bu, vacibdir. Hər şeydən əvvəl, ona görə ki, real şəkildə özünü insanın psixi və mədəni fəaliyyətini simvolik formalarında aşkar edir. Bütün dövrlərdə və bütün mədəniyyətlərdə insan təsnifatının ən geniş yayılmış üsulu onun kişi və qadına bölünməsidir. Cins insanın heç zaman yaddan çıxartmadığı yeganə atributudur. Həmin problemlə bağlı sosial psixoloqların fikri olduqca vacibdir, çünki onlar diqqəti davranışımızı "maskilun", yaxud "femin" kimi formalaşdıran norma və rollara yönəldir. Qadın və kişinin psixoloji keyfiyyətlərindəki fərq bəlkə də kişi başlanğıcının birinciliyini və üstünlüyünü sübut etmək məqsədi güdən alimləri həmişə maraqlandırmışdır, çünki qadının psixoloji keyfiyyətləri kişi alimləri tərəfindən diqqətəlayiq sayılmırdı. Müəyyən mənada qadının psixoloji əlamətlərinə toxunan Ziqmund Freyd mahiyyət etibarilə onu natamamlıq kompleksindən əziyyət çəkən kimi təsvir edirdi. Sonralar Yunq Anima kişi şəxsiyyətinin şüursuz qadın tərəfi, Animusu isə qadın şəxsiyyətində şüursuz kişi tərəfi kimi qeyd edərək, heterogen şəxsiyyət strukturundan söhbət açır. Karen Horninin neofreydizmini qadın psixologiyasının rüşeymi hesab etmək olar. O, öz nəzəriyyəsində psixoanalizin irəli sürdüyü komplekslərini alt-üst edir, psixologiyada sosiomədəni yanaşmanı inkişaf etdirir, cinsi rolların formalaşmasında mədəniyyətin əhəmiyyətinə diqqəti yönəltməklə qadının "inkişafdan qalmış kişi" kimi nəzərdən keçirilməsini ciddi tənqid edirdi. Beləliklə, psixoloji-pedaqoji tədqiqatlarda gender problemləri bu gün də aktualdır və diqqət mərkəzində saxlanılır, araşdırmalar aparılır və oyrənilir.

**Açar sözlər:** maskulin, femen, gender, sosial cins, bioloji cins.

**Ədəbiyyat**

1. Əliyev B.H. Cütlüklərin formalaşması prosesinin bəzi sosial-psixoloji xüsusiyyətləri, "Tələbələrin mənəvi təkmilləşməsi problemləri" mövzusunda elmi konfransln materialları. Bakı, 1984, s. 126-132.
2. Исаев Д.Н., Каган В.Е. Половое воспитание и психогигиена пола у детей. Л.: Медицина, 1979, 270 с.